Rezonans SAİB .

ISSN (online): 2709-7846
ISSN (print): 2709-7854
ISSN - L: 2709-7846

# SOSİOLOGİYA. SOSİAL PSİXOLOGİYA. SİYASƏT

(Elmi araşdırmalar jurnalı)

# SOCIOLOGY. SOCİAL PSYCHOLOGY. POLITICS

(Journal of scientific research)

Cild 2
N 3
Bakı -2022

**https://asosindex.com.tr/index.jsp?modul=journal-page&journal-id=2550**

**http://www.gias.ge/Home/JournalListDetail/1073**

ARӘN Reyestr №: 4307
ISSN (print): 2709-7846
ISSN (online): 2709-785
ISSN - L: 2709-7846

# SOSİOLOGİYA. SOSİAL PSİXOLOGİYA. SİYASӘT
**(Elmi araşdırmalar jurnalı)**

# SOCIOLOGY. SOCIAL PSYCHOLOGY. POLITICS
**(Journal of Scientific Research)**

**Cild 2**
**№3**

**Bakı – 2022**

**Təsisçi:**
**“REZONANS”**
**Sosial Araşdırmalar İctimai Birliyi**

**REDAKSİYA ŞURASI:**

**Redaksiya şurasının sədri:**
**Məryəm SEYİDBƏYLİ,** tarix elmləri doktoru, professor

**Baş redaktor:**
**Ramilə DADAŞOVA,** siyasi elmlər doktoru, dosent

**Baş redaktorun müavinləri:**
**Səadət MƏMMƏDOVA,** sosiologiya elmləri doktoru, dosent
**Südabə HÜSEYNOVA,** psixologiya üzrə fəlsəfə doktoru, dosent

**Məsul katib:**
**Novruz NURİYEV**

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

**Sosiologiya və sosial psixologiya üzrə:**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Bəhruz Cabbarov**
Fəlsəfə elmləri doktoru, professor **Eyyub Kərimov**
Sosiologiya üzrə fəlsəfə doktoru **Farzad Qasımzadeh** (İran)
Sosiologiya elmləri doktoru, professor **Hüseyn Qaraşov**
Fəlsəfə elmləri doktoru, professor **İlham Məmmədzadə**
Fəlsəfə elmləri doktoru, professor **İzzət Rüstəmov**
Fəlsəfə elmləri doktoru, professor **Qızılgül Abbasova**
Psixologiya elmləri doktoru, professor **Məcid Mahmud Alilou** (İran)
Hüquq elmləri doktoru, professor **Mayis Əliyev**
Fəlsəfə elmləri doktoru, professor **Muxtar Yaxyayev** (Rusiya)
Fəlsəfə elmləri doktoru, professor **Mübariz Süleymanlı**
Sosiologiya elmləri doktoru, professor **Rafail Həsənov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent **Rəşad Əsgərov**
Psixologiya elmləri doktoru, professor **Rəna İbrahimbəyova**
Psixologiya elmləri doktoru, professor **Rəna Qədirova**
Fəlsəfə elmləri doktoru, professor **Rəna Mirzəzadə**
Fəlsəfə elmləri doktoru, professor **Sakit Hüseynov**
Fəlsəfə elmləri doktoru, professor **Tahirə Allahyarova**
Pedaqogika üzrə fəlsəfə doktoru **Tünzalə Verdiyeva**
Sosiologiya üzrə fəlsəfə doktoru, dosent **Üzeyir Şəfiyev**
Psixologiya elmləri doktoru, professor **Zarema Akbiyeva** (Rusiya)
Hüquq elmləri doktoru, dosent **Zaur Məmmədov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent **Zeynəddin Şabanov**

**Siyasət üzrə:**

PhD., Dos. **Ainur Nogayeva** (Qazaxıstan)
Dos., Dr. **Adem Sagir** (Türkiyə)
Prof., Dr. **Ali Asker** (Türkiyə)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Almaz İsmayılova** (Rusiya)
Prof., Dr. **Amir Ahmed Khuhro** (Pakistan)
Tarix elmləri doktoru, professor **Artur Qereviç Dalqatov** (Rusiya)
Prof. Dr. **Asem Nauşabayeva Hekimoglu** (Türkiyə)
Dos., Dr. **Can Kakışım** (Türkiyə)

Tarix elmləri doktoru, professor **Christopher Gunn** (ABŞ)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Elnur Kəlbizadə**
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Elvin Talışinski**
Dos., Dr. **Ersin Müezzinoğlu** (Türkiyə)
Tarix elmləri doktoru, professor **Eynulla Mədətli**
AMEA-nın müxbir üzvü **Hacıfəxrəddin Səfərli**
Prof., Dr. **İbrahim Ethem Atnur** (Türkiyə)
Dos., Dr. **İshak Turan** (Türkiyə)
Tarix elmləri doktoru, professor **Kərim Şükürov**
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Kəmalə Ruintən**
Prof., Dr. **Kemal Çiçek** (Türkiyə)
Tarix elmləri doktoru, professor **Qabil Əliyev**
Tarix elmləri doktoru, professor **Qasım Hacıyev**
Tarix elmləri doktoru, professor **Quram Marxulia** (Gürcüstan)
Dos., Dr. **Masaoumeh Daei** (İran)
Dos., Dr. **Nasirəddin Əlizadə** (İran)
Akademik **Nərgiz Axundova**
Prof., Dr. **Numan Aruç** (Şimali Makedoniya)
Prof., Dr. **Nurgun Koç** (Türkiyə)
Dos., Dr. **Okan Yeşilot** (Türkiyə)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Oleq Kupçik** (Ukrayna)
Tarix elmləri doktoru, dosent **Sevinc Əliyeva**
Tarix üzrə fəlsəfə doktoru, dosent **Sevinc Ruintən**
Tarix elmləri doktoru, professor **Yaroslav Pilipçuk** (Ukrayna)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Zaur Əliyev**

**REDAKSİYA HEYƏTİNİN ÜNVANI:**
**AZ11075, Azərbaycan Respublikası, Bakı şəhəri,**
**A.M.Cümə 19/69, bina 28, mənzil 28**
**Tel.: (+994 55) 768 94 26**
**E–mail: ssps.journal2020@gmail.com**
**http: // www.sosiologiya-jurnali.az**

**© Sociology. Social psychology. Politics**
**© www.sosiologiya-jurnali.az**

**Founder:**
**"REZONANS" Sosial Research Community**

**EDITORIAL BOARD:**
**Chairman of the Editorial Board:**
**Maryam SEYIDBAYLI**, Doctor of Historical Sciences, Professor

**Editor-in-chief:**
**Ramila DADASHOVA**, Doctor of Political Sciences, Associate Professor

**Deputy editor-in-chief:**
**Saadat MAMMADOVA**, Doctor of Sociological Sciences, Associate Professor
**Sudaba HUSEYNOVA**, Doctor of Philosophy in Psychology, Associate Professor

**Executive secretary:**
**Novruz NURİYEV**

**EDITORIAL BOARD MEMBERS:**

**On Sociology and Social Psychology:**

Doctor of philosophy in pedagogy, associate professor **Bahruz Jabbarov**
Doctor of Philosophy, Professor **Eyyub Karimov**
Doctor of Philosophy in Sociology **Farzad Gasimzadeh** (Iran)
Doctor of Sociology, Professor **Huseyn Garashov**
Doctor of Philosophy, Professor **Ilham Mammadzade**
Doctor of Philosophy, Professor **Izzat Rustamov**
Doctor of Philosophy, Professor **Gizilgul Abbasova**
Doctor of Psychological Sciences, Professor **Majid Mahmoud Alilou** (Iran)
Doctor of legal sciences, professor **Mayis Aliyev**
Doctor of Philosophy, Professor **Mukhtar Yakhyayev** (Russia)
Doctor of Philosophy, Professor **Mubariz Süleymanli**
Doctor of Sociology, Professor **Rafail Hasanov**
Doctor of philosophy, associate professor **Rashad Asgarov**
Doctor of Psychological Sciences, Professor **Rena Ibrahimbeyova**
Doctor of Psychological Sciences, Professor **Rena Gadirova**
Doctor of philosophy, professor **Rena Mirzazade**
Doctor of Philosophy, Professor **Sakit Huseynov**
Doctor of Philosophy, Professor **Tahira Allahyarova**
Doctor of Philosophy in Pedagogy **Tunzale Verdiyeva**
Doctor of Philosophy in Sociology, Associate Professor **Uzeyir Shafiyev**
Doctor of Psychological Sciences, Professor **Zarema Akbiyeva** (Russia)
Doctor of legal sciences, associate professor **Zaur Mammadov**
Doctor of philosophy, associate professor **Zeynaddin Shabanov**

**On Politics:**
Ph.D., Assoc. **Ainur Nogayeva** (Kazakhstan)
Assoc., Dr. **Adem Sagir** (Turkey)
Prof., Dr. **Ali Asker** (Turkey)
Doctor of Philosophy in History, associate professor **Almaz Ismayilova** (Russia)
Prof., Dr. **Amir Ahmed Khuhro** (Pakistan)
Doctor of historical sciences, Professor Artur **Gerevich Dalgatov** (Russia)
Prof. Dr. **Asem Naushabayeva Hekimoglu** (Turkey)
Assoc., Dr. **Can Kakishim** (Turkey)
Professor, Doctor of History **Christopher Gunn** (USA)
Doctor of philosophy in history, associate professor **Elnur Kalbizade**

Doctor of Philosophy in Political Sciences, Associate Professor **Elvin Talishinski**
Assoc., Dr. **Ersin Muezzinoglu** (Turkey)
Doctor of historical sciences, professor **Eynulla Madatli**
Corresponding member of ANAS **Hajifakhraddin Safarli**
Prof., Dr. Ibrahim **Ethem Atnur** (Turkey)
Assoc., Dr. **Ishak Turan** (Turkey)
Doctor of historical sciences, professor **Karim Shukurov**
PhD in political sciences, associate professor **Kamala Ruintan**
Prof., Dr. **Kemal Çiçek** (Turkey)
Doctor of historical sciences, professor **Gabil Aliyev**
Doctor of historical sciences, professor **Gasim Hajiyev**
Doctor of historical sciences, professor **Guram Marxulia** (Georgia)
Assoc., Dr. **Masaoumeh Daei** (Iran)
Assoc., Dr. **Nasiruddin Alizadeh** (Iran)
Academician **Nargiz Akhundova**
Prof., Dr. **Numan Aruç** (North Macedonia)
Prof., Dr. **Nurgun Koç** (Turkey)
Assoc., Dr. **Okan Yesilot** (Turkey)
Doctor of Philosophy in History, Associate Professor **Oleg Kupchik** (Ukraine)
Doctor of historical sciences, associate professor **Sevinj Aliyeva**
Doctor of philosophy in history, associate professor **Sevinj Ruintan**
Doctor of historical sciences, professor **Yaroslav Pilypchuk** (Ukraine)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Zaur Aliyev**

**ADRESS OF THE EDITORIAL BOARD:**
**AZ11075, Republic of Azerbaijan,**
**Baku city, A.M.Juma 19/69, building 28, apartment 28**
**Tel.: (+994 55) 768 94 26**
**E-mail: ssps.journal2020@gmail.com**
**http: // www.sosiologiya-jurnali.az**

**© Sociology. Social psychology. Politics**
**© www.sosiologiya-jurnali.az**

## MÜNDƏRİCAT

## TABLE OF CONTENTS

### Sosiologiya və sosial psixologiya
### Sociology and social psychology

**Ayşən Məmmədova**
Daun sindromlu şəxslərlə aparılan sosial işin əsas xüsusiyyətləri........................................................8

**Ella Abdullayeva**
Məişət zorakılığı və bununla bağlı mövcud vəziyyət..........................................................................16

**Naciyə Həsənova**
Əlillik anlayışı, səbəbləri və fiziki əlilliyin təsnifatı...........................................................................24

**Sevinc Şahverdiyeva**
İnsan psixologiyasına duaların təsiri imkanlarının təhlili....................................................................30

**Türkan Nəcəfova**
Xaricdə təhsil alan tələbələrin uyğunlaşma problemləri.....................................................................36

**Üzeyir Şəfiyev**
Yeni nəsil cəmiyyət, qlobal çağrışlar və sosial elmlər........................................................................42

### Siyasət
### Politics

**Ali Asker**
**Sait Çakmak**
Ana çizgileriyle Turgut Özal'in siyasi portresi: vizyon, politika ve söylemler ışığında bir değerlendirme.............................................................................................................................49

**Eynulla Mədətli**
Şərqi Türküstanda İkinci Respublika və onun SSRİ ilə əlaqələri.......................................................66

**Hacıfəxrəddin Səfərli**
Moskva müqaviləsi və Naxçıvan..........................................................................................................74

**Lətafət Beybutova**
Ermənilərin Zəngəzur Qəzasında törətdikləri soyqırımlar...................................................................81

### Kitab təqdimatı Book presentation

**Eynulla Mədətli**
Pakistan: Qısa tarixi-siyasi oçerklər...................................................................................................86

UOT 364.044.43

# DAUN SİNDROMLU ŞƏXSLƏRLƏ APARILAN SOSİAL İŞİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Ayşən Məmmədova***

Məqalə redaksiyaya daxil olmuşdur: 4 *iyun 2022; çapa qəbul edilmişdir: 10 iyun 2022; onlayn çap edilmişdir: 30 oktyabr 2022*

Received: *11th of June, 2022; accepted: 10th of June, 2022; published online: 30th of October, 2022*

**Xülasə**

Hər bir yaş dövrünün özünəməxsus problemləri var və onlar uşaqlardan da yan keçmir. Təəssüf bu problemlər arasında cəmiyyəti ən çox təhdid edən və daim təşviş içərisində saxlayan sağlamlıqla bağlı olanlardır. Bildiyimiz kimi elm və texnologiyanın surətli inkişafı tibb sahəsinə də öz müsbət təsirini göstərmiş və yeni nailiyyətlər əldə olunmuşdur. Lakin təəssüflə qeyd edirik ki, müasir səhiyyə sistemi hələ də bəzi xəstəliklər qarşısında acizdir və onların tamamilə aradan qaldırılması mümkün deyildir. Daun sindromu da bu qrupa daxildir. Sindromun yaranması səbəbləri, insanlar üzərindəki təsirləri, müalicə mexanizmləri daim dünya ictimaiyyətinin diqqətini cəlb edən əsas məsələlərdən biri olmuşdur. Daun sindromunun hər bir fərd üzərində təsirləri müxtəlif olduğuna görə tibb mütəxəssisləri bu mövzuda daim araşdırmalar aparmış və müalicə prosesinin müxtəlif sosial, bioloji və psixoloji məqamlarını aşkara çıxarmışlar. Onu da qeyd etmək lazımdır ki, sindrom fiziki-bioloji problemlərlə yanaşı sosial-psixoloji çətinlikləri də bərabərində gətirdiyi üçün dünyanın əksər sivil dövlətlərində daun sindromlu şəxslər və onların yaxınları sosial xidmət sahəsinin əsas obyektləri kimi qiymətləndirilir. Daun sindromlu şəxslərin sosiallaşması və cəmiyyətə inteqrasiya olunması böyük əhəmiyyət daşımaqla yanaşı sosial xidmət sahəsi və bu sahədə çalışan mütəxəssislərin labüdlüyünü şərtləndirir. Bu kateqoriyaya daxil olan fərdlərin sosiallaşması bilavasitə sosial iş müstəvisində sosial işçilər tərəfindən həyata keçirilir.

**Açar sözlər**: *Daun sindromu, sosial iş, klient, ailə, yardım, keys, idaretmə*

Son dövrdə aparılan araşdırmalar göstərir ki, ailədə daun sindromlu uşağın olması iqtisadi, tibbi və sosial cəhətdən ailə üzvlərinə genişmiqyaslı təsir göstərməklə yanaşı edilən hər hansı sosial müdaxilənin ailənin yaxın ətrafı, sosial mühiti nöqteyi-nəzərindən qiymətləndirilməsini tələb edir. Bütün digər sosial keyslərdə olduğu kimi daun sindromlu şəxslərə edilən müdaxilə zamanı da ilk addım qiymətləndirmə hesab olunur. Bu, adətən sosial işçi, klient və ailə arasındakı məlumat mübadiləsi və uğur əldə etmək üçün birgə vaxt keçirmək, müsbət, mənfi, zəif və güclü tərəfləri qiymətləndirmək vasitəsilə həyata keçirilən keys menecment (case management) adlanan prosesin ilkin mərhələsi hesab edilə bilər. Bir çox hallarda qiymətləndirmə ilə ilk müdaxilə sosial işin obyekt və subyektləri üçün eynilik təşkil edir və onları bir-birindən ayırmaq demək olar ki mümkün olmur, çünki bəzən qiymətləndirmə zamanı ilkin müdaxilə artıq başlamış olur. Daun sindromlu şəxslə aparılan sosial iş zamanı şərait nəzərə alınmaqla onun özü və ya ailə üzvləri ilə keçirilən qiymətləndirmə xarakterli görüşlər bir və ya iki dəfə keçirilə bilər, lakin bu, eyni zamanda ailənin bütün fərdlərinin eyni anda və ya tək-tək qatıldığı və naməlum zaman dilimi ərzində davam edən bir prosesə də çevrilə bilər. Əvvəlki bölmədə qeyd etdiyimiz kimi daun sindromunun səbəbləri, şəxs üzərindəki əksər təsirləri və müalicə səciyyəli metodlar eynilik təşkil etsə də trisomiya 21-dən

* *Magistr, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, Azərbaycan*
*E-mail:* ayshanmammedova98@gmail.com

əziyyət çəkən şəxslərin hamısını eyniləşdirib konkret bir qəlibə aid etmək düzgün deyildir. Onların fərqliliyi onlarla aparılan sosial işə də birbaşa təsir göstərməklə çox müxtəlif keyslərin meydana çıxmasına səbəb olur [1, s.36].

Əvvəlki hissədə qeyd etdiyimiz kimi daun sdinromundan əziyyət çəkən fərdlər digər insanlarla müqayisədə zəif və ya orta səviyyədə zəka geriliyi nümayiş etdirməklə yanaşı eyni zamanda fiziki prolemlər və inkişaf ləngimələrinə də məruz qalırlar. Bəzən bütün bunlara baxmayaraq gündəlik həyat fəaliyyətinin, təhsil və iş həyatının idarə olunmasının, sosial əlaqələrin qurulmasının öhdəsindən gəlmək iqtidarında olan daun sindromlu fərdlər ətrafdakı bəzi insanlar, hətta ailə üzvləri tərəfindən belə yetərincə dəstək, diqqət və qayğı görə bilmirlər. Ailələrin orqanizmdə artıq bir xromosom ilə dünyaya gələn körpəyə qarşı münasibəti əksər hallarda heç də ürəkaçan olmur, çünki təbii olaraq hər bir valideyn uşağının mükəmməl bir bədəndə, fiziki və zehni cəhətdən sağlam doğulmasını arzulayır və əksinin olmasını böyük bir bədbəxtlik olaraq beynində kodlayır. Anggreni və Valentina adlı alimlərin apardığı araşdırmalar bir daha sübut etmişdir ki, övladı daun sindromu ilə doğulan valideynlərin əksər hissəsi bu təcrübə ilə qarşılaşarkən özlərini üzgün, xəyal qırıqlığına uğramış və şok içərisində hiss edirlər. Eyni zamanda qeyd olunur ki, potensial olaraq sözügedən təcrübəni yaşayacaq olan gənc ailələr bundan narahat olmamalı və stres keçirməməlidirlər. Gec ya da tez ana və ataların əksəriyyəti mövcud vəziyyəti qəbul edib övladlarının digər uşaqlardan kəskin şəkildə fərqlənmədiyini, düzgün qurulmuş tərbiyə və təhsil sistemi, eyni zamanda lazımi mütəxəssislərin köməyi ilə fiziki çatışmazlıqların aradan qaldırıla bildiyini dərk edir və onlar üçün əllərindən gələni əsirgəmirlər. Fikrimizcə bu çətin prosesdə ailələrin ən yaxın köməkçisi sosial işçilər hesab oluna bilər. Xromosom anomaliyasının bərabərində gətirdiyi fərqliliklər daun sindromlu uşaqları digərləri ilə müqayisədə qayğıya və xüsusi rəftara daha möhtac hala gətirir. Valideynlər təkcə özlərinin deyil ailənin digər üzvlərinin də daun sindromlu şəxsə davranışı, onu qəbul etmək və dəstək göstərmələri eyni zamanda ailənin digər uşaqlarının maddi-mənəvi ehtiyaclarının ödənilməsi, ailə büdcəsinin idarə edilməsi, valideyn sevgisinin övladlar arasında bərabər bölünməsi üçün məsuliyyət daşıyırlar. Həmçinin fikrimizcə uşağın vəziyyətini qəbul edib dəstəkləmək heç də asan qərar hesab olunmamalıdır, çünki daun sindromu ilə doğulan uşağın geniş ailə daxilində normal qarşılanması, cəmiyyətdəki digər insanlar arasında özünə yer tapmaq üçün addım ata bilməsi, qohumluq bağı olan və ya olmayan şəxslərin uşağa qarşı münasibətlərinin tənzimlənməsi də ilk növbədə valideynlərin yanaşmasından asılı olaraq onların səyi ilə müsbət istiqamətdə formalaşa bilər. Maraqlısı odur ki, orqanizmdəki xromosom cütlərində əlavə xromosomun mövcud olmasını valideynlər hətta keçmişdə etdikləri səhvlərin qarşılığı və ya ailənin lənəti kimi də qəbul edə bilirlər. Bəziləri isə sadəcə olaraq övladlarının əlilliyi olduğunu zənn edir və inkişafdan geri qalacaqlarını fikirləşərək bir növ ümidsizliyə qapılmağı seçirlər. Əlbəttə ailə böyüklərinin bu mövqeyi ailənin digər fərdlərinə olduqca neqativ təsir göstərməklə daun sindromlu fərdin onsuzda çətin olan sosiallaşma və cəmiyyətə tam inteqrasiya prosesini daha da ağırlaşdırır.

Qeyd etməliyik ki yalnız ata və ana deyil eyni zamanda bacı və qardaşlar da ailədə daun sindromlu fərdin olmasından birbaşa olaraq təsirlənirlər. Xüsusilə ailənin böyük uşağının üzərinə müəyyən məhdudiyyətlərə sahib olan bacı və ya qardaşına qayğı göstərmək, maksimum tolerant yanaşmaq və onun qayğısına qalmaq vəzifəsi qoyulur. Bu tələb həmçinin onların hər hansı səhvə yol verdikləri zaman damğalanmalarına və daim yetkin biri davranmalarının gözlənilməsini də gətirib çıxara bilir. Buna görə də daun sindromlu fərdlər və onların ailələri ilə aparılan sosial iş kompleks və məsuliyyətli, həmçinin ən az tibi müdaxilələr qədər zəruri bir proses hesab olunur [3, s.76-77]. Sosial xidmət prosesinin ən əhəmiyyətli 2 mərhələsi ailələrlə sosial iş və uşaqlarla sosial işdir. Qeyd etmək lazımdır ki, sosial iş mütəxəssisləri ilk növbədə sosial xidmətin hədəfinin ailə yaxud uşaq olduğunu müəyyən etməlidirlər. Əsasən bu zaman uşaqların rifahından söhbət getdiyi üçün sosial işçi eyni zamanda həm ailə həm də şəxsin özü ilə paralel olaraq iş aparır ki bunu biz daun sindromlu fərdlərin daxil olduğu keyslərə də aid edə bilərik.

Daun sindromlu uşaqlarla sosial iş müddətində xidmət göstərən şəxs xidmətin obyekti olan daun sindromlu fərdlərə sosial dəstək əldə etmək, sosial ehtiyacları qarşılamaq, digər maddi və

mənəvi ehtiyaclarln qarşılanması üçün resurslar təklif edən mənbələrə çıxış imkanlarının təmin olunması rolunu öz üzərlərinə götürürlər. Əlbəttə ki bu mürəkkəb vəzifə sosial işçinin daun sindromlu fərdin ailəsi ilə birgə hərəkət etməsini, onların yardımından istifadəsini şərtləndirir. Keysin idarə olunması zamanı sosial işçi bir neçə mövqedən çıxış edə bilir, məsələn vasitəçi, köməkçi, məsləhətçi və sairə. Sosial işçilər fərdlərə, qrup və icmalara mövcud resurslardan istifadə, problemləri müəyyən etmə və aradan qaldırmaq üçün hansı addımların atılmalı olması ilə bağlı köməklik göstərir və bu zaman "icraçı (enabler)" funksiyasından çıxış edir. Eyni zamanda onlar daun sindromlu uşağın təhsili, səhiyyə və digər dəstək mənbələrinə birbaşa çıxışını təmin etməklə də uşaqların ehtiyaclarının ödənilməsində əsas icraçı vəzifəsini yerinə yetirirlər. Bir vasitəçi (broker) olaraq sosial işçi fərdləri, qrup və icmaları sosial agentlik və idarələr, icma inkişaf qurumları və digər aidiyyatı dövlət orqanları ilə ehtiyac sahibi ailələri bir araya gətirmə rolunu icra edirlər. Onlar həmçinin səhiyyə və tibb müəssisələri, sosial xidmət agentliklərinin daun sindromlu şəxslər üçün təklif etdiyi imkanlardan xəbərsiz olan valideynləri məlumatlandırır və onlar arasında vasitəçi qismində çıxış edir. İnteqrasiyaçı (facilitator) kimi sosial xidmət mütəxəssisi icma inteqrasiyasını stimullaşdırır və müəyyən məhdudiyyətlərə sahib olan fərdlərin sosiallaşması istiqamətində addımlar atır. Sosial işçi bu zaman ailəyə və daun sindromlu fərdə xidmət etməklə cəmiyyətdə onlara qarşı formalaşmış neqativ və qərəzli münasibəti azaldır, icma və sosium tərəfindən özəl insanların cəmiyyətin ayrılmaz bir parçası kimi qəbul edilməsi istiqamətində fəaliyyət göstərir. Keysin idarə edilməsi müddətində sosial işçi sosial planlayıcı (social planner) da hesab oluna bilər. Sosial planlayıcı fərdlərin, qrup və icmaların üzləşdiyi sosial problemləri müəyyənləşdirir, onlar haqqında məlumat toplayır, təhlil edir və ehtiyacların tamamilə qarşılanması sistemlərində yaranan çətinliklərin aradan qaldırılması istiqamətində yeni rasional metodlar təklif edir. Bu baxımdan sosial işçi həmçinin ailə və uşaqların lazımi sosial dəstəyi əldə etmələri və cəmiyyətə inteqrasiya olunmalarını təşviq edən siyasət planlaması hazırlaya və ya mövcud siyasətdə dəyişiklik edilməsi üçün göstərilən səylərsə iştirak edə bilərlər. Bütün məhdudiyyətlərə baxmayaraq daun sindromlu uşaqların da digər uşaqlarla bərabər təməl ehtiyaclara sahib olduğunu unutmamalıyıq. Lakin təəssüf ki onların cəmiyyətdən təcrid olunması, bəzi resursların əlçatan olmaması və ya insanların məlumatsızlığı daun sindromlu şəxslər və onların yaxın ətrafının xüsusi rəftar görmək və hüquqlarını müdafiə edə bilmək üçün mübarizə aparmalarına səbəb olur. Bəhs etdiyimiz mübarizədə onlarla çiyin-çiyinə addımlayan şəxslərdən biri də sosial işçilərdir. Beləliklə həyata keçirilən sosial xidmət zamanı sosial müdaxilənin qiymətləndirmə mərhələsi ilkin olaraq icra olunsa da, sonradan yəni müdaxilə başladıqdan sonra belə yeni problemlər ortaya çıxdıqda, sosial işçi ailənin ümumi vəziyyətini və ya əldə etdiyi irəliləyişləri, qarşılaşdığı maneələri və ya istifadə olunan yaxud olunacaq metodları nəzərdən keçirmək üçün təkrarən işlədilməsi istisna olunmur. Effektiv və düzgün qiymətləndirmə sosial işçiyə müdaxilənin əsaslana biləcəyi sağlam təməl yaratmağa imkan verir. Tarixən aparılan qiymətləndirmələrin uğurlu olması və ümumi xarakteri çox vaxt resurslar, xidmət və dəstək mexanizmlərinin mövcudluğundan və sosial işçilərin klientlə münasibətlərində etik kodeksin prinsiplərinə maksimum əməl etməsi və keys menecment zamanı yaradıcı olma potensialından asılı olmuşdur. Qeyri-müəyyənlik sosial iş praktikasında hər bir sosial işçinin öhdəsindən gəlməli olduğu əsas faktorlardan biri hesab oluna bilər [8, s.88].

Beləliklə qiymətləndirmə mərhələsi zamanı da testin faydaları və ya riskləri həmişə əvvəldən və ya işin gedişatında məlum olmur. Müştərilərin xidmətin və verilən biliklərin sərhədlərindən xəbərdar olmasını təmin etmək və qeyri-müəyyənliyin aradan qaldırılması üçün çalışaraq sosial dəstəyi əsirgəməmək keyfiyyətli sosial müdaxilənin tərkib hissəsi kimi qiymətləndirilə bilər. Klientlərlə əsasən uzun bir vaxt müddətində məşğul olan sosial işçilər genetik bir xəstəliyin diaqnostikası, ailələrin bu əsasda məlumatlandırılması üçün lazımi emosional və sosial dəstək mexanizmləri inkişaf etdirərək pasientin və onun yaxın ətrafının üzləşdiyi problem və narahatlıqları başa düşməklə onlara birbaşa olaraq köməklik göstərir və ya onlarla aidiyyatı qurum və ya şəxslər arasında vasitəçi rolunu oynayırlar. Daun sindromlu şəxs və onun ailəsi eyni zamanda ətrafındakı insanlarla sosial iş zamanı sosial xidmət bir neçə səviyyədə həyata keçirilir ki bunlardan biri mikro səviyyədir [4, s.23].

Mikro səviyyədə ailələrlə birbaşa iş zamanı sosial xidmət mütəxəssisinin keçdiyi əsas mərhələlər ailə ilə ünsiyyət və yardımçı tərəfdaşlıq yaratmaq, qiymətləndirmə, mümkün həll yollarının, potensial risklərin müəyyənləşdirilməsi, müsbət dəyişikliklərin və ya ümumi situasiyada yaranan fərqliliklərin planlaşdırılması daxildir. Ailə ilə ünsiyyət və yardımçı tərəfdaşlıq yaratmaq mərhələsi böyük əhəmiyyətə malik olmaqla digər səviyyələr üçün zəmin yaradır və keysin nə dərəcədə uğurlu olması qiymətləndirmə prosesi zamanı ailə ilə ünsiyyət və tanışlığın nə dərəcədə keyfiyyətli olması ilə birbaşa əlaqədardır. Hər bir ailə kiçik bir dövlət, sosial institutdur. Hər bir cəmiyyətin təməlində dayanan əsas quruluş məhz ailə birliyidir. Ailə ilə işləmək sosial işçi üçün çətin və məsuliyyətli bir prosesdir, çünki hər bir ailənin öz daxili mühiti, sosial və psixoloji aurası var. Daun sindromlu övlada sahib olan ailə ilə işləməyə başlamazdan əvvəl sosial işçi ailə üzvlərinin həyat tərzi, dünyagörüşü, bir-birlərinə yanaşmaları və ailənin xüsusi üzvünə qarşı münasibətləri barədə ətraflı məlumata yiyələnmək üçün onlarla bacardıqca vaxt keçirməlidir. Bu zaman sosial xidmət mütəxəssisinin üzərinə düşən əsas vəzifə ailələrə öz hekayələrini danışmaq üçün fürsət vermək və beləliklə onların özlərinin yaşadıqları təcrübənin müsbət tərəflərini görməyə və gələcək əməkdaşlıq üçün aydın vizyon yaratmağa imkan verməkdən ibarətdir. Əksər sosial işçilərin xidmət göstərdiyi yüksək risk qrupuna daxil olan daun sindromu və ya başqa genetik xəstəliklərdən əziyyət çəkən övlada malik ailələr stresə, başqalarının fikirlərinə və yarana biləcək potensial münaqişə və inamsızlıqlara, günahkalıq hissinə qarşı daha həssasdırlar. Məhz bu, onları sosial xidmət sektorunun əsas obyektlərindən birinə çevirmişdir. Lakin unutmaq olmaz ki bəzən sadalanan problemlərlə yanaşı gəlir və ya sığınacaq kimi təməl ehtiyacların ödənməsinə də ehtiyac duyulur. Tam kompleks sosial müdaxilə prosesi bu tip ehtiyacların qarşılanmasını da şərtləndirir. Qeyd etdiyimiz kimi daun sindromlu uşağa sahib ailələrin stresə qarşı davamlılığı digər ailələrə nisbətdə daha zəifdir. Kədər, təqsir, stiqma, qəzəb, davamlı tibbi prosedur və xərclər aiələrə öz funksiyalarını həyata keçirməkdə çətinlik törətməklə tez-tez ağır böhranların yaranmasına gətirib çıxara bilir. Lakin təklif olunan xidmət və müalicə prosedurlarında müşahidə olunan kəskin inkişaf danılmazdır [2, s.298].

Sosial işçi effektiv ünsiyyətə nail olmaq və lazımi ehtiyacların ödənməsini təmin etmək üçün dəstək xidmətləri tapmaqda, mövcud tibbi, sosial, psixoloji innovasiyalardan istifadədə ailələrə yaxından yardım etməli eyni zamanda daun sindromlu şəxsin da bütün bu proseslərdə yaxından iştirakına zəmanət verməlidir. Onlarla aparılan sosial işin növbəti səviyyəsi "orta", yəni mezo səviyyə hesab olunur. Mezo səviyyədə aparılan sosial iş çox vaxt icma mühitini yaxşılaşdırmaq və xüsusi ailələrin ehtiyaclarını daha effektiv formada qarşılamaq iqtidarında olan və bu məqsədlə onlarla vəhdətdə hərəkət edən icma təşkilatları vasitəsilə həyata keçirilir. Ailələrlə birbaşa qiymətləndirmə zamanı mövcud olan bir sıra amillər mezo səviyyədə də özünü büruzə verir. Nəzəriyyə və praktika arasında sıx əlaqənin olması, bir-birlərini ifadə etmə şəkli, illər ərzində formalaşan sosial bilik deposunun ön planda olması və problemlərin həll edilməsində bu biliklərə müraciət, keysin idarə edilməsində əvvəlki təcrübələrdən də istifadə olunması mezo səviyyə üçün xarakterik olan əsas hasidələrdən yalnız bir neçəsidir. Digər səviyyə isə makro səviyyədir və mezo səviyyə ilə yaxından əlaqəlidir. Bununla belə makro səviyyədə sosial iş federal, əyalət, regional və icma təşkilatlarında bir sıra əsas sahələrdə atılan addımlar və qiymətləndirmə ilə yanaşı, dövlət siyasətinin təhlili və inkişafı üzrə aparıcı istiqamətləri özündə ehtiva edir. Bir çox sosial xidmət mütəxəssisi üçün bu, fəaliyyətinin nəzər nöqtəsi ola bilər və hətta makro səviyyədə çalışa bilmək məqsədilə birbaşa olaraq praktikadan uzaqlaşa bilərlər. Bu zaman birbaşa ailələrlə cəmiyyətin müxtəlif təbəqələrində işləyərək əldə etdikləri təcrübə və biliklər dövlətin həyata keçirməli olduğu ən düzgün və effektiv siyasəti müəyyənləşdirməyə və praktiki işlərə tənqidi yanaşa bilməyə zəmin yaradır. Digər sosial işçilər isə mikro və mezo səviyyədə öz fəaliyyətlərini davam etdirsələr də, makro səviyyədə qəbul edilən hər hansı qərarın, müəyyən edilən istiqamət və ya siyasətin aparıcı olduğunun fərqində olurlar. Əlbəttə onların makro səviyyəyə və bu səviyyədə çalışan sosial işçilərə təsirinin olmadığını söyləmək olduqca absurtdur. Təqdimat yazıları, məqalə, tezis, nümayiş və digər yazılarla siyasət və ya yeni praktiki istiqamətin lehinə və ya əleyhinə çıxış etməklə öz fikirlərini bildirə bilərlər. Sosial işçi adətən öz işinə ailə üzvlərini danışdırmaqla başlayır. Bəzən ailələr

konsultasiyalar zamanı aylarla bir-biri ilə ünsiyyət qurmur və ya ünsiyyət defisitlərinin əvvəldən etibarən olduğu üzə çıxır. Sosial işçi xidmət göstərən zaman qərəzsiz üçüncü tərəf kimi fəaliyyətini davam etdirir və ailə üzvləri hislərini, istəklərini, qorxu və narahatlıqlarını hətta bir-birləri haqqında fikirlərini, məyusluq və sevinclərini heçbir tərəddüd etmədən asanlıqla onunla bölüşürlər. Onun ünvanladığı hər bir sual ailənin təməlini sarsıda biləcək riskləri ortaya çıxarmağa və onları aradan qaldırmağa köməklik edir. Məsələn əgər hər hansı ailədə böyüyən uşağın davranışlarında xoşagəlməz məqamlar müşahidə olunursa bu, uşağın təbiətindən, tərbiyədə olan boşluqlardan və ya valideynlərinə hörmət etməməsindən asılı olamaya bilər. Ola bilər sadəcə olaraq ailə daxilindəki psixoloji mühit, ana və ata arasındakı münasibətin gərginliyi uşağa mənfi təsir göstərməklə davranış pozulmalarına yol açır. Sosial işçi bütün bunları kənardan görməklə onlara fikirlərini, şüuraltında özlərinin belə xəbərsiz olduğu gizli məqamları ifadə edərək müzakirə edib bir-birini daha yaxşı başa düşməyə sövq edir [6, s.104].

Ata və ananın daun sindromlu fərdin həyatında nə dərəcədə böyük təsirə malik olduğunu vurğulayan türk professor həkim Işın Baral Kulaksızoğlunun fikirlərinə əsasən sosial işçi bir sıra təməl addımların atılmasında ailəyə dəstək verməli və onların bu barədə məlumatlılıq səviyyəsini yüksəltməlidir. Sosial işçilər daun sindromu diaqnozu qoyulmuş uşaqların ailələrinə müxtəlif yollarla kömək edə bilərlər. Onlar əsasən diaqnoz qoyulduqdan sonra bu barədə xəbərin öhdəsindən gəlməkdə, onu qəbul etməkdə valideynlərə emosional dəstək təklif edirlər. Sosial xidmət mütəxəssisləri ailə üzvlərinə stres və emosiyaları idarə etməyi və ya onlarla mübarizə strategiyalarını təklif etməklə insanların beyinlərini məşğul edən sualları cavablandırır yaxud anomaliya haqqında ətraflı məlumat verirlər. Onlar valideynlərə, qəyyum və himayəçilərə daun sindromlu uşaq üçün təklif olunan xidmət və mövcud resurslar haqqında məlumat verə və bu mənbələrin əlçatanlığını təmin etmək üçün əllərindən gələni edə bilərlər. Daun sindromlu ailələrlə işləyən sosial iş peşəkarları ailə üzvlərinə müalicə ehtiyaclarını, uşaqların tibbi durumunu, öyrənmə və ya əqli geriliyi, yaşıdlarından gec, ləng bir formada baş verən bioloji formalaşma prosesini dərindən anlamağa və bunun qarşısını almaq üçün hansı mütəxəssislərin köməyinə ehtiyac duyduqlarını müəyyən etməyə yardımçı olmaqla çox əhəmiyyətli bir funksiyanı yerinə yetirirlər. Eyni zamanda onu da qeyd etmək yerinə düşər ki, bəhs etdiyimiz şəxslər daun sindromlu uşağın ailə üzvlərinin tibbi yardım, müalicə və ya psixoloji xidmət ehtiyacından irəli gələn yarana biləcək potensial maddi çətinliklərin aradan qaldırılmasında lazımi mənbələrdən yardım ala bilməsi üçün məsuliyyət daşıyırlar. Sosial işçilər bunu ailələrə birbaşa və ya aidiyyatı agentlik və təşkilatlarla əlaqələndirmək vasitəsilə həyata keçirirlər. Daun sindromlu şəxslərə işləyən sosial işçilər dedikdə təsəvvürümüzdə yalnız trisomiya 21 patalogiyasından əziyyət çəkən fərdin sosial, psixoloji, ictimai və ya tibbi rihaf səviyyəsinin yüksəldilməsi üçün çalışan xeyirxah insanlar canlana bilər, lakin yadda saxlamaq lazımdır ki uğurlu sosial xidmətə nail olmaq üçün sosial işçi yalnız fərdin özü ilə yox eyni zamanda onun yaxın ətrafı və ailə üzvləri də işləməklə ailə daxilindəki psixoloji mühitin sağlam olmasını, həmrəyliyin qorunub saxlanmasını təmin edirlər. İlkin mərhələdə valideynlərlə aparılan məshələtləşmənin əsas məqsədi onlarla birgə uşağın təbiətinə hərtərəfli yiyələnmək, uşaq üçün real məqsədlər, hədəflər müəyyənləşdirmək və onları həyata keçirmək üçün həmrəy hərəkət etmək və ailənin daxilində məqbul bir yer tuta bilməkdir [5, s.19].

Ətraf mühitdə mövcud olan dinamik mühit daun sindromlu uşağa olduqca güclü təsir göstərir, beləliklə öz potensialını üzə çıxarmağa təkan verir və ya əksinə. Fərdlər və ailələrlə aparılan iş zamanı ailə mərkəzli konsultasiya pasient və ailə arasındakı qarşılıqlı təsir prosesini müəyyənləşdirməyə təkan verir, bu vasitə silə sosial işçi xəstənin ailə üzvlərində yaratdığı təəssüratları və ailə üzvlərinin xəstə üzərindəki təsirini anlamağa müvəffəq olur. Sosial işçilər ailə sisteminə mənfi təsir göstərən bu mürəkkəb vəziyyəti aradan qaldırmaq üçün gərəkli təlimləri keçdikləri üçün lazımi bilik və bacarıqlara malikdirlər. Sosial işin ailə genetikasındakı bu əhəmiyyətli mövqeyi genetik konsultasiyanın unikal bir peşə kimi təkamülündən irəli gəlir. Daun sindromunun hamiləlik dövründə edilən analizlər vasitəsilə müəyyənləşdirilməsi zamanı həkimlər, tibb bacıları və digər tibb işçiləri valideynlərə bu xəbərin ən doğru şəkildə verilməsi və rahatlıqla qəbullana bilmələri üçün əllərindən gələni əsirgəmirlər. Bir çox analar təbii ki xromosom

anomaliyası ilə bağlı tamamilə məlumatsız olur və situasiyanı, keçilən mərhələləri idarə etməyi məhz tibb işçilərinə etibar edirlər. Daun sindromu haqqında tibbi biliklərin olması onların bu sahədə təcrübəyə malik olmaları demək deyil və bu da öz növbəsində bəzi məsələlərin həllində qeyri-müəyyənliklərin yaranmasına və ya boşluqların qalmasına səbəb ola bilir. Təcrübə göstərir ki, həkim heç bir halda bu işlə məşğul olan yeganə peşəkar deyil. Onlar müvafiq məlumat və reursların əsas mənbəyi hesab olunsa da sosial xidmət sahəsində təlim keçmiş ixtisaslı mütəxəssisləri əvəz edə bilməzlər. Lakin onu da vurğulamaq lazımdır ki, valideynlərin həm tibb işçiləri, həm də sosial işçilərin köməyinə eyni anda, eyni dərəcədə ehtiyacı vardır. Daun sindromlu ailələrə göstərilən dəstəkdə tibb bacılarının özünəməxsus rolu vardır. Uşaq doğulduqda və ya tibbi müayinələr zamanı onlar maksimum dəstək göstərməli, ünsiyyət zamanı həssaslıq nümayiş etdirməklə valideynlə uşaq arasında əlaqələrin yaxşılaşmasına, asanlaşmasına şərait yaratmaqla lazım gəldikdə faktiki informasiyaların ötürülməsində yaxından iştirak etməlidirlər. Sosial iş zamanı ilk məsləhət seansının qısamüddətli olması və ya daun sindromlu övladı olan ailə tərəfindən verilən məsləhətlərin yalnız bir neçəsinin qəbul olunması, tam uzlaşma əldə edilməməsi olduqca normal qarşılanmalıdır. Ümumiyyətlə sosial işçilər son dövrlərdə əksər sosial xəstəliklərin qarşısının alınmasında əhəmiyyətli rol oynayırlar. Lakin maraqlısı odur ki, onlar bəzən ümumi böhran vəziyyətində olan insan və ya insan qruplarına çıxış əldə edə bilmirlər. Ailədə qarşılıqlı uyğunlaşma və ya xüsusi sosial plan ehtiyacı hiss edilmədikdə anadangəlmə qüsurlu uşaqlar adətən sosial işçilərin diqqət mərkəzinə çevrilə bilmir. Beləliklə daun sindromu ilə dünyaya göz açan körpələr yalnız sağlamlıq problemləri ilə deyil bəzi sosial-psixoloji çətinliklərin də öhdəsindən gəlməyə vadar olurlar. Bunlardan ən sadəsi xromosom anomaliyasının səbəb olduğu fərqli fiziki xüsusiyyətlərin onları istənilən sosial mühitdə diqqət mərkəzinə çevirməsi hesab oluna bilər. Bundan başqa daun sindromlu fərdlərin valideyn, qohum və yaxın dost-tanış ətrafı həmişə bu vəziyyəti asanlıqla və normal hal kimi qəbul etmir. Bəzi cəmiyyətlər hələ də trisomiya 21-in ailə üçün bir lənət olduğuna inanmaqla doğulan uşağı nəslin utanc mənbəyi kimi qiymətləndirirlər. Məhz bu səbəblə valideynlərin bir hissəsi uşağın daunla doğulması ehtimalına məyusluqla yanaşır, bu fakti ört-basdır edir, bəzən hətta uşaqdan qurtulmaq istədiklərini dilə gətirirlər. Məhz bu məqamda sosial iş insana xidmət peşəsi olaraq daun sindromlu uşaqlar və onların ailələrinə əsasən psixoloji, emosional yardım göstərmək məqsədilə ortaya çıxır. Məlumdur ki ailələr tez-tez daun sindromlu övladlarına qulluq, davranış və müalicə sahəsində yetərincə təcrübə və məlumatın olmaması səbəbilə çətinliklərlə üzləşir, bu, həm uşaqlar həm də valideynlər üçün problem yaradır və ailənin münasibətini mənfi yöndə istiqamətləndirir. Sosial xidmət mütəxəssislərinin fərdlərə, qrup və icmalara kömək etmək üçün icra etdiyi əsas vəzifə cəmiyyətin həssas təbəqəsinə daxil olan insanların sosiallaşmasının təmin olunması, digər insanlarla münasibətlərinin yaxşılaşdırılması və onların sosiumda layiqli bir mövqe tuta bilmələrini təmin etməkdən ibarətdir [7, s.108]

Bütün dünyada o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başlamışdır. Dövlət daxilində baş verən siyasi qarşıdurmalar, hərc-mərclik, iqtisadiyyatın tənəzzül etməsi, Ermənistanın ölkəmizə qarşı yürütdüyü işğalçı siyasət, qaçqın və məcburi köçkün probelmi 90-cı illərdə ölkəmizdə siyasi, ictima, iqtisadi cəhətdən əlverişsiz mühit yaradaraq xalqımızın üzləşdiyi probelmlərin sayını dəfələrlə artıraraq onların həll olunmasını imkansız hala gətirmişdi. Lakin hamımıza məlumdur ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı ilə Azərbaycan yeni inkişaf yoluna qədəm qoydu. Məhz onun hakimiyyəti dövründə dövlət idarəçiliyinin istənilən sahəsində gənclərin iştirakı təmin edildi, paytaxt və rayonlarda infrastruktur bərpa edildi, yeni iş yerləri, xəstəxana və məktəblər kütləvi istifadəyə verildi, xarici investisiyanın ölkəmizə cəlb olunması üçün yeni müqavilələr imzalandı, turizm sektorunun hərtərəfli inkişafı təmin olundu. Heydər Əliyev ölkəmizdə yeni siyasi yolun əsasını qoydu və bu yol özündə bir neçə istiqaməti birləşdirirdi. Onlardan biri məhdud fiziki imkanlı şəxslərin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması və onların sosial ehtiyaclarının qarşılanmasının təmin olunması hesab olunur. Onu da qeyd etmək lazımdır ki, bütün digər məsələlərdə olduğu kimi fiziki imkanları məhdud olan, əlilliyi olan, həssas qrupa daxil olan şəxslərin dövlətin daimi nəzər nöqtəsində olması ulu öndər Heydər

Əliyevin hakimiyyəti dövründə əsası qoyulan bir siyası xətt kimi xarakterizə olunsa da, ondan sonra ölkəni idarə etməyə başlayan davamçısı cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilmişdir. Sözügedən sahədə daim davamlı, mütərəqqi islahatlar həyata keçirilir, qanunvericilik bazası təkmilləşdirilir, cəmiyyətin həssas təbəqəsinə daxil olan üzvlərin lehinə qanun, əmr və sərəncamlar qəbul olunur. Bütün dünyanı əhatə edən və ölkəmizdən də yan keçməyən yeniləşmə, inkişaf, tərəqqi strategiyalarına müvafiq olaraq bəhs etdiyimiz kateqoriyaya daxil olan fərdlərin müasir tibbin ən son yeniliklərindən istifadə edə bilməsi, onların sosial təminatının, sosial rifah səviyyəsinin yüksəldilməsi, sosial və digər bazalı problemlərinin həll edilməsi aparılan dövlət siyasətinin əsas istiqamətini təşkil etməklə bu gün dünya ölkələrinin əksəriyyətinə örnək təşkil edir. Ümumiyyətlə Azərbaycan Respublikası son dövrlər dünya arenasında özünə layiqincə yer qazanmış və dünyanın inkişaf etmiş hegemon dövlətlərinin sadiq müttəfiqinə çevrilmiş, bir sıra nüfuzlu idman və ya musiqi müsabiqələrinin keçirilməsində yüksək səviyyəli təşkilatçılıq nümayiş etdirməklə müstəqilliyini yeni əldə etmiş, hələ inkişaf etmək yolunda irəliləyən bir dövlətin nələrə qadir ola biləcəyini gözlər önünə sərmişdir. Məhz bunun məntiqi nəticəsi olaraq istənilən kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşları dövlətin tam diqqət və qayğısını daim öz üzərlərində hiss etmişdirlər. Biz xüsusilə buna gəncləri, sağlamlıq imkanları məhdud şəxsləri, idmançıları və s. aid edə bilərik. Dövlətimizin 90-cı illərin əvvəllərindən etibarən həyata keçirdiyi uğurlu siyasətin mərkəzində insan faktoru, insan kapitalı dayanır. Belə ki ulu öndər Heydər Əliyevin dövründən etibarən dövlət idarəçiliyində əsas məsələlərdən biri neft kapitalının insan kapitalına çevrilməsi kimi müəyyənləşdirilmişdir. Yeni iş yerlərinin açılması, gənclərin işlə təmin olunması, dövlət idarəçiliyində onların rolunun artırılması, gənclərin milli-mənəvi dəyərləri mənimsəməsi üçün vətənpərvərlik ruhunda tərbiyə olunması, gənclərin təşkilatlanmasının təmin olunması ölkədə mövcud olan əsas siyası xətlərdən yalnız bir neçəsi idi. Hər bir vətəndaşın cəmiyyətə qazandırılması üçün təhsilin əlçatanlığının təmin olunması, mənzil-məişət şəraitinin yaşılaşdırılması üçün maddi dəstək göstərilməsi, həssas təbəqəyə daxil olan insanların məşğulluğunun təşviq edilməsi məqsədilə əmək müəssisələrinə kvotanın tətbiq olunması, asudə vaxtlarının səmərəli keçirilməsi üçün infrastrukturun təkmilləşdirilməsi Azərbaycan Respublikasında son dövrlərdə həyata keçirilən mütərəqqi islahatların yalnız bir qismidir. Bütün bu qeyd etdiklərimiz təbii ki qeyd-şərtsiz olaraq xromosom anomaliyası ilə dünyaya göz açan vətəndaşlarımıza da şamil edilir. Təsadüfi deyil ki, ölkəmizdə həril 3 dekabr günü əlilliyi olan şəxslərin müdafiəsi günü kimi qeyd olunur. Ölkə başçısı cənab İlahm Əliyev demək olar ki, bütün çıxışlarında Azərbaycan Respublikası ərazisindəki bütün sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətdə fəal rol oynaması və təcrid olunmasının qarşısının alınmasını əsas prioritetlərdən biri kimi qiymətləndirir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Əliyev. M. Sosial xidmət sosial təminat hüququnun institutu kimi. Bakı: Təknur, 2008, 191 s.

2. Əhmədov Y.P. Sosial işin nəzəriyyəsi və təcrübəsi. Bakı: “PG Nəşrlər Evi”, 2013, 281s.

3. Hüseynli A. Valideynlər və mütəxəssislər üçün uşaq inkişafı üzrə tövsiyyələr. Bakı: Nəşriyyat, B-print, 2010, 112 s.

4. Həsənli S. Uşaqların sosiallaşmasına ailə tiplərinin psixoloji təsiri // Elmi əsərlər, Naxçıvan Dövlət Universiteti, Humanitar elmlər seriyası, 2012, 46 s.

5. Həmzəyev M. Ailə tərbiyəsində uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması. Bakı: Maarif, 1966, 62 s.

6. İsmixanov M., Vəliyeva S. “Sosial pedaqogika”. Mühazirə kursu. Bakı: ADPU nəşriyyatı, 2014, 304 s.

7.Jiyanova P.L., Pole Y.V. Daun sindromlu körpələr. Valideynlər üçün vəsait, Moskva: Nauka, 2009, 198 s.

8.Qəhrəmanov E., Əhmədov Y. Sosial işin əsasları Bakı: Nəşriyyat, B-print, 2014, 487 s.

**Ayshan Mammadova**

## MAIN FEATURES OF SOCIAL WORK WITH PERSONS WITH DOWN SYNDROME

**Summary**

Each age group has its own problems, and they do not go unnoticed by children. Unfortunately, among these problems, the ones that pose the most threat to society and are always in concern are those related to health. As we know, the rapid development of science and technology has also had a positive impact on medicine and new achievements have been made. However, unfortunately, the modern health care system is still vulnerable to some diseases and it is impossible to completely eliminate them. Down syndrome also belongs to this group. The causes of the syndrome, its effects on people, the mechanisms of treatment have always been one of the main issues attracting the attention of the world community. Because the effects of Down syndrome on each individual are different, medical professionals have constantly researched the subject and identified various social, biological, and psychological aspects of the treatment process. It should be noted that in most civilized countries of the world, people with Down syndrome and their relatives are considered the main objects of social services, because the syndrome brings not only physical and biological problems, but also socio-psychological difficulties. The socialization and integration of people with Down syndrome is of great importance, as well as the need for social services and professionals working in this field. The socialization of individuals in this category is carried out directly by social workers in the field of social work.

**Key words:** *Medical problem, syndrome, Down, social work, social worker*

**Айшан Мамедова**

## ОСНОВНЫЕ ОСОБЕННОСТИ СОЦИАЛЬНОЙ РАБОТЫ С ЛИЦАМИ С СИНДРОМОМ ДАУНА

**Резюме**

В каждой возрастной группе есть свои проблемы, и они не остаются незамеченными детьми. К сожалению, среди этих проблем наибольшую угрозу для общества и всегда волнуют проблемы, связанные со здоровьем. Как известно, бурное развитие науки и техники положительно сказалось и на медицине, были достигнуты новые успехи. Однако, к сожалению, современная система здравоохранения все еще уязвима перед некоторыми заболеваниями, и полностью избавиться от них невозможно. Синдром Дауна также относится к этой группе. Причины синдрома, его влияние на человека, механизмы лечения всегда были одним из главных вопросов, привлекающих внимание мировой общественности. Поскольку последствия синдрома Дауна у каждого человека различны, медицинские работники постоянно исследуют этот вопрос и выявляют различные социальные, биологические и психологические аспекты процесса лечения. Следует отметить, что в большинстве цивилизованных стран мира люди с синдромом Дауна и их родственники считаются основными объектами социального обслуживания, поскольку синдром приносит не только физические и биологические проблемы, но и социально-психологические трудности. Большое значение имеет социализация и интеграция людей с синдромом Дауна, а также потребность в социальных службах и специалистах, работающих в этой сфере. Социализация лиц этой категории осуществляется непосредственно социальными работниками в сфере социальной работы.

**Ключевые слова:** *Медицинская проблема, синдром Дауна, социальная работа, социальный работник*

**Sahə redaktoru: Zeynəddin Şabanov**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

UOT 364.044.4

# MƏİŞƏT ZORAKILIĞI VƏ BUNUNLA BAĞLI MÖVCUD VƏZİYYƏT

**Ella Abdullayeva***

Məqalə redaksiyaya daxil olmuşdur: 11 *avqust 2022; çapa qəbul edilmişdir: 10 sentyabr 2022; onlayn çap edilmişdir: 30 oktyabr 2022*

Received: *11th of August, 2022; accepted: 10th of September, 2022; published online: 30th of October, 2022*

**Xülasə**

Məişət zorakılığı, evlilik və ya birgə yaşayış həyatında bir şəxsin digər şəxs tərəfindən məruz olduğu zorakılıq və pis rəftarın formasıdır. Bu şəxslərin həm faktiki, həm də keçmişdə birgə yaşayışını nəzərdə tutur. İstanbul Konversiyası məişət zorakılığı "ailədaxili zorakılıq" kimi müəyyənləşdirərək indiki və ya keçmiş ər-arvad və ya birlikdə yaşayan şəxslər arasında, qurban ilə birgə yaşayıb-yaşamamaqdan asılı olmayaraq bütün zorakılıq halları nəzərdə tutur [1]. Ərlərin keçmiş həyat yoldaşlarını təqib etməsi, hədələməsi, fiziki zorakılıq tətbiq edilməsi nəticəsində qurbanlara xəsarət yetirməsi, hətta qurbanın öldürülməsi az rast gələnən hal deyil.

Dünyada hər üç qadından birinin nə vaxtsa zorakılığa məruz qalmasından, 20-ci əsrin sonunda dünyanın 35 ölkəsində məişət zorakılığını qadağan edən qanunların qəbul edilməsindən və s. irəli gələrək demək olar ki, məişət zorakılığı artıq ciddi sosial bəlaya çevrilib. Zorakılığın bu növü nəsildən-nəslə keçərək cəmiyyətə böyük təsir göstərir, nəticədə isə ailələrə zərər verir, icmaların yoxsullaşmasına gətirib çıxarır. Eyni zamanda, məişət zorakılığı, zorakılığın digər formalarını da gücləndirir. Məişət zorakılığı dünyanın hər bir ölkəsində qadınların, uşaqların, qocaların, valideynlərin saysız-hesabsız əzablara, haqsızlıqlara, psixoloji cəhətdən olaraq daimi qorxu və gərginlik içində yaşamalarına, ən pis halda isə həyatlarından məhrum olmalarına gətirib çıxardır.

**Açar sözlər:** *zorakılıq, qadın, uşaq, ailə, qurban*

## Məişət zorakılığın subyektləri kimdir və formaları hansılardır

Məişət zorakılığını bir-birinə qarşı ər-arvad, faktiki nikahda olan ər-arvad, valideynlər, uşaqlar, nənələr-babalar, nəvələr, doğma və ögey qardaş-bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər, keçmiş ər-arvad, qəyyum və himayəçilər və üzərində qəyyumluq və himayəçilik təyin edilmiş şəxslər, bir yerdə yaşayan qohumlar, ögey valideynlər və s. şəxslər törədə bilərlər.

Məişət zorakılığı haqqında danışılarkən, çox vaxt məhz fiziki zorakılıq başa düşülür. Qeyd etmək vacibdir ki, zorakılığın fiziki, psixoloji, iqtisadi və cinsi formaları mövcuddur [2]. Bu formalar arasında ən çox rast gələnən psixolji zorakılıqdır. Övladının yaxşı qiymət almadığı, həyat yoldaşının iş tapa bilmədiyi və ya az qazandığı üçün alçatma, özgüvənini aşağı salma, hədələmə və s. psixoloji zorakılıq hesab olunur.

Azərbaycan qadınları həyatı boyu bir çox iqtisadi maneələrlə üzləşirlər. Qadına təhsil almağa, işləməyə, özünü inkişaf etdirmək üçün kurslara, təlimlərə getməyə icazə verməyən şəxs və ya bütövlükdə ailə qadına qarşı iqtisadi zorakılıq törətmiş olur. Çoxlarımız işləyən qadınları azad hesab edirik. Əlbəttə ki, işləyib iqtisadi cəhətdən azad olan qadınların sayı çoxdur, lakin ailə daxilində atası, qaynanası, həyat yoldaşı tərəfindən maaş kartları əlindən alınan, əziyyətlə qazandığı pulu öz ehtiyaclarına xərcləyə bilməyən qadınlar da az deyil. Belə insanlar bunu "ailə büdcəsi" qurmaq üçün etdiyini iddia etməsinə baxmayaraq bu iqtisadi zorakılıqdan başqa heç nə deyil.

Həyat yoldaşı və ya partnyor tərəfindən digər həyat yoldaşı və ya partnyora qarşı intim cəhətdən törədilən zorakılıq məişət zorakılığın cinsi formasına aiddir. Lakin, təəssüflər olsun ki, bir çox ölkələrdə ər-arvad münasibətlərində zorlama cinsi zorakılıq kimi qəbul edilmir. Buna əsas

* *Magistr, Azərbaycan Universiteti, Gənclərlə iş ixtisası*
*Email: ellaabdullaeva21@gmail.com*

səbəb bundan ibarətdir ki, ər hesab edir ki, həyat yoldaşı ilə istənilən zaman cinsi əlaqədə olma hüququna malikdir. Ümumiyyətlə, dünya üzrə qadınların yüzdə 35%-i fiziki və ya cinsi baxımdan intim partnyor tərəfindən və ya ortaq olmayan bir şəxs tərəfindən nə vaxtsa cinsi zorakılığa məruz qalmışdır. Qadınların məruz qala biləcəyi bir çox başqa zorakılıq formaları olsa da, bu artıq dünya qadınlarının böyük bir hissəsini təşkil edir [3].

Məişət zorakılığın mövcud olub-olmamasını təyin etmək, zorakılığın digər növlərini təyin etməkdən dəfələrlə çətindir. Buna səbəb bundan ibarətdir ki, məişət zorakılığı daha çox ailədaxili problem olaraq mövcuddur və bu problem təəssüflər olsun ki, vəziyyət artıq kritik hala çatandan sonra aşkar edilir.

**Məişət zorakılığı haqqında miflər**

Məişət zorakılığı ilə əlaqədar miflərin olması zorakılıq qurbanının çiyinlərinə yük qoymaqla bərabər ailənin normal həyatının mövcudluğuna mane olan faktorlardan biri kimi hesab etmək olar. Buna səbəb ondan ibarətdir ki, belə ailələr nəsildən-nəsilə keçən miflərə inanaraq, öz həyatlarını yaxşılığa doğru dəyişdirməyə çalışmışlar, zorakılığın qurbanları isə bunu dözməkdən başqa nə etməli olduğundan xəbərsizdilər. Yəni, miflərin mövcudluğu ilə zorakılığı törədən şəxs bu əməldən uzaqlaşmaq əvəzinə özünə bəraət qazandıraraq, əməlindən çəkinmir. “Ailədə zorakılıq normal haldır və bütün ailələr bununla qarşılaşır”,”Döz, ailə həyatı qurandan sonra hər şey düzələcək” , ”Zorakılığa səbəb olan əməl etməsən bu hal baş verməz”, ”Narkotik, alkoqol asıllığı buna səbəbdir” və s. miflər haqqında çoxumuz eşitmişik. Real vəziyyət isə budur ki, ailədə zorakılıq törədən şəxs bu əmələ meyllidirsə o, ailənin vəziyyətindən, işlədiyi işdən asılı olmayaraq özündən zəif hesab edən istənilən şəxsə qarşı zorakılıq törədəcək.

**Zorakılıq mərhələləri nəzəriyyəsi**

Münasibətlərdə baş verən zorakılıq halları izah etmək məqsədilə 1970-ci illərdə Amerika psixoloqu Lenor Edna Uoker 1500 qadınlara sorğu keçirdərək, zorakılıq dövrləri nəzəriyyəsini hazırlamışdır. Bu, gərginliyin azalması nəzəriyyəsi olub, təkrarlanan döyülmə dövrü ilə əlaqəli üç fərqli mərhələlərə ayrılır: artan təhlükə hissi ilə müşayiət olunan gərginliyin yaradılması, kəskin döyülmə hadisəsi, peşmançılıq. Bu dövr adətən, kişinin qadınına daha çox qayğı göstərdiyi, görüş dövrdən sonra baş verir. Bəzən qadınlar münasibətlərin ilk vaxtlarında kişinin onları daimi olaraq təqib etməsi və ya yoxlaması kimi hallar ilə rastlaşırlar. Bu zorakılığa meylliyin göstəricisi kimi qiymətləndirilə bilər. Lakin, təəssüflər olsun ki, belə insanların çoxu tanışlığın ilk mərhələlərində özlərini normal aparır və belə hallar nadirən baş verir. Vəziyyətin nə yerdə olduğunu anladıqdan sonra isə qadınlar, artıq, həmin adama aid olduğunu zənn edib, belə müasibətlərdən çıxmağa cəhd göstərmirlər və zorakılığın potensial qurbanına çevrilirlər. Lenor Edna Uoker bu mərhələri sadələşdirilmiş halda təsvir edərək zorakılığın bütün hallarına şamil etmişdir. Bu səbəbdən bu nəzəriyyə ilə razılaşmayan mütəxəssislər də az deyil. L.E.Uoker-in təsvir etdiyi bu mərhələri yaxından nəzər salaq:

İlk mərhələ, arzuolunmaz davranış və ya hərəkətin, qəsdən təzahürü nəticəsində, gərginliyin tədricən artırılması ilə müşahidə olunur. Hücum edən tərəf öz narazılığı təhkiredici sözlər və ya güc tədbiq edilməsi ilə nümayiş etdirir. Lakin o öz “potensialı”nı tam nümayiş etmir. Qurban isə həmin şəxsin xoşuna gələ bilməyən hərəkəti etməməyə, onu sakitləşdirməyə və ya daha da çox hirsləndirməməyə çalışır. Qurban həmin şəxsin sakitləşməsinə nail olaraq elə hesab edir ki, hər şey kontrol altındadır. Bu isə davranışın stimul-reaksiya modelinə çevrilərək çarəsizliyi daha da qabarıq şəkilə çevirir. Gərginliyin artması davam edir və qurban özünü təhlükədə hiss etməyə başlayır.

“O, daimi stressdən yorulub, təsadüfi partlayışdan qorxaraq adətən ona hücum edən tərəfdən uzaqlaşır. Qurbanın geri çəkilməsini müşahidə edərək ona qarşı daha pis hərəkətlər etməyə başlayır... İkisi arasında gərginlik dözülməz olur” [4, s.59].

İkinci mərhələ, qurbanın kəskin döyülməsi ilə müşahidə olunur. Müdaxilə olmasa döyülmə halı qaçılmaz olur. Buna dözən qadınların çoxu bu mərhələnin vaxtını təqribi olaraq müəyyənləşdirir və tezləşdirməyə çalışırlar ki, psixoloji və fiziki travmaları tez olub keçsin. Buna səbəb qeyri-müəyyən, ani reaksiya onlarda gözlənilən reaksiyadan daha çox qorxu yaratmasıdır. Bu mərhələ başlayarkən, qurbanlar artıq dözməkdən başqa heç nəyə əl atmırlar. Məhz bu mərhələdə

qurban maksimum dərəcədə həm fiziki, həm də psixoloji travmalar almış olur. Döyülmə zamanı qurbanın özünü qorumaq üçün edə bilən yegane şey başını, üzünü qorumağa çalışmasıdır. Adətən, polisin müdaxiləsi ilə bu hal başa çatır. Polisə xəbər verilmədiyi təqdirdə, hücum edən şəxs təbii şəkildə sakitləşməyə başlayır və üçüncü mərhələyə keçir baş verir.

Üçüncü mərhələdə hücum edən tərəf qurbanından üzr istəyir, ona kömək etməyə çalışır, söz verir ki,bu hərəkət bir də baş verməyəcək. Maraqlı olan isə budur ki, zorakılıq törədən öz dediklərinə inanır və hesab edir ki, buna bir daha yol verməyəcək. Bu dövrdə o, qurbanına hədiyyələr alır, böyük qayğı göstərir, münasibətlər ilk tanışlıq dövrdə olduğu kimi gözəl olur. Qurban döyən şəxsə inanmaq istədiyinə görə inanır. Ona elə gəlir ki, hələ heç nə gec deyil və o həmin şəxsi dəyişdirəcək. Bəzi hallarda zorakılıq törədən şəxs bu mərhələdə qurbanına qayğı göstərmir. Eyni zamanda, gərginlik də yaratmır. Gərginliyin yaratmaması ilə əlaqədar, qayğının olmamasına baxmayaraq, zorakılıq törədənə növbəti şans verən qadınlar da az deyil. Bəzən ikinci mərhələdə yaranan həmin yüksək gərginlik azalmır və belə hallar çox vaxt qurbanın həyatının itirilməsi ilə nəticələnir. [4, s.91]

Məişət zorakılığa rast gələnlərin çoxu qadın olduğunu qeyd etmək lazımdır. Qadınların onlara qarşı zorakılığın istənilən forması ilə rastlaşması dünyada gender münasibətlərindəki bərabərsizliyin nə dərəcədə təzahür etdiyindən xəbər verir. 1979-cu ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiya (CEDAW) [5] mühüm əhəmiyyət daşıyır. Konversiyanın qəbul edilməsi ilə qadınlar gündəlik həyatlarını dəyişdirməyə kömək olan vasitə qazanmış oldu. Daha geniş desək, Konversiya qadınlara yoxsulluq, zorakılıq, müdafiə vasitələrin olmaması, vərəsəlikdən imtina və s. kimi ədalətsiz hallar ilə mübarizədə böyük dəstək göstərən vasitədir.

Məişət zorakılığın tətbiq olunması ilk növbədə insan hüquqlarının pozulması deməkdir. Dövlət orqanları zorakılığın hər bir növü ilə mübarizə aparmağa, bunun üçün tədbirlər görməyə borcludur. “Dövlət orqanların zorakılığın qurbanı olan insanların şikayətlərinə lazımi reaksiya vermədiyi və cinayət törədənlər öz əməllərinə görə məsuliyyət daşımadığı vəziyyətində dövlət zorakılığa bir növ şərik olur” [6].

Məişət zorakılığına məruz qalan şəxsləri ilk qarşılayan əsasən polis orqanlarda işləyən şəxslər olur. İlk cavab tədbiri görən tərəf olaraq, polis məişət zorakılığı ilə qarşılaşan şəxsin təhlükəsizliyinin təmin olunmasında və zorakılığı tətbiq edən tərəfin məsuliyyətə cəlb olunmasında mühüm rol oynayır. Buna baxmayaraq, çox zaman polis orqanlarında işləyən məsuliyyətsiz şəxslər zərərçəkənin şikayətlərini ciddi qəbul eləmir. Elə hallar da baş verir ki, polis bu şikayəti zərərçəkənin yaxınına belə bildirir. Bu halın özünü böyük bir cinayət hesab etmək lazımdır. Çünki bu işdə məsuliyyət daşıyan polis orqanları başa düşməlidir ki, onun müraciət edənin probleminin qismən həlli və ya həll etməməsi məişət zorakılığından zərər çəkmiş şəxs üçün dönüşü olmayan yeni situasiyaya gətirib çıxara bilər.

**Məişət zorakılığı ilə əlaqədar Azərbaycanda mövcud vəziyyət.**

Azərbaycan xalqının digər xalqlar arasında tolerantlığı və qadınlara, uşaqlara, ahıllara hörməti ilə seçilməsinə baxmayaraq, ölkəmizdə məişət zorakılığı geniş yayılmışdır. Dövlət Statistika Komitəsinin verdiyi məlumata əsasən, 2020-ci ildə məişət zorakılığı cinayətləri nəticəsində zərərçəkənlərin ümumi sayı 987 nəfər qadın olmaqla 1300 nəfər təşkil etmişdir. Onlardan 8 nəfəri 18 yaşa çatmayan qızlar və 2 nəfəri hamilə qadın olmuşdur [7]. Ölkəmizdə məişət şəraitində ən çox törədilən cinayətlər sırasına qəsdən adam öldürmə (CM-nin 120-ci maddəsi), özünü öldümə həddinə çatdırma (CM-nin 125-ci maddəsi), qəsdən sağlamlığa zərər vurma (CM-nin 126,127,128-ci maddəsi), əzab vermə (CM-nin 133-cü maddəsi), öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə (CM-nin 134-cü maddəsi), insan alveri (CM-nin 144-1-ci m.), məcburi əmək (CM-nin 144-2-ci m.), qanunsuz azadlıqdan məhrum etmə (CM-nin 145-ci m.), zorlama (CM-nin 149-cu m.), seksual xarakterli zorakılıq hərəkətləri (CM-nin 150-ci m.) və s. daxildir.

**Məişət zorakılığı ilə mübarizədə dövlət tərəfindən keçirilən tədbirlər.**

Ölkəmizdə “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun qəbul edilənə qədər məişət zorakılığı ilə rast gələn şəxslər məhz onlara qarşı cinayət törədildikdən sonra hüquq

mühafizə orqanlarına şikayət ərizəsi ilə müraciət etmə imkanına malik idilər. Hal-hazırda isə qəbul edilmiş sözügedən qanun sayəsində məişət zorakılığına məruz qalmış şəxslər cinayət olmayan əməllərdən belə qarunmağa imkanı əldə etmişlər. Qanunun 2-ci fəslinin 5.1 maddəsinə əsasən, məişət zorakılığı barədə şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar olduqda həmin şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxılır, 5.2-ci maddəyə əsasən, məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətə müvafiq icra hakimiyyəti orqanları tərəfindən baxılır. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir [8].

Məişət zorakılığın qarşısının alınması üçün başlıca olaraq əhalinin maarifləndirilməsi vacibdir. Buna səbəb məişət zorakılığına məruz qalan şəxslərin böyük əksəriyyəti məişət zorakılığı barədə məlumatsızdırlar. Hər bir şəxs ölkədə qəbul edilmiş qanunlar ilə yaxından tanış olmaqla öz hüquqlarını bilsə və əməllərinə görə hansı məsuliyyətə cəlb olunacağı haqqında biliklərə malik olsa, belə hallar tamamilə aradan qaldırılmasa da qismən həll olunacaq. Polisin səlahiyyətlərinə gəldikdə isə məişət zorakılığı barədə məlumat əldə etdikdən dərhal sonra polis hadisə yerinə getməlidir. Məişət zorakılığı hadisəsini müəyyən etdikdə polis məişət zorakılığının qarşısını almaqdan ötrü lazımi qanuni tədbirləri həyata keçirməli, məişət zorakılığının potensial qurbanını, şahidlərin və zorakılığı törətməsi ehtimalı olan şəxsləri ayrı-ayrılıqda dinləyərək onların ifadələrini yazılı şəkildə qeyd etməli və ən önəmlisi məişət zorakılığından zərər almış şəxsə hüquqlarını izah etməlidir.

Zorakılığa məruz qalmış şəxslər zorakılığın araşdırılmasını tələb etmək, araşdırma zamanı təhlükəsizliklə təmin olunmaq, hesabı dövlət tərəfindən qarşılanan tibbi, hüquqi, psixoloji yardımla təmin olunmaq, lazım gəldikdə isə məişət zorakılığına məruz qalmış şəxslər üçün nəzərdə tutulan sığınacaqlara müraciət etmək hüququna malikdirlər [9]. Bu fəaliyyət ilə dövlət yardım mərkəzləri məşğul olaraq, zərərçəkənlərə lazımi dəstək ilə təmin edirlər. Dövlət yardım mərkəzləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yaranmışdır.“Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 19-cu maddəsinə əsasən, məişət zorakılığından zərər çəkmiş uşaqlar sığınacaqda 3 ay, yetkinlik yaşına çatmış şəxslər isə 2 ay müddətində saxlanıla bilər. Düşünürəm ki, sığınacaqda qalma müddəti,məişət zorakılığı görmüş şəxsin vəziyyətindən asılı olaraq, situasiyaya uyğun dəyişməlidir.

Məişət zorakılığından zərər çəkmiş şəxsin müdafiəsini təmin edən mexanizm mövcudluğu haqqında da qeyd etmək lazımdır. Mühafizə ordeni adlı bu mexanizm qısamüddətli və uzunmüddətli növlərə bölünərək cinayətkarın məişət zorakılığından zərər çəkmiş şəxslə birbaşa təması qadağan edən hüquqi qüvvəyə malik qanuni sənəddir. Məişət zorakılığı törətmiş şəxsin əməlləri cinayət xarakterli olmadığı təqdirdə həmin şəxsə xəbərdarlıq edilərək, 30 gün müddətinə kimi qüvvədə olan qısamüddətli mühafizə ordeni verilir. Məişət zorakılığı törətmiş şəxs xəbərdarlığa əməl etmədiyi təqdirdə zorakılığa məruz qalmış şəxs və ya müvafiq icra hakimiyyət orqanı uzunmüddətli mühafizə ordeni verimesi üçün məhkəməyə müraciət edə bilər[10].

“Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir [11]. Milli Fəaliyyət Planı,əsasən, məişət zorakılığın qarşısının alınması üzrə lazımi tədbirlərin beynəlxalq standart səviyyələrinə uyğun həyata keçirilməsinin təmin edilməsi, ailələrin möhkəmlənməsinə nail olmaq məqsədilə ailənin ümumi rifahını yaxşılaşdırmaq və ehtiyaclarını bacardıqca qarşılaması kimi məqsədləri qarşısına qoyur.

**Dünyada qadın zorakılığına qarşı mübarizə günü.**

Qadınlara, qızlara qarşı zorakılıq heç bir sərhəd tanımır. Bu hal yaşdan, sosial, iqtisadi və ya mili vəziyyətdən asılı olmayaraq hər bir qadın ilə baş verə bilər. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi statistikadan isə problemin nə dərəcədə ciddi olduğu aydın şəkildə görünür.Məlumata görə, dünyada qadınların 35 faizi intim partnor və ya başqa bir şəxs tərəfindən cinsi və ya fiziki zorakılığa məruz qalıb. Qadınların 38 faizi fiziki zorakılıq nəticəsində həyatını itirmişdir.

1999-cu ildən etibarən, hər il 25 noyabrda Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə günü qeyd edilir. Bundan əlavə, 25 noyabr-10 dekabr aralığında “Gender əsaslı zorakılığa qarşı 16

günlük fəallıq" kompaniyası bir çox ölkələr tərəfindən hər il keçirilir. Kompaniyanın məqsədi qadınlara qarşı törədilən zorakılığın insan hüquqlarının kobud pozulması kimi təbliği istiqamətində yerli, milli, regional və beynəlxalq səviyyədə maarifləndirmə işinin aparılmasıdır [12]. BMT Baş Assambleyası Qadınlara Qarşı Zorakılığın Beynəlxalq Mübarizə Günü elan edərək dünyanın bütün təşkilatlarını bu problemə fokuslanmağa və ictimaiyyətin diqqətinə cəlb etmək üçün tədbirlər həyata keçirməyə dəvət edib. Tarix Dominikan Respublikasında inqilabi hərəkat iştirakçılarının - 1960-cı ildə öldürülən üç bacının xatirəsinə seçilib. Hər il böhran vəziyyətində olan qadınları dəstəkləyən ictimai təşkilatların nümayəndələri qadınlara qarşı zorakılıq problemlərinə diqqət çəkmək üçün kütləvi nümayişlər keçirirlər. Bu nümayişlərdə qadınlar öz keçdikləri ağır yollarını başqaları ilə bölüşərək bir-birinə dəstək göstərirlər. Qadınların zorakılığa qarşı mübarizə simvolları ağ lentdir [13].

**Yaşlı insanlar və zorakılıq.**

Yuxarıda qeyd etdiyimiz kimi biz zorakılıq halı haqqında eşidərkən çox vaxt ilk növbədə fiziki zorakılığı nəzərə alaraq psixoloji, emosional və iqtisadi zorakılıq haqqında unuduruq. Ahıl yaşında olan insanların çoxu isə zorakılığın elə bu növləri ilə rastlaşırlar. Təəssüflər olsun ki,bu hallar hər yerdə baş verərək cəmiyyətdə demək olar ki, normaya çevrilib. Buna səbəb isə yaşlı insanların əmək bazarında iştirak etməməsi nəticəsində onların gərəksiz hesab edilməsidir.Bu vəziyyət yaşlı nəslin nümayəndələrində depresiya yaradır və bununla əlaqədar olaraq, ətrafdakılar daha çox diqqət və qayğı göstərib onlara dəstək verməlidirlər.Buna baxmayaraq, ahıllara qarşı baş verən haqsızlıqlar az deyil. Pensiyaların qohumlar tərəfindən mənimsənilməsi və ya kartdan pul çıxarılmasında köməklik göstərilməsi qarşılığından müəyyən pul məbləğinin götürülməsi, varislik uğrunda cavan nəslin bir-biri ilə rəqabət aparılması nəticəsində qocalarda yaranan psixoloji gərginlik, qocaların evdən qovulması kimi acınacaqlı hallar çoxdur. Xəstəxanalarda qocalara laqeyd yanaşılması, onlara kobud cavab verilməsi kimi hallar da baş verməkdədir. Bu kimi problemlərin qarşısını necə almaq olar sualına cavab: insanlarda uşaqlıqdan təbii bir proses kimi qocalara qarşı düzgün münasibət tərbiyə etməkdir. Hər bir şəxs qocalıq dövrünün xüsusiyyətlərini bilməli və onlara qarşı normal reaksiya bildirməlidir.

Bir çox pedaqoq, psixoloqlar hesab edir ki, qocalara qarşı törədilmiş zorakılığın səbəbi bu yaşın nümayəndələrinin özlərini qorumağa bilməməsindən irəli gəlir.Bundan əlavə, yaşlı insanlar çox vaxt başqalardan asılı vəziyyətdə olur və bu asılılıq ətrafdakılara mənfi keyfiyyətlərini göstərməyə imkan verir. Həkim və pedaqoq Aleksandra Flint hesab edir ki, cavan nəslin qocalara qarşı aqressiv reaksiyanın verilməsinə səbəb cəmiyyətin nə vaxtsa qocalacağı haqqında fikrini qəbul edə bilməməsi ilə əlaqəlidir.Bu problemi insanların dünyagörüşünün dəyişdirilməsi ilə həll etmək lazımdır [14].

**Uşaqlara qarşı zorakılığın törədilməsi**

Uşaqlara qarşı zorakılıq geniş yayılmış, ciddi problem kimi hələ də qalmaqdadır. Beynəlxalq araşdırmalar göstərir ki, dünyada böyüklərin dörddə biri uşaqlıqda fiziki zorakılığa məruz qalıb. Bundan əlavə, hər 5 qadından 1-i və 13 kişidən 1-i uşaq vaxtında cinsi zorakılığa məruz qalmışdır [15]. Uşaqlar fiziki zorakılıqdan daha çox emosional zorakılığı ilə rastlaşırlar. Lakin emosional zorakılıq fiziki zorakılıqdan heç də geri qalmır, zorakılığın istənilən forması uşaqlara dərin, sağalmağa illər lazım olduğu yaralar yarada bilər. Uşağın ehtiyaclarını gözə alınmaması, onu təhlükəli şəraitdə saxlaması, uşağa lazımi dəstək göstərilməməsi, arzuolunmaz olduğunu söylənilməsi və.s. kimi halları uşaqlara qarşı zorakılığın nümunəsidir. Uşaqlara qarşı zorakılığın törədilməsi haqqında miflər mövcuddur.Onlara nəzər salaq:

**Mif 1.**Yalnız pis valideynlər öz uşaqlarına qarşı qəddar davranırlar. Bu fikir tamamilə yanlışdır. Valideynlərin çoxu övladlarına qəsdən zərər vermir. Onların əksəriyyəti uşaqlıqda zorakılığın qurbanı olub, bu davranış modelini təkrarlayırlar. Digərləri isə asıllığın hər hansı növündən əziyyət çəkir. Bu hallar əlbəttə ki, belə valideynlərə bəraət qazandırılması üçün vurğulanmır.Sadəcə bilmək lazımdır ki, bütün insanlar ağ-qaraya bölünməyiblər və elə hallar olur ki, onlar müstəqil olaraq belə vəziyyətlərdən çıxa bilmirlər. Bu kimi ailələrə kənardan müdaxilə lazımdır.

**Mif 2.** Yalnız maddi cəhətdən sıxıntısı olan ailələrin uşaqları zorakılıq halları ilə rastlaşır. Zorakılıq iqtisadi, irqi, mədəni sərhədlərdən asılı deyil. Elə ailələr var ki, hamı onları ideal görüb, nümunə kimi qeyd edir. Lakin, bu "ideal ailə"-nin qapıları arxasında nələr baş verilməsindən heç kimin xəbəri olmur.

**Mif 3.** Uşaqlara qarşı zorakılığı törədənlərin əksəriyyəti yad olan adamlardır. Düzdür, onların arasında yadlar da azlıq təşkil etmir, lakin uşaqların böyük hissəsi məhz yaxın adamlardan valideynlərdən, qohumlardan, qonşulardan, ailə dostlarından zorakılığa məruz qalır.

**Mif 4.** Zorakılığa məruz olmuş uşaqlar həmişə qəddar insanlar kimi böyüyürlər. Düzdür, zorakılıq şəraitində böyümüş insanlar risk qrupa daxil olan insanlardır, belə ki, onlar qeyri-ixtiyari olaraq, böyüklərdən görmüş davranış modellərini təkrarlayırlar. Lakin zorakılığa məruz qalmış böyüklərin çoxu özlərinin yaşadıqlarından uşaqlarını qorumaq üçün böyük əmək göstərdiklərini də qeyd etmək lazımdır.

**İntizam və zorakılığın fərqi**

Valideynlərin çoxu uşaqlarda intizam tərbiyə edərkən cəzaların müxtəlif ağırlarından istifadə edirlər. Onlar əslində zorakılığın törədildiyi barədə məlumatlı deyillər. Buna səbəb insanların əksəriyyətinin intizamın tərbiyə edilməsi ilə zorakılığı ayıra bilməməsindən irəli gəlir. İntizam ilə zorakılığı ayıran əsas elementlər bunlardır:

1.Gözlənilməzlik- Ailədə dəqiq qaydalar və sərhəd lər olmadığından uşaq hansı əməlin valideynlərin qəzəbinə və fiziki cəzaya gətirəcəyindən xəbərsizdir.Uşaq daim stress içində yaşayıb, hər addımını valideynlərinə bildirir. Bu isə ən yaxşı halda onların gələcəkdə müstəqil olmaması ilə də nəticələnə bilər.

2.Qəzəbin dərəcəsi- Uşağa fiziki cəzasının qəzəbin dərəcəsindən asılı olması zorakılıqdan başqa heçnədir. Valideyn ilk növbədə uşağın pis davranışını tərbiyə etmək üçün ona sevgi göstərməli, motivasiya verməlidir. Öz hirsini "pis davranışa görə" uşaqdan çıxarması valideynin qəzəb kontroluna sahib olmamasının göstəricisidir.

3.Davranışın tənzimləyicisi kimi qorxudan istifadə- Fiziki zorakılıq istifadə edən valideynlər hesab edirlər ki, övladları onlardan qorxmalıdır. Bunun üçün valideynlər vaxtaşırı uşaqlara fiziki zorakılıq törədib bu əməli "profilaktik əməl" kimi qiymətləndirirlər. Əslində isə uşaq özünü düzgün aparması əvəzinə döyülməkdən necə qorunmağı öyrənirlər [16].

Uşaqlara qarşı zorakılığın törədilməsi gələcək həyatlarında müəyyən nəticələrə səbəb olur.Zorakılıq davranış modelinə yiyələnməsi,depressiya,pis vərdişlər,həddindən artıq kökəlmə və ya arıqlama,yüksək riskli cinsi davranış,nikahdankənar hamiləlik,intihar və s. [17].

Xüsusilə qeyd etmək vacibdir ki, uşaqlar zorakılığın məhz qurbanı olurlar, yəni heç bir əməl onlara qarşı zorakılığın istifadəsinə haqq qazandırmır. Uşaqların bəzi fərdi xüsusiyyətləri onlara qarşı zorakılığın törədilməsi ehtimalını yüksəldə bilər. Bu fərdi xüsusiyyətlərdən biri uşaqda fiziki məhdudiyyətlərin olmasıdır. Avropa İttifaqının Əsas Hüquqlar Agentliyi öz hesabatında müəyyən edib ki, əlilliyi olan uşaqlar hüquq pozuntularına daha çox məruz qalırlar. UNESCO tərəfindən 2010-cu ildə keçirilmiş qlobal monitorinqin hesabatına əsasən, əlilliyi olan uşaqların fiziki zorakılığa məruz qalma ehtimalı, əlilliyi olmayan uşaqlara nisbətən 3,6 dəfə cinsi zorakılığına məruz qalma ehtimalı 2,9 dəfə zorakılığın hər hansı bir formasının qurbanı olma ehtimalı 3,7 dəfə çoxdur [18]. Uşaqların müdafiəsi xidmətləri əlil uşaqlara və onların ailələrinə hərtərəfli dəstək göstərməlidir. Onlar həmçinin cinsiyyət, etnik mənsubiyyət və sosial-iqtisadi status kimi uşaqların zorakılığa həssaslığını artıra biləcək digər xüsusiyyətləri də nəzərə almalıdırlar. Qarşısının alınması proqramlarına erkən müdaxilə proqramları, maarifləndirici fəaliyyətlər, məsuliyyətli valideynlik və ailə dəstəyi üzrə təhsil və möhlət proqramları daxil ola bilər [19, s.9]. Bundan əlavə profilaktik işlər də aparılmalıdır. Uşaqlara qarşı pis davranışın profilaktikası üçün çoxsahəli yanaşma lazımdır. Profilaktik proqramlar o zaman effektiv olur ki, valideynlərdə uşaqların düzgün tərbiyəsi üçün müsbət bacarıqlara yiyələnə bilirlər. Profilaktik proqramlara daxildir:

1.Valideyn və uşaqlara dəstək, bacarıq və məlumat verilməsi üçün tibb bacıların ailələrə baş çəkmək;

2.Valideynlərin uşaqlarının tərbiyəsi bacarıqlarını təkmilləşdirmək, uşaq inkişafı haqqında bilikləri artırmaq üçün qruplar formada təşkil olunan valideyn yığıncaqları;

3.Valideyn dəstəyi və təhsili, uşaq baxımı daxil olmaqla çoxkomponentli müdaxilələr, fəaliyyətlər.

**Nəticə**

Bütün dünyanın məişət zorakılığına qarşı birləşməsi, qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında " Konvensiyanın qəbul olunması, dövlətimizin bu yönümdə vacib qərarları, hökumət və qeyri-hökumət təşkilatların məişət zorakılığın mübarizəsi uğrunda fəaliyyərləri öz müsbət nəticəsini verir. Lakin statistikadan irəli gələrək demək olar ki, zorakılıq halları hələ də davam edir. Bu o deməkdir ki, bu istiqamətdə maarifləndirmə davam etməli, bu kimi hadisələrin qarşısı mümkün qədər alınmalıdır.

**İstifadə edilmiş ədəbiyyat:**

1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı : Qanun, 2005 (Maddə 65. Hüquqi yardım almaq hüququ)

2.“Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46358. Müraciət edilmişdir: 12Avqust, 2022

3.Children with disabilities are more likely to face violence. [Elektron resurs]. URL:https://www.prochildproject.org/2020/12/22/children-with-disabilities-are-more-likely-to-face-violence/ Müraciət edilmişdir: 12Sentyabr, 2022

4.Cinayətkarlıq və hüquqpozmalar. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. [Elektron resurs]. URL: https://stat.gov.az/source/crimes/ Müraciət edilmişdir: 1Avqust, 2022

5.Convention on the Elimination of All Forms of Discrimination againist Women. CEDAW 41st Session. [Elektron resurs]. URL: https://www.un.org/womenwatch/daw/cedaw/ Müraciət edilmişdir: 1Avqust, 2022

6.Global and regional estimates of violence against women. [Elektron resurs]. URL: https://www.who.int/publications/i/item/9789241564625 . Müraciət edilmişdir: 1 Sentyabr 2022

7.Judy Howell. Məişət zorakılığının növləri, səbəbləri və onun reabilitasiyası. [Elektron resurs]. URL: https://az.mp3all.zaporizhzhe.ua/types-causes-13405. Müraciət edilmişdir: 10 Oktyabr 2022

8.Жестокое обращение с детьми. [Elektron resurs]. URL: https://medspecial.ru/news/1/19538/ Müraciət edilmişdir: 12Sentyabr, 2022

9.Жестокое обращение с детьми. [Elektron resurs]. URL: https://www.who.int/ru/news-room/fact-sheets/detail/child-maltreatment Müraciət edilmişdir: 12Sentyabr, 2022

10.Kadına Yönelik Şiddet ve Aile Đçi Şiddetin Önlenmesi ve Bunlarla Mücadeleye Dair Avrupa Konseyi Sözleşmesi. [Elektron resurs]. URL: https://rm.coe.int/1680462545. Müraciət edilmişdir: 1 Oktyabr 2022

11.Lenore E.A.Walker-Battered Woman Syndrome. Nova Southeastern University (NSU): Springer Publishing Company; 4th edition (October 28, 2016). 580 p.

«Легче применить насилие»: почему общество не принимает старость. [Elektron resurs]. URL: https://www.asi.org.ru/news/2021/10/01/kak-borotsya-s-nasiliem-v-otnoshenii-pozhilyh/ Müraciət edilmişdir: 1Sentyabr, 2022

12.Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/20131 Müraciət edilmişdir: 1Avqust, 2022

13.Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/825/print. Müraciət edilmişdir: 11Avqust, 2022

14.Ни закона, ни справедливости: Насилие в отношении женщин в России // Под ред. Марины ПисклаковойПаркер и Андрея Синельникова. — М.: Эслан, 2010 г. — 100 стр. 7.

15.Ombudsman "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində silsilə tədbirlər təşkil edir. [Elektron resurs]. URL: https://ombudsman.az/az/view/news/1163/ombudsman-gender-esasli-zorakiliga-qarshi-16-gunluk-fealliq-kampaniyasi-cherchivesinde-silsile-tedbirler-teshkil-edir Müraciət edilmişdir: 11Avqust, 2022

16.Violence against with disabilities: legislation, policies and programmes in the EU (2015) European Union Agency for Fundamental Rights. [Elektron resurs]. URL: https://fra.europa.eu/en/publication/2015/violence-against-children-disabilities-legislation-policies-and-programmes-euv Müraciət edilmişdir: 22Sentyabr, 2022

**Ella Abdullaeva**

## DOMESTIC VIOLENCE AND THE CURRENT SITUATION SUMMARY

**Summary**

Domestic violence is a form of abuse and mistreatment of one person by another person in marriage or cohabitation. It implies the cohabitation of these persons, both actual and in the past. The Istanbul Convention defines domestic violence as "domestic violence" and includes all cases of violence between current or former spouses or cohabitants, regardless of whether the victim lives together or not [1]. It is not uncommon for husbands to harass, threaten and physically abuse their former spouses, injure victims, and even kill the victim.

Approximately one in three women in the world has ever been subjected to violence, the adoption of laws prohibiting domestic violence in 35 countries at the end of the twentieth century, etc. Looking ahead, we can say that domestic violence has already become a serious social problem. This type of violence is passed down from generation to generation and has a great impact on society, ultimately harming families and impoverishing communities. At the same time, domestic violence reinforces other forms of violence. Domestic violence in every country in the world causes women, children, the elderly, parents countless suffering, injustice, psychologically living in constant fear and tension, and in the worst case, taking their own lives.

**Key words:** *violence, woman, child, family, victim.*

**Элла Абдуллаева**

## ДОМАШНЕЕ НАСИЛИЕ И ТЕКУЩАЯ СИТУАЦИЯ КРАТКОЕ СОДЕРЖАНИЕ

**Резюме**

Насилие в семье — это форма жестокого обращения и жестокого обращения с одним человеком со стороны другого человека в браке или сожительство. Оно подразумевает сожительство этих лиц, как фактическое, так и в прошлом. Стамбульская конвенция определяет домашнее насилие как «домашнее насилие» и включает все случаи насилия между нынешними или бывшими супругами или сожителями, независимо от того, проживает жертва вместе или нет [1]. Нередко мужья преследуют, угрожают и физически оскорбляют своих бывших супругов, ранят жертв и даже убивают жертву.

Примерно каждая третья женщина в мире когда-либо подвергалась насилию, принятие законов о запрете домашнего насилия в 35 странах мира в конце XX века и т.д. Забегая вперед, можно сказать, что насилие в семье уже стало серьезной социальной проблемой. Этот вид насилия передается из поколения в поколение и оказывает большое влияние на общество, в конечном счете нанося ущерб семьям и обедняя общины. В то же время домашнее насилие усиливает другие формы насилия. Насилие в семье в каждой стране мира причиняет женщинам, детям, старикам, родителям бесчисленные страдания, несправедливости, психологически живущие в постоянном страхе и напряжении, а в худшем случае и лишающие себя жизни.

**Ключевые слова:** *насилие, женщина, ребенок, семья, жертва*

**Sahə redaktoru: Rəşad Əsgərov**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

UOT 364.044.43

# ƏLİLLİK ANLAYIŞI, SƏBƏBLƏRİ VƏ FİZİKİ ƏLİLLİYİN TƏSNİFATI

**Naciyə Həsənova***

Məqalə redaksiyaya daxil olmuşdur: 30 *avqust 2022; çapa qəbul edilmişdir: 10 sentyabr 2022; onlayn çap edilmişdir: 30 oktyabr 2022*

Received: *30th of August, 2022; accepted: 10th of September, 2022; published online: 30th of October, 2022*

**Xülasə**

Zaman nə qədər irəliləsə də, əlilliklə olan problem hələ də aktuallığını qoruyub saxlayır. İstər ölkəmizdə, istərsə də digər ölkələrdə “əlillik” anlayışı tam qavranılmır. Valideynlər sahib olduqları əlilliyi olan övladlarından utanır, onları daim insanların nəzərlərindən gizlətməyə və qorumağa çalışırlar. Məqalədə “əlillik anlayışı”nın müxtəlif zamanlarda necə analiz olunduğu, onlara qarşı hansı münasibətlər göstərildiyindən bəhs olunur. Əlilliyə səbəb olan faktlar və həmin şəxslərin hansı problemlərlə qarşılaşaraq həyata adaptasiya olduqlarını müşahidə edəcəyik.

**Açar sözlər:** *əlillik, fiziki əlillik, əlilliyi olan şəxslər, əlilliklə bağlı problemlər*

## Giriş

Ölkəmizdə hal – hazırda 541.4 min əlilliyi olan şəxs olmasına baxmayaraq hələ də əlil, əlillik kimi məhfumların tam dərk ediləsisndə müəyyən problemlər və çətinliklər yaşanmaqdadır. Əlilliyi olan insanlar müasir cəmiyyətdə öz yerlərini tam tuta bilmədikləri üçün onlar haqqında “yazıq”, “zavallı”, “bacarıqsız”, “köməyə möhtac” kimi mənfi fikirlər formalaşıb. Hüquqi dövlət olan Azərbaycan Respublikası sosial dövlət olmaq istiqamətində işlər görülməkdədir. Bu tip mənfi fikirləri aradan qaldırmaq üçün ölkəmizdə sosial dövlətin əsas yanaşması olan inklüziv cəmiyyətin yaradılması vacib amillərdən biridir. Əgər əlilliyi olmayan insanlarla əlilliyi olan şəxslər birgə təhsil müəssisələrdə təhsil alsalar, idman zalında bir məşq etsələr, eyni mühitdə zaman keçirəcəkləri an daha çox sosiallaşsalar, o zaman artıq mənfi düşüncələr getdikcə yox olacaq.

Tarixə nəzər salsaq, dünya ölkələrində də vəziyyət fərqli deyildi. Əlilliyi olan insanlarına münasibət arzuolunmaz idi. Sui – istifadə, ayrıseçkilik hallarının çox, mərhəmətin az olduğu uzun bir tarix var. İlkin və köçəri tayfalarda sağ qalmaq hər şeydən vacib idi. Əlillik haqda anlayışın az və onlara olan qulluqdan bixəbər olduqları üçün özlərindən uzaqlaşdırırdılar.

**Qədim dövrlərdə əlilliyə münasibət və əlillik anlayışı**

Yunanlar kimi romalılar da əlilliyə aşağı səviyyədə görürdülər. Latın dilində “əlil” məhfumu yoxdur, buna görə də romalılar mifik canavarlar üçün istifadə edilən “monstrum” sözündən istifadə edirdilər. Əlilliyi tanrının qəzəbi kimi qiymətləndirirdilər və əlilliyi olan uşaqları meşədə çılpaq şəkildə tərk edirdilər.

XI- XV əsrləri əhatə edən, sosial zülm və iqtisadi sıxıntı kimi qiymətləndirilən orta əsrdə insanların əlillərə olan şəxslərə münasibəti hələ də dəyişməmişdi. Əlilliyi günahların cəzası, şeytanın işi sayırdılar. Bu dövrdə əlilliyi olan insanları müalicə etmək əvəzinə gizlətməyi üstün tuturdular. Dinin təsirinin artması insanlar arasındakı münasibətlərə də təsir göstərdi. İntibah dövründə əlilliyi olan şəxslər, əsasən, rahiblərin və ya dini təşkilatların yanında saxlanılırdı. Artıq əlilliyi olan insanlara tibbi müalicə göstərirdilər [1].

XX əsrin sonlarından inkişaf fərqli istiqamətlərdə gedirdi. Əlilliyi olan şəxslər üçün reabilitasiya mərkəzlərinin, xüsusi məktəblərin, teatrların açılması, onların leyinə qanunların qəbul edilməsi, şəxsi rifahının yüksəldilməsi üçün proqramların, aktların hazırlanması başlandı.

Ümumiyyətlə “əlillik” sözünün bir tərifinə rast gəlinmir. Halbuki tərif verməklə bağlı bir sıra cəhdlər olmuşdur. Əlillik latın sözü olub “invalidus” sözündən götürülüb. “İn” – yox, “validus” –

---

*Magistr, Azərbaycan Universiteti, Bakı, Azərbaycan
E-mail: magistrhesenova.naciye@mail.ru

güclü deməkdir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Fəaliyyət, Əlillik və Sağlamlıq üzrə Beynəlxalq Təsnifatında əlilliyi yalnız "tibbi" və "bioloji" funksiyasızlıq kimi görmür. ÜST tərəfindən iki əsas anlayış mövcuddur:

1.Qüsur
2.Əlillik

Qüsur dedikdə, psixoloji, fizioloji və ya bədən quruluşunun (funksiyasının) pozulması, eləcə də hər hansı bir çatışmazlıq nəzərdə tutulur. Məsələn, iflic, eşitmə, görmə və s. Əlillik dedikdə isə iş fəaliyyətinin yerinə yetirilməməsi, qabiliyyətlərin olmaması (qüsurlardan yaranmış) və ya hər hansı bir məhdudiyyətin olması aid edilir [8].

**Əlilliyin yaranma səbəbləri**

Əlilliyin bir sıra yaranma səbəbləri var. Bunları nəzərdən keçirək:

1.Yoxsulluq və aclıq;
2.Müharibə;
3.Xəstəlik və İrsi əlillik;
4.Qəza;
5.Səhiyyə xidmətinə zəif çıxış;
6.Dərmanlar və iynələr [7, s.10-15].

Yoxsulluq və aclıq. Əsasən Üçüncü Dünya ölkələrində müşahidə olunur. Ölkənin sosial – iqtisadi vəziyyəti onun xalqına da təsir edir. Yoxsulluq əlilliyin ən böyük səbəblərindəndir. Kasıb insanlar əlilliyin qazanılmasına çox həssasdırlar, çünki onlar pis sanitariyada, təmiz suya, kifayət qədər qidaya, təhsilə çıxışın olmadığı bir təhlükəli mühitdə yaşamağa və işləməyə məcburdurlar. Kasıb ailələrdə doğulan bir çox körpələr əlilliyin növü ilə doğula və hətta doğum zamanı həyatlarını itirə bilərlər. Buna ananın hamiləlik dövründə kifayət qədər qidaya əlçatımlılığının olmaması səbəb ola bilər.

Müharibə. Bugünkü müharibələrdə əsgərlərlə yanaşı mülki vətəndaşlar da yaralanır və ya həlak olur, hətta vətəndaşların arasında uşaq, qadın və yaşlılarda xəsarət alır. Partlayışlar insanların eşitmə, görmə və ya yuxarı(aşağı) ətrafların itirilməsinə səbəb olur. Münaqişələr zamanı sağlamlıq mərkəzlərinin, evlərin, təhsil ocaqlarının dağıdılması əlilliyin, yoxsulluğun və xəstəliklərin artmasına səbəb olur.

Xəstəlik. Xəstəliklərin əlilliyə çevrilməsində iki amil var: irsi və sonradan yaranan. Əzələ və sinir xəstəlikləri kimi bəzi əlilliklərin irsi olduğu hesab edilir. Ancaq 40 yaşından sonra doğulan və ya ananın yaşının az olması körpələrdə daun sindromu olma ehtimalı yüksək olur. Yıxılaraq xəsarət almaq, autizm sindromu və s. sonradan qazanılan əlilliklərdir. Psixi sağlamlıq problemləri, əsasən, əqli əlilliyə aid edilir. 50% - dən çox hallarda əqli əlillik uşaqlıq dövründə ciddi xəstəlik və ya kəllə - beyin travması, anadangəlmə qüsurlar nəticəsində yaranır. Əqli əlillik daha çox doğuş zamanı və ya həyatın çox erkən yaşlarında, psixi xəstəliklər isə əsasən qocalıq dövründə müşahidə edilir.

Qəza. Əlillik yalnız anadangəlmə deyil, sonradan qazanılan xəsarətlər nəticəsində də yarana bilər. Maşın qəzası, ağacdan düşmə, qaz partlayışı, çətin iş şəraiti və s. misal göstərə bilərik və təəssüf ki, bu cür fəlakətlər zamanı əlilliyin qarşısını almaq çətindir [2].

Səhiyyə xidmətinə zəif çıxış. Vaxtında görülən tədbir bir çox əlilliyin qarşısını ala bilər. Məsələn, çətin doğuş körpənin serebral iflic kimi əlil doğulmasına səbəb ola bilər. Riskləri müəyyən edə bilən və fövqəladə halların öhdəsindən gələ bilən xüsusi təlim keçmiş tibb işçiləri bir çox körpənin həyatını xilas edə bilər. Əksər ucqar ərazilərdə yaşayan və ya yoxsul olan ailələr səhiyyə xidmətinə çıxışı zəif olduğu üçün evdə müalicə üsulundan istifadə edirlər və evdə edilən kiçik səhv müalicə nəticəsində müxtəlif dərəcəli əlilliklər yarana bilər.

Dərmanlar və iynələr. Əlilliyin yaranmasında sırada yer alınması əslində o qədər də təəccüblü deyil. Çünki şpris vasitəsi ilə nə qədər insanlar çox ciddi xəstəliklərə tutulurlar və bura HİV/QİÇS, hepatit, müxtəlif dəri xəstəliklərini misal çəkmək olar. Natəmiz iynələr iflic və ya onurğa beyninin zədələnməsinə, hətta ölümə səbəb ola bilər. Dozadan artıq, problemin həllinə təsir göstərməyən dərmanları qəbul etmək də əlilliyin yaranmasında zəmin rol oynayır.

Əlillik, insanın fiziki və ya psixi vəziyyətinə görə normal funksiyaları yerinə yetirmək qabiliyyətini itirdiyi bir vəziyyətdir. Anadangəlmə, xəstəlik və ya xəsarət nəticəsində əlillik 2 yerə bölünür:

1.Fiziki (görmə və ya eşitmənin; ətrafların itirilməsi və s.);

2.Əqli (autizm, daun sindromu və s.).

**Fiziki əlilliyin təsnifatı**

Daimi və müvəqqəti olmaqla fiziki əlilliyi aşağıdakı kimi təsnif edə bilərik:

1.Sensor (görmə, eşitmə);

2.Motor (motor bacarıqlar və bədənin hərəki hissələri) [3].

Görmə qabiliyyətinin itirilməsi, gözün obyektləri dəqiq və ya heç görməməsi anlamına gəlir. Anadangəlmə və sonradan xəsarət nəticəsində görmənin itirilməsi arasında bir sıra fərqlər var. Görmənin itirilməsi insanın dünyanı necə dərk etdiyini və fəaliyyətini dəyişdiyinə görə pozulma idrak, emosional, nervoloji və fiziki inkişafa təsir göstərir. Məsələn, görmə əlilliyi olan uşaqların üçdə ikisində əqli gerilik, serebral iflic, eşitmə itkisi, epilepsiya və s. kimi problemlər rastlanılır [8].

Ümumi Dünya Təşkilatı zəif görməni mümkün olan ən yaxşı korreksiya ilə 20/70 –20/400 arasında görmə kəsiliyilə və ya 20 dərəcə olması ilə təyin edir. Görmə qabiliyyətinin tam itirilməsi isə mümkün olan ən yaxşı korreksiya ilə 20/400 – dən daha pis görmə kəsiyilə və ya 10 dərəcə və daha aşağı olması kimi müəyyən edilir.

Zaman keçdikcə inkişaf da müxtəlif formada özünü biruzə verir. Görmə əlilliyi olan insanların həyat şəraitinin, rifahının yüksəldilməsi üçün müxtəlif vasitələrdən istifadə olunur. Bu vasitələrə texnolji avadanlıqlar, audio nəşrlər, brayl kitablar və s. misal çəkmək olar. Digər ölkələrdə audio, brayl kitab nəşrləri çoxdur, ancaq öz dilimizdə audiokitab tapmaq bir az çətindir. Böyüklər üçün “Audiokitab”, kiçiklər üçün isə “Danışan kitab” Azərbaycan dilində olan tətbiqlərdir [6].

Görmə əlilliyi olan şəxslərin komputerdən istifadəsi mümkündürmü? Bu suala, bəlkə də, əksər insanlar “xeyr” cavabı verə bilər. Ancaq xüsusi çevirici aparatlar sayəsində komputer yazıları səsləndirir. Xüsusi təlimlər nəticəsində klaviaturadan istifadə edərək görmə əlilliyi olan şəxslər asanlıqla komputerdə mətn yazmağı bacarır. Hətta böyük şirkətlər funksiya əlavə edərək görmə əlilliyi olan şəxslərin telefondan istifadəsini rahatlaşdırıb. Beləliklə texnologiya yalnız tipik insanların deyil, əlilliyi olan insanların da həyat fəaliyətinə təsir göstərdiyini əyani şəkildə müşahidə etmiş olduq.

Dünya əhalisinin təxminən 5%-i eşitmə zəifliyindən əziyyət çəkir və problemi aradan qaldırmaq üçün reabilitasiyaya ehtiyac duyur. Eşitmə əlilliyi olan şəxslər arasında çox hissəni yaşlı insanlar təşkil edir. Eşitmə əlilliyin yüngül, orta və ağır olmaqla 3 səviyyəsi var. Eşitmə qabiliyyəti zəif olan şəxslər danışıq dili ilə ünsiyyət qurur, eşitmə cihazlarından və digər köməkçi vasitələrdən istifadə edirlər. Eşitmə qabiliyyəti ağır olan şəxslərdə duyma ya çox az, ya da heç olmaması deməkdir. Eşitmə qabiliyyətinin itirilməsi nitqə də öz təsirini göstərir. Sonradan qazanılan eşitmə əlilliyi ağır olan şəxslərdə nitq getdikcə zəifləməyə başlayır. Ünsiyyət zamanı işarət dilindən istifadə edirlər.

Eşitmə qabiliyyətinin itirilməsində bir sıra səbəblər var:

1.Anadangəlmə;

2.Qazanılma.

Doğuş zamanı yaranmış problemlər nəticəsində eşitmə qabiliyyətinin itirilməsi anadangəlmə səbəblərə aid edilir. Bura irsi və irsi olmayan faktorlar da daxildir. Ana bətnində körpənin eşitmə orqanı düzgün inkişaf etməməsi, hamiləlik zamanı ananın yoxlucu xəstəlik keçirməsi, doğuş zamanı körpənin çəkisinin az olması anadangəlmə eşitmə əlilliyin yaranmasında zəmin rol oynayır [9].

İstənilən yaş dövründə rast gəlinən əlilliyə isə qazanılan əlilik deyilir. Bura uşağın bir sıra xəstəliklər – qızılca, skarlatina, qrip keçirməsi, qulaq və başın fiziki travması, yüksək səsdə qulaqcıqlardan istifadə və s. aiddir.

Kiçik yaşlarda eşitmə orqanın zəifləməsi, öz funksiyasının itirməsi intelektin və əqlin inkişafına səbəb olan yeganə fiziki əlillikdir. Öz nitqini və ətrafdakı səsləri eşitməyən uşaqlar danışmaqda çətinlik çəkirlər [7].

Bətndaxili dövrdə eşitmə orqanının inkişafının düzgün getməməsi ən ağır formadır. Bu, eşitmənin tam itirilməsinə dəlalət edilir. Eşitməni tam itirən şəxslərin nitq aparatında heç bir üzvi pozğunluq olmur. Beləliklə eşitməməyin nəticəsində lallıq yaranır. Tibbi cəhətdən eşitməyən şəxslərdən fərqli olaraq zəif eşidən insanlarda eşitmə qabiliyyəti tam itmir. Beləki zəif eşidən şəxslər bir məsafədən də olsa səsləri eşidirlər. Həmçinin bu şəxslər məhdud sayda olsa da nitq ehtiyyatlarına malikdir. Cihazların köməyi ilə zəif eşidən şəxslər asanlıqla cəmiyyətə adaptasiya ola bilirlər.

Bədənin hərəki hissələrin qabiliyyətinin itirməsi fiziki əlilliyin bir növü olan motor bacarıqlarının disfunksiyasını əhatə edir. Bu növə aid olan əlillik insan həyatının hərəkətliyini, dözümlüyünü və ya çevikliyini məhdudaşdırır. Ətraf hissələrin və ya onun iş qabiliyyətinin itirilməsi insan həyatına təsir edir. Beləki fiziki əlilliyi olan şəxslərin yerimək, əllərini, ayaqlarını hərəkət etdirmək, oturmaq və ayaq üstə durmaqda çətinlik çəkmək, eləcə də əzələlərini idarə etmək kimi bədən hərəkətlərini yerinə yetirə bilməmə problemləri var. Motor bacarıqları aşağıdakı kimi təsnif etmək olar.

1.əzələ - skelet sisteminin ciddi əyriliyi;
2.serebral iflic;
3.spina bifida;
4.beyin zədələri;
5.epilepsiya [8].

Əzələ - skelet sistemi insanın ayaqda dayanmasına və hərəkətinə kömək edən vasitədir. Əzələ - skelet sisteminin düzgün inkişaf etməməsi oynaqlara, sümüklərə və əzələlərə təsir göstərir və nəticədə ətrafların itirilməsinə, deformasiya olunmasına gətirib çıxarır. Ümumi olaraq, bel və boyun ağrıları, osteoartrit, skolioz, kifoz, lordoz, sümük kövrəkliyi ilə bağlı sınıqlar və s. nümunələri göstərə bilərik.

Sinir-skelet-əzələ sistemi əlilliyi degenerasiya səbəbindən fiziki əlilliklə nəticələnən bədən hissələrini hərəkət etdirə bilməməsi kimi müəyyən edilir. Bu sistemə bir sıra xəstəliklər aid edilir: serebral iflic, spina bifida, insult, onurğa beyni zədəsi, kəllə - beyin travması və poliomielit

Serebral iflic insan bədəninin hərəkətini ləngidir və idarəsini çətinləşdirir. Motor nəzarətinə təsir edən ən çox rast gəlinən əlillikdir. Səbəbi doğuşdan əvvəl və ya erkən yaşlarda alınan beyin zədəsi, oksigen çatışmazlığı, beynin düzgün inkişaf etməməsi, çiy ət qəbul etmək, narkotik və spirtli içki qəbuludur. Serebral iflic uşaqlara müxləlif yollarla təsir edir. Serebral iflicin bir sıra növləri var və təsir etdiyi nahiyələrə əsasən 2 yerə ayrılır:

1.Bədən hissəsinə görə;
2.Beyin zədəsinə görə.

Bədən hissəsinə görə a) quadriplegiya b) triplegiya c) diplegiya ç) hemipleji d) monoplegiya olmaqla 4 yerə ayrılır. Quadriplegiya növündə hər iki – yuxarı və aşağı ətrafa təsir göstərir. Triplegiya növündə üç əzaya – bir qol və hər iki ayağa təsir edir. Diplegiya növü yalnız aşağı ətraflara təsir edir. Hemipleji növündə bədənin bir tərəfinə təsir göstərir. Məsələn, sağ qol və sağ ayaq, ya əksinə. Monoplegiya isə yalnız bir əzaya təsir göstərir [2].

Serabral iflic beyin zədəsinə görə isə a) spastik b) diskinetik c) ataksik d) qarışıq olaraq 4 hissəyə ayrılır. Spastik serabral iflic ən çox yayılan növlərindən biridir. Təxminən insanların 70-80%-nə təsir göstərir. Beynin hərəki qabığının zədələnməsi nəticəsində yaranır. Diskertik serebral iflis ateoid adı ilə də tanınmaqdadır. Qeyri – iradi hərəkətlərlə xarakterizə olunan bu iflic növü bazal qanqliyaların zədələnməsi nəticəsində yaranır. Serabral iflic olan şəxslərin 6% -in də müşahidə olunub. Ataksiya iflic növü də diskertik növü ilə eyni faizi paylaşır. Beyinciyin zədələnməsi nəticəsində yaranan bu növ titrək hərəkətlərlə xarakterizə olunur və insanın tarazlığına təsir gösərir. Sonuncu növ olan qarışıq serebral iflic müştərək zədələnmə nəticəsində yaranır, yəni beynin bir neçə nahiyəsinin zədələnməsi nəzərdə tutulur. Bu növ serebral iflicin bir neçə növünün simptomlarını özündə birləşdirir [2].

Spina bifida körpələrdə onurğa və onurğa beyninə təsir edən ən çox rast gəlinən anadangəlmə əlillikdir. Bu sinir borusu əlilliyinin bir növüdür. Sinir borusu inkişaf etməkdə olan bir

embrionun quruluşudur. Körpənin beyni nəticədə onurğa beyni və onları əhatə edən toxumalara çevrilir. Ümumi olaraq, sinir borusu hamiləliyin ilk dövründə əmələ gəlir və 28-ci gün bağlanır. Bu proses sinir borusunun tamamilə bağlanmadıqda və ya düzgün inkişaf etmədikdə baş verir. İnkişafın düzgün getməməsi onurğa beynində və onurğa sümüklərində problem yaradır.

"Onurğanın bölünməsi" mənası verən spina bifidanın əsas üç növü var. Spina bifidanın ən ağır növü miyelomeningoseldir. Bu növdə onurğa beyninin bir hissəsi arxadan çıxır. Meningocele tipi onurğa beyni əhatə edən maye dolu kisə körpənin kürəyindən çıxır. Occulta növünə isə bəzən gizli spina bifida deyirlər. Körpənin kürək və bel hissəsində heç bir çıxıntı olmur. Körpədə onurğa beyni və sinirlər düzgün şəkildə inişaf edir, ancaq onurğanın sümüklərində kiçik fərqliliklər hiss olunur. Hətta bu növündən olan şəxslər bəzən spina bifida olduqlarını bilmirlər. Çünki heç bir simptom özünü göstərmir. Lakin bəzi insanlar bel ağrısı, ayaq zəifliyi, bağırsaq və ya sidik kisəsi problemlərindən əziyyət çəkirlər [4].

Epilepsiya beyinə təsir edən və tez – tez qıcolmalara səbəb olan ümumi bir vəziyyətdir. Tutmaların səbəbi beynin işləməsinə müvəqqəti təsir edən elektrik aktivliyin partlamasıdır. Bu genetik və ya sonradan qazanılmada ola bilər. Ağır kəllə-beyin tavması, beyin infeksiyası, doğuş zamanı oksigen çatışmazlığı, kəskin narkotik və ya spirtli içkidən istifadə epilepsiyanın sonradan qazanılmasına səbəb oıla bilər. Epilepsiya özünü hər yaşda göstərə bilər, ancaq uşaqlıq dövründə və 60 yaşdan sonra daha çox rastlanır. Tutmalar çox zaman uzunmüddətli (ömürlük) olur, bəzən zamanla yavaş – yavaş yaxşılaşa bilər.

Tutmalar beynin hansı hissəsindən asılı olaraq insanlara müxtəlif yollarla təsir edə bilər. Tutmalara şüuru itirmək, boş baxmaq, bədənin sərtləşməsi, qarında yüksəlmə hissi, qeyri-adi qoxular, dadlar və sairə olmasını misal göstərmək olar. Epilepsiyada tutmalar zamanı şüurun itirilməsi bəzən nə baş verdiyini xatırlamama kimi vəziyyətlərə səbəb olur [5].

Əlilliyi olan hər bir şəxs vəziyyətini qəbul edib, ən yaxşı hala doğru irəliləməyə və vəziyyətini stabil saxlayaraq həyata adaptasiya olmağa cəhd göstərməlidir. Bildiyimiz kimi, epilepsiyada fiziki əlilliyin bir növü olub, adətən ömür boyu davam edir. Epilepsiyası olan şəxslər tutmaları yaxşı idarə etsə, həyat şəraiti qaydasına düşəcək. Epilepsiyaları olan uşaqlarların əksəriyyəti məktəbə gedə, digər fəaliyyətlərlə də məşğul ola bilər: idman, musiqi, gimnastika və s. Həmin şəxslər hər hansısa fəaliyyətə başlamadan öncə müəssisəyə bu haqda məlumat verməsi məqsədəuyğundur.

**Nəticə**

Təəssüflər olsun ki, əlilliklə bağlı geniş işlər aparılsa da, geniş miqyası əhatə etmir. Hələ də ölkəmizdə əlilliklə bağlı streotiplər, çətinliklər var. Əlilliklə bağlı bir sıra məqalələr, kitablar yazılsa da, onların həyat şəraiti, rifahı yüksəlmir. İndiki dövrdə qidaların tərkibində kimyəvi maddələr və stress hallarının çox olması anadangəlmə əlilliyin sayını artırır. Araşdırmaların nəticəsində aydın görünür ki, hamiləlik dövrünün qarışıq keçməsi uşağın sağlamlığına və bu onun gələcək həyatına təsir göstərir. Dünyanın yaşı qocaldıqca, əfsuslar olsun ki, xəstəliklərin yaşı azalır, gəncləşir. Əlilliyi qüsur kimi qəbul edən valideynlər və onların, cəmiyyətin bir fərdə basqısı gələcək həyata çox mənfi təsir göstərir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1.Alaska Department of Health & Social Services. (2001) Disability History Exhibit Retrieved June, 2018. [Elektron resurs] / URL: https://sailhelps.org/a-brief-timeline-of-the-history-of-disabilities-the-shameful-treatment-of-people-with-disabilities/ Müraciət edilib: 10 avqust 2022

2.Cerebral Palsy. [Elektron resurs] / URL: https://www.healthline.com/health/cerebral-palsy Müraciət edilib: 11 avqust 2022

3.Disabilities : Causes, Diagnosis and Management. [Elektron resurs] / URL: https://www.aimu.us/2017/02/25/disabilities-causes-diagnosis-and-management/ Müraciət edilib: 11 avqust 2022

4.Eliza Gordon-Lipkin, Paul Lipkin. Topic about spina bifida 2020. [Elektron resurs] / URL: https://www.healthychildren.org/English/health-issues/conditions/developmental-disabilities/Pages/Spina-Bifida.aspx Müraciət edilib: 13 avqust 2022

5.Görmə əlilliyi yaranma səbəbləri. [Elektron resurs] / URL: http://ophthalmology.pitt.edu/vision-impairment/what-vision-impairment Müraciət edilib: 15 avqust 2022

6.Jane Maxwell, A health handbook for women with disabilities, 2007, s.10-15

7.The United Nations and Disabled Persons -The First Fifty Years. [Elektron resurs] / URL: http://www.un.org/esa/socdev/enable/dis50y10.htm Müraciət edilib: 10 avqust 2022

8.Types of Cerebral Palsy. [Elektron resurs] / URL: https://cparf.org/what-is-cerebral-palsy/types-of-cerebral-palsy/?gclids Müraciət edilib: 12 avqust 2022

9.Types of physical disabilities. [Elektron resurs] / URL: https://www.carehome.co.uk/advice/types-of-physical-disabilities. Müraciət edilib: 12 avqust 2022

**Наджия Гасанова**

## ПОНЯТИЕ ИНВАЛИДНОСТИ, ПРИЧИНЫ И КЛАССИФИКАЦИЯ ФИЗИЧЕСКОЙ ИНВАЛИДНОСТИ

**Резюме**

Сколько бы времени ни прошло, проблема с инвалидностью по-прежнему остается актуальной. Как в нашей стране, так и в других странах понятие «инвалидность» не до конца изучено. Родителям стыдно за своих детей-инвалидов, они постоянно пытаются их спрятать и оградить от посторонних глаз. В статье рассказывается о том, как анализировалось понятие «инвалидность» в разное время, и какое отношение к ним проявлялось. Мы будем наблюдать за фактами, которые вызывают инвалидность и с какими проблемами сталкиваются эти люди и приспосабливаются к жизни.

**Ключевые слова:** инвалидность, инвалидность, инвалиды, проблемы, связанные с инвалидностью.

**Najiya Hasanova**

## CONCEPT OF DISABILITY, CAUSES AND CLASSIFICATION OF PHYSICAL DISABILITY

**Summary**

No matter how much time has progressed, the problem of being protected by disability is still relevant. Whether assisted or otherwise, the concept of "disability" is not fully understood. Parents are ashamed of their children with disabilities, they constantly try to hide and protect them from people's eyes. The article talks about how the concept of "disability" was analyzed at the time, and what attitudes were established towards them. Facts that cause disability and what problems those people face and adapt to.

**Keywords:** disability, physical disability, persons with disabilities, disability-related development

**Sahə redaktoru: Üzeyir Şəfiyev**, sosiologiya üzrə fəlsəfə doktoru, dosent

UOT 364.044.42

# İNSAN PSİXOLOGİYASINA DUALARIN TƏSİRİ İMKANLARININ TƏHLİLİ

**Sevinc Şahverdiyeva***

Məqalə redaksiyaya daxil olmuşdur: 4 *avqust 2022; çapa qəbul edilmişdir: 10 sentyabr 2022; onlayn çap edilmişdir: 30 oktyabr 2022*

Received: *11th of August, 2022; accepted: 10th of September, 2022; published online: 30th of October, 2022*

***Xülasə***

Dualar və bəddualar insanın mənəvi dünyası, psixoloji durumu və qəlbinin kəsb etdikləri haqqında informasiya verən məfhumlardır. Dua Allahın əzəməti qarşısında bəndənin gücsüzlüyünü, acizliyini etiraf edərək, Ondan səmimiyyət və könül xoşluğu ilə kömək edilməsini istəməsini ifadə edir.

İnsanı həyatı boyu müşaiyət edən sınaqlar, çətinliklər və bəlalar onun ruhani aləminin sarsılmasına, psixoloji durumunun tənəzzül etməsinə və qəlbinin ümidsizlik xəstələyinə, depressiyaya mübtəla olmasına səbəb olur. Belə üzüntü çəkənlərin məlhəmi dua ola bilər. Dua mahiyyət etibarilə ibadət xarakteri daşıyaraq, bəndənin məqamından və mövqeyindən asılı olmayaraq yalnız Allaha üz tutmasını tövsiyə edir.

Məqalə dua və bədduanın insanın psixologiyasına, həyatına, fəalliyyətinə və axirət dünyasına göstərdiyi təsirlərdən bəhs edir.

***Açar sözlər:*** *psixi rahatlıq, dua, bəddua, iman, səbr, qəlb*

***(Ya Rəsulum!) Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən onlara yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər.***

***Bəqərə surəsi 2/186***

Dua ərəb sözü olub, xahiş, rica, təvəqqe, yalvarmaq, istək, dilək, çağırış, səda və haraylama deməkdir. Belə zəngin söz ehtiyatına malik olan ərəb dilinin hər bir kəlməsi öz müxtəlif və rəngarəng məna çalarlarına malik olan sinonimləri ilə həmişə diqqəti cəlb etmiş və etməkdədir. Bu da dilin ecazkarlığından irəli gəlir.

Dua nədir? Dua anlayışı qulun Allaha sığınması, yalvarması, Allahın böyüklüyü qarşısında qulun gücsüzlüyünü, acizliyini etiraf etməsi, sevgi və ehtiram hissləri ilə lütf, kömək və əfv eləməsi kimi mənaları ifadə edir. [7, 9] Duada başlıca məqsəd bəşər övladının maddi və mənəvi çətinliklər girdabında olarkən halının və ya hər hansı bir arzusunun və diləyinin Allaha ərz edilməsidir. Bu proses bəndə ilə Allah arasında əlaqə və rabitə olduğu üçün, qəlb və dilin vəhdəti ilə bərabər, həmçinin səmimiyyətlə icra edilməlidir.

Din alimləri duanı ibadətin bir hissəsi kimi qəbul etmiş və: “Dua ən böyük ibadətdir” demişlər. Bir hədisdə peyğəmbərimiz (s) də: “Dua ibadətin elə özüdür” və ya “Dua ibadətin əsası, iliyidir” – buyurmuşdur. Bu baxımdan duaya namaz qədər əhəmiyyət verilməlidir. Aşağıdakı ayə də buna işarə edir: “Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin”. (Əl-Əraf, 7/55) [7, 10]

Dua ibadətin əsası, qulluğun bir parçasıdır. Dua etməyənin Allah dərgahında dəyəri yoxdur. Çünki ayədə dua etməyi qüruruna sığışdırmayan kafirlərə xitab edilir: “(Ya Rəsulum, müşriklərə) de ki: Əgər duanız olmasa, Rəbbimin yanında nə qədir-qiymətiniz olar? (Furqan, 25/77) [7, 10]

Atalar sözləri müdrik firiklərin, ibrətamiz sözlərin və nəsihətlərin məcmusu olduğu üçün, bir ərəb atalar sözündə də belə deyilir: “İş nəticəsindən bəlli olar”. Yəni, insanın beynində, düşüncələrində dua mətninin formalaşmaması, onun mənasız və ləyaqətsiz həyat tərzi keçirməsinin nəticəsidir.

---

* *Bakı İslam Universitetinin müəllimi*

İstər insan, istər heyvan – bütün varlıqlar özünə xas dillə dua edir. Ancaq hal (hərəkət və davranışlarla bildirmə) dili ilə dua etmək və fitrət dili ilə Allahı yad etmək daha çox heyvanlara və dilini anlamadığımız digər varlıqlara məxsusdur. Bildiyimiz və başa düşdüyümüz bir dillə dua etmək isə yalnız insanlara və cinlərə aiddir. [7, 10]

Bəli, dua mahiyyət etibarilə ibadət xarakteri daşıyaraq, bəndənin məqamından və mövqeyindən asılı olmayaraq yalnız Allaha üz tutmasını tövsiyə edir. Bu əməl Tanrı hüzurunda insanın yoxsul, aciz və möhtac olduğunu dərk etməsindən irəli gələn həqiqətdir.

Duada niyyət və məram sonsuz Qudrətə tapınmaq və Onunla münasibət qurmaqdır.

Müsəlmanın duada qısaca dörd vacib məqsədi ola bilər:

1. Günahlarının əfvi;

Mömin xətalı olduğunu düşünərək daim Allahdan əfv, mərhəmət diləyir.

2. Ümid və arzu;

Mömin layiqincə ibadət etməyi və Allahın inayətinə nail olmağı arzu edir.

3. Allahdan kömək, lütf, müvəffəqiyyət istəyir;

4. Qəza, bəla, müsibət və xəstəliklərdən qorunmaq istəyir.

Mömin əmrləri yerinə yetirir, sonra da qəza, bəla, müsibət və xəstəliklərin uzaqlaşmasını və Allahın razılığını qazanmağı niyaz edir. [7, 16].

Dua və ibadət Allah ilə olmaq deməkdir. Allah ilə olan üçün ölüm də, ömür də məna qazanar. Bu təvəqqe rabitəsi insanın Allaha ən yaxın olduğu anlardır. Bunun üçün Allah-Təala "...səcdə et və yaxınlaş" (Əl-Ələq, 19) buyurmuşdur. Əks təqdirdə ömür mənasız, ölüm də qorxunc bir aqibətə düçar olmaqdan ibarət hala gələr. [6, 186]

Duanın fəziləti onun imanla və səmimi qəlbdən yerinə yetirilməsindədir. Şah Nəqşbənd həzrətləri buyurur: "... Elə bir qəlb yoxdur ki, Haqq-Təala oraya nəzər salmasın. O qəlbin sahibi istər bunu bilsin, istər bilməsin!..." Bu səbəbdən Haqq dostlarının ən böyük cəhd və himmətləri (xeyirxahlıq, səy, meyl) də ilahi həqiqətlərdən uzaq düşmüş xəstə və qafil qəlbləri islam və imanın nuruyla əbədi şəfaya qovuşdurmaq, möminlərin hüznlü və qəmli könüllərini də şəfqət və mərhəmətlə əhya etməkdən (diriltmək, canlandırmaq) ibarətdir. [4, 65]

İman bir işıq saçan məşələ bənzəyir. Nəfsani və şeytani küləklər, bu işığı söndürmək üçün ömür boyu hər fürsətdə əsib-coşar. Məhz ibadətlər iman işığını bu mənfi küləklərə qarşı qoruyan bir fanus kimidir. [4, 76] Bu səbəbdən ibadətlər nə qədər xalis niyyətlə və məqbul bir keyfiyyətdə ifa edilərsə, qəlbdəki imanın nuru da bir o qədər güclü və parlaq olar. Həzrət peyğəmbər (s.): "İnsan sevdiyi ilə bərabərdir" buyurmuşdur. Öz-özümüzə düşünməliyik ki, görəsən, könlümüz nə qədər Allahla birlikdədir? Nə qədər Rəsulullahla (s) birlikdədir? Bunun müqabilində nə qədər nəfsani arzularla birlikdədir?" [4, 78]. Yəni, həyata keçməsini istədiyimiz arzuların, istəklərin və qəbul olunacağına dərin ümid bəslədiyimiz duaların təməlində qəlbin saflığı, şəffaflığı və nuraniliyi durur.

Qəlb Allahın qonşusudur. Onun müqəddəs zatına qəlbdən daha yaxın heç bir varlıq yoxdur. Elə isə istər mömin olsun, istərsə asi, qəlbə əziyyət etməkdən uzaq olun! Çünki küfrdən sonra qəlbə əziyyət etmək qədər Allah-Təalanın inciməsinə səbəb olan başqa bir günah yoxdur. Zira qəlb Haqq-Təalaya yaxınlaşa bilən varlıqların ən yaxınıdır. [4, 65] Xudavəndi-aləmə bu qədər yaxın olan varlığa diqqət etmək, həssaslıqla yanaşmaq və onu incitməkdən ehtiyat etmək lazımdır. Yoxsa qəlbisınıq kəslərin bədduasının hədəfinə çevrilmək olar.

Bədddua nədir? O müəyyən bir səbəbdən kiminsə pisliyini istəmək deməkdir. Bu ifadə fars dilində pis, çirkin, fəna, yaramaz mənalarına gələn "bəd" sözü ilə ərəb dilinə məxsus olan "dua" sözünün birləşməsindən əmələ gəlmişdir. İnsanın özü və başqaları əleyhinə "Allah qəhr etsin, Allah bəlasını versin" kimi ifadələrlə etdiyi dualara bəddua deyilir. İslam dini müsəlmanlara bədduanı qadağan etmişdir. Peyğəmbərimiz (s): "Öz əleyhinizə, övlad və mallarınızın əleyhinə əsla bəddua etməyin ki, duaların qəbul olunduğu saata (ana) düşər və bədduanız qəbul olunar" – buyurmuşdur. [7, 26]

Adəm övladı fitrəti etibarilə hövsələsiz və səbirsizdir. Dua edərkən arzularının tez bir zamanda həyata keçməsini istəyən insan, təmasda olduğu şəxslərdən xoşagəlməz hərəkətlər – zülm, haqsızlıq, təhqir, tənə və s. gördükdə də bəddua vasitəsilə kəskin münasibətini bildirir. Hətta

tələskən xasiyyəti ucbatından həyatındakı çətinlikləri sınaq olaraq deyil, bəla kimi qəbul edərək əsəbi vəziyyətdə özünə, ailəsinə, övladına və malına şər diləməkdən çəkinmir.

Xülasə, müsəlman müsəlmanlara günahkar da olsalar, bəddua etməkdən qaçınmalıdır. Çünki, insanın yaxşılığı üçün edilən dua qəbul olunma baxımından bədduadan daha üstündür. Ancaq ardıcıl olaraq müsəlmanlara düşmənçilik və dinə həqarət ünvanlanarsa "o dinin Sahibi var" deyib bu düşmənçiliyi Allaha həvalə etmək lazımdır. [7, 28]

Qurani-Kərimdə dua.

Qurani-Kərim dua ilə başlayıb, dua ilə sona çatır. "Fatihə" surəsi qısa və icmali bir duadır. Bu qısa surədə insan-Allah münasibəti xülasə şəklində verilmişdir. Buna görə də "Fatihə" surəsi namaz ibadətinin əsası olaraq hər rikətdə oxunduğu kimi, namaz xaricində də çox oxunur. Quranın son iki- "Fələq" və "Nəs" surələri də duadır. Sevgili Peyğəmbərimiz (s) onları namazda və həmçinin sonrakı vaxtlarda oxumağı tövsiyə etmişdir. [7, 18] Ümumiyyətlə, Qurani-Şərifin hər bir surəsi insanı ləyaqətli, imanlı və məhsuldar həyat tərzi keçirməyə səsləyən bərəkətli ayələrdir.

Hədislərdə dua.

Əziz Peyğəmbərimiz (s) belə buyurmuşdur: "Şübhəsiz ki, Allah çox həyalı və çox əliaçıqdır. Bir insan əllərini qaldırıb dua etdiyi vaxt onu boş qaytarmaqdan həya edər".

Bu hədisi-şərif lütf və kərəmi sonsuz olan Rəbbimizin ona əl açıb yalvaran qullarının istəklərinə cavab verəcəyini və onları öz mərhəmətindən məhrum etməyəcəyini göstərir. [8, 14]

"Kimin üçün bu dua qapısı açılmışdırsa onun üçün mərhəmət qapısı da açılmışdır." Rəsuli-Əkrəmin (s) dediyi belə mübarək sözlər duanın mərhəmət xəzinələrinin qapısını açan bir açar olduğunu bəyan edir, hətta ilahi rəhmət qapısını döyən şəxslər üçün onun açılacağı və arzularının həyata keçiriləcəyi müjdəsini verir.

Dua həm də bəla və müsibətlərə qarşı qoruyucu qalxandır. Məhəmməd Peyğəmbər (s) buyurur: "Şübhəsiz ki, dua gələn və gəlməyən bəlaya da faydalıdır. Ey Allahın qulları, dua etməyə davam edin." [8, 18]. Buradan məlum olur ki, duanın köməyi ilə qədərdə yazılı olan və daha meydana gəlməmiş bir bəla və müsibətin qabağı alına bilər. Əgər meydana gəlməsi yəqinlik qazanmışsa dua sayəsində Allah insana səbir və dözüm verir. [8, 19] Çünki "səbir müvəffəqiyyətin açarıdır". Səbir olmasa imanın kamilliyindən, təqvanın (dindarlıq) tamlığından, əməlin uğurundan, əxlaqın gözəlliyindən danışmaq mümkün deyil. Səbir böyük insanların fəziləti, kiçiklərin isə ibadətidir. [1, 225] Dua insanın dünyəvi həyatının asayişini, əminamanlığını, təhlükəsizliyini təmin etdiyi kimi, ruhlar aləmindəki dincliyinə və rahatlığına da zəmanət verir.

Belə ki, Bərzəx Qurani-Kərimdə adı keçən bir mənəvi aləm və ruhlar dünyasıdır ki, hər bir insan ondan keçməyə məhkumdur. Bərzəx qeybdir, lakin haqdır. Onun sərhəddi yoxdur. O, varlıq dünyasının surətidir. [1, 257]

Məcazi dünya /Bərzəx/ ilə maddi dünya arasında rabitə, ruhlar və onlara bağışlanan duaların açdığı "işıq cığırları" vasitəsilə təmin olunar. Bir dəfə Rəsuli Əkrəmdən (s) soruşdular ki, ölülərin hədiyyəsi nədir? Həzrət buyurdu: "Sədəqə və dua". Ruhlar bu xeyir dualarla onları yada salanlara minnətdar olarlar. Ölənlərin ruhu üçün oxunan ayələr, edilən dualar, verilən ehsanat Bərzəxdə öz aqibətini gözləyənlərin rahatlığının təminatı və vəsiləsidir. [1, 258]

Allahdan duamız odur ki, fani həyatımızdan sonra qəbrimizdə qiyaməti gözləyərkən yer üzündə bizi də yad edərək ruhumuzu şad edəcək dostlarımız olsun. Amin! [4, 143]

Duanın axırında "Amin" deyilməlidir. Bir hədisi-şərifdə duanın sonunda dua qəbul olunsun deyə "Amin", "Allahım duamı qəbul et" deyə bitirmək tələb olunur. Bu da duaların qəbul olunma şərtlərindən biridir. [7, 53] Öz-özünə dua etmək və ya mömin qardaşına dua edib-etdirmək duanın tezliklə qəbul olunmasına səbəb olur. Hədislərin birində deyilir ki, Sevimli Peyğəmbərimiz (s) qiyabi (dua edilən yanımızda və xəbəri olmadığı halda) edilən duaların qəbulunun daha uyğun olduğunu söyləmişdir: "Dərhal qəbul olunmağa ən layiqli dua qiyabi edilən duadır", "Mömin qardaşa qiyabi edilən elə bir dua yoxdur ki, mələklər də "Amin, bir misli də sənə olsun" deməsin. Mələklərin "amin" dediyi dualar mütləq şəkildə və təxirə salınmadan müstəcəb (çağırışa cavab verən) dualardır. [7, 54]

Maddi təmizlik Adəm övladı doğulduğu gündən etibarən dünyasını dəyişənədək onu müşayiət edir və etməlidir. Ona görə Allahın peyğəmbəri (s) deyir ki: "imkanınız çatan bütün vasitələrlə özünüzü təmizləyin. Allah-Təala islamı təmizlik üzərində qurub və Cənnətə yalnız təmiz şəxs gedəcəkdir". [3, 879] Belə ki, vücudunun paklığına riayət edən insan mələklərin alqışını qazanar. Aşağıdakı hədis bu həqiqəti bariz şəkildə göstərir: "Bu bədənləri təmizləyin ki, "Allah da sizi təmizləsin. Hansı bəndə gecə təmiz bədənlə yatsa, onunla paltarı arasında bir mələk yatar və gecənin hansı saatında o tərəf - bu tərəfə çevrilsə, həmin mələk deyər: Allahım! Bəndəni bağışla. Çünki o, təmiz bədənlə yatıb". [3, 878]

İnsan duadan əvvəl qəlbən, ruhən və cismən duaya hazır olmalıdır ki, arzuları həyata keçsin. Bu səbəbdən əməl ediləsi şərtlərə diqqət yetirməlidir:

a) Maddi təmizlik. Dua edənin dəstəmazı yoxdursa, dəstəmaz almalıdır, hətta muradı çox böyük və xüsusidirsə qüsl etməlidir. Bütün bunlar duaya verilən əhəmiyyəti göstərir və qəbul edilməsi üçün də olduqca önəmlidir. Lakin dəstəmazsız da dua etmək olar. [7, 39]

b) Mənəvi təmizlik. Tövbə və istiğfar (bağışlanma) ilə təmizlənmək.

c) Üzü qibləyə sarı tutmaq. Namazdan sonrakı dualarda olduğu kimi mümkün qədər üzü qibləyə sarı tutmalıyıq. Lakin bu şərtin icrası mütləq deyildir.

Duanın başlanğıcı və sonu.

Duadan öncə çoxlu həmd-səna etmək (yəni Allahın əzəməti və böyüklüyünün tərifi) və Allah Rəsuluna (s) çoxlu salavat (dua) demək lazımdır. Bunları ərəbcə bilməyənlər azərbaycanca belə deyə bilərlər: "Həmd (mədh, tərif, alqış) Aləmlərin Rəbbi olan Allaha məxsusdur. Peyğəmbərimizə (s), Onun ailəsinə və bütün əshabələrinə (yoldaşlarına, məsləkdaşlarına) salət (dua) və salam olsun." [7, 42]

Duanın əvvəlində olduğu kimi axırında da bu dualar deyilməlidir. Çünki Allah-Təala salavatları hökmən qəbul edir. Beləliklə, iki salavatın arasında edilən dua da onların hörmətinə qəbul olunur.

Duaya salavatla başlamaq döydüyümüz qapının önündə duran və qapının açarlarını əlində tutan şəxsə salam vermək kimidir. [7, 41]

Peyğəmbərimizin (s) salavat və salam haqqındakı mübarək sözləri aşağıda verilmişdir:

"Qiyamət günü insanlardan mənə ən yaxın olanlar, mənə ən çox salavat gətirənlərdir".

"Kim mənə salavat gətirsə, Allah-Təala o şəxsi on qat bağışlayar".

"Cümə günü mənə daha çox salavat gətirin. Çünki sizin salavat və salamlarınız mələklər vasitəsilə mənə çatdırılır". [8, 76]

Dua edən insan cisminin təmizliyinə-geyiminə, xarici görünüşünə diqqət etməklə bərabər, bəzi xüsusları da nəzərə almalıdır:

a) Əlləri səmaya qaldırıb ovucları açaraq dua etmək. Əlləri yuxarı qaldırmaq Allahın qüdrət əlinin üstünlüyünü xatırlamaq üçündür. Ayrıca olaraq duada əllərin yuxarı qaldırılması "təabbüdi" əmrlərdəndir, yəni Allah Rəsulu (s) bu şəkildə dua etdiyi üçün biz də belə dua etməliyik.

Bir hədisdə peyğəmbərimiz (s) belə buyurmuşdur:

"...Allahdan ovuclarınızın içi ilə istəyin, çölü ilə (arxası ilə) deyil. Duanı bitirəndə də ovuclarınızı üzünüzə çəkin." [7, 42] Duanın axırında da əlləri üzümüzə, bərəkətə səbəb olsun deyə çəkirik. Beləcə dua ilə əllərə enmiş mərhəməti üzümüzə çəkmiş oluruq.

b) Dua vaxtı gözləri göyə dikməmək. "Bəzi insanlar namazda gözlərini göyə dikərək dua etməkdən əl çəksin. Yoxsa Allah onların gözlərini kor edər." Hədisdən bəlli olur ki, Allah Rəsulu (s) bu cür dua etməyi qadağan etmişdir.

c) Uca səslə dua etməmək. Dua və zikri, yəni ibadətləri uca səslə etmək doğru deyil. Dinimiz bu cür davranışları düzgün qarşılamır. Allah qəlbimizdən keçən ən gizli hisslərdən xəbərdar olduğu halda ona uca səslə ibadət etmək, çağırıb-bağırmaq ixlasın (səmimiyyətin) riyakarlığa, duanın şikayətə çevrilməsinə səbəb olar. [7, 43]

İnsanı həyatı boyu müşaiyət edən sınaqlar, çətinliklər və bəlalar onun ruhani aləminin sarsılmasına, psixoloji durumunun tənəzzül etməsinə və qəlbinin ümidsizlik xəstələyinə mübtəla

olmasına səbəb olur. Belə üzüntü çəkənlərin məlhəmi yalnız dua ola bilər. Məşhur alim Dr.Aleksi Karel "Dua" adlı əsərində duanın müsbət təsirləri haqqında maraqlı bilgilər verir:

"Həqiqətən dua kainatın yaradıcısı, hamımızın xilaskarı və himayədarı ilə fikri və hissi baxımından əlaqə qurmaq üçün edilən cəhdləri təmsil edir.

Dua öz keyfiyyətinə, şiddət və qüvvəsinə, frekansına görə ruh və bədənə təsir edir. O, insanın üzünə yaxşılıq səltənətinin qapılarını açır. İnsan yavaş-yavaş ruhi cəhətdən sükuta qovuşur, qədərə qarşı böyük bir səbir qazanır. Ölümə, xəstəliyə, iztiraba və öz yaxınlarını itirməsinə böyük bir dözümlülük göstərir. Qəti olaraq bildiyimiz bir şey vardırsa o da duanın əl ilə toxunula bilən, gözlə görünə bilən təsirlər meydana gətirməsidir. Duanın tənəffüs funksiyasına oxşar tərəfləri vardır. Dua ilə insan Allaha çatır. İnsan suya və oksigenə möhtac olduğu kimi, Allaha da möhtacdır." [8, 24-25]

Dualar və bəddualar emosional arzu olaraq ərəb dilinin zəngin qrammatikasında da öz əksini tapmışdır. Belə ki, ifadə edilən diləyin, istəyin, nifrətin və s. bu kimi hisslərin həyata keçirilməsinin çox istənildiyini və hətta bir növ real fakt kimi qəbul edildiyini bildirmək üçün feilin keçmiş zamanından geniş istifadə olunur. [2, 485] Məsələn, "Allah sənin ömrünü uzun eləsin!", "Allah ona rəhmət eləsin!", "Allah ona lənət eləsin!" kimi ifadələr azərbacan dilində yaxın gələcək zamana aid edilirsə, ərəb dilində isə "Allah ona rəhmət elədi!" şəklində ifadə edilir. Burada hikmət ondan ibarətdir ki, bəndələrin maddi aləmdəki əməllərinin əvəzi ilk olaraq Allah-Təala tərəfindən verilir, sonra isə Tanrının rəhməti və lənəti yer kürəsinə sirayət edilir.

Bir sözlə Allah-Təala etdiyimiz əməllərin, ibadətlərin gözəl olmasını istədiyi qədər onun necə bir qəlbi keyfiyyət içində və nə dərəcə təqva (Allahdan qorxub çəkinmə) ölçülərinə riayət edərək yerinə yetirdyimizə də baxar. [5, 88]

Mövlanə həzrətləri belə buyurmuşdur: "Ey qardaş sən təfəkkür ilə yaşamalısan. Əgər təfəkkür etdiyin gül isə sən gül bağçasındasan. Yəni, dünya cənnətindəsən. Təfəkkürün tikan isə, qızmar odun kötüyüsən". [5, 152]

Bəli, fikrin, niyyətin və məqsədin gözəlliyi gül ətirli dua çələnginin yaranmasına, onun qəbuluna və həyatımızın bərəkətli keçməsinə səbəb olar.

Haqq-Təala lütf kərəmiylə hər birimizə rizasına uyğun xeyirli bir ömür, səadət müjdələriylə gələn gözəl bir son nəfəs və camalına vüslətlə taclandırılmış məsud axirət həyatı bəxş etsin [4, 142] və hər birimizin könlünü günah, üsyan və qəflət qaranlığından mühafizə etsin! Qəlblərimizi Quran və Sünnə (şəriət) nuru ilə əhya edə bilməyi cümləmizə nəsib və müyəssər eləsin!

Amin! [5, 199].

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Hacı Sabir Həsənli "Haqqa doğru". Bakı, "Elm və həyat" nəşriyyatı. 1998, 320 səh.

2. Məmmədov Ə.C. Ərəb dili. Bakı, "Maarif", 1998, 620 səh.

3. "Mizanul-Hikmət" (xülasəsi). Peyğəmbər (s) və İmamlar (ə)-ın mübarək hədisləri. Toplayan: Ayətullah Məhəmməd Məhəmmədi Reyşəhri. Tərcüməçilər: Ağabala Mehdiyev, Elşən Mahmudov, Etibar Quliyev. İİR, Mədəniyyət mərkəzi – 2009. 991 səh.

4. Osman Nuri Topbaş. İkinci Minilliyin Mücəddidi. İmam Rəbbanidən hikmətlər. Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran Nurlan Məmmədzadə. Bakı – 2014; İpəkyolu Nəşriyyatı, 143 səh.

5. Osman Nuri Topbaş. Könül yolculuğu. Bakı – 2013; İpəkyolu Nəşriyyatı 221 səh.

6. Osman Nuri Topbaş. Məsnəvi bağçasından. İnsan deyilən müəmma. İpəkyolu Nəşriyyatı. Bakı 2009, 192 səh.

7. Solmaz Ünlü. Dua. Quldan Rəbbə yüksələn qulluq nişanı. Tərcüməçi Firdovsi Səfərov. Xəzər Nəşriyyatı. 2010, 167 səh.

8. Seyfəddin Yazıçı. İnananların güc mənbəyi dua. Türk dilindən çevirən Mehman Musaoğlu. Ankara 2000, 90 səh.

**Sevinj Shahverdiyeva**

## ANALYSIS OF THE POSSIBILITY OF THE INFLUENCE OF PRAYERS ON HUMAN PSYCHOLOGY

**Summary**

Prayers and curses are concepts that provide information about the spiritual world of a person, his psychological state and what his heart desires. Prayer expresses the helplessness and helplessness of a servant before God's majesty, sincerity and kindness.

The trials, difficulties and troubles that accompany a person throughout his life cause a shock to his spiritual world, deterioration of his psychological state, infection of the heart with the disease of despair. Prayer is the only salvation from such sorrows. Dua is essentially a form of worship and recommends that the servant address only God, regardless of his rank and position.

The article talks about the influence of prayers and spells on human psychology, life, activity and the other world.

**Key words:** *spiritual consolation, prayer, prayer, faith, patience, heart.*

**Севиндж Шахвердиева**

## АНАЛИЗ ВОЗМОЖНОСТИ ВЛИЯНИЯ МОЛИТВ НА ПСИХОЛОГИЮ ЧЕЛОВЕКА

**Резюме**

Молитвы и проклятия – это понятия, дающие информацию о духовном мире человека, его психологическом состоянии и том, чего желает его сердце. Молитва выражает беспомощность и беспомощность раба перед Божьим величием, искренностью и добротой.

Испытания, трудности и беды, сопровождающие человека на протяжении всей его жизни, вызывают потрясение его духовного мира, ухудшение психологического состояния, заражение сердца болезнью отчаяния. Молитва — единственное спасение от таких печалей. Дуа по сути является формой поклонения и рекомендует слуге обращаться только к Богу, независимо от его ранга и положения.

В статье говорится о влиянии молитв и заклинаний на психологию человека, жизнь, деятельность и потусторонний мир.

**Ключевые слова:** *душевное утешение, молитва, молитва, вера, терпение, сердце.*

**Sahə redaktoru: Elvin Talışinski**, siyasi elmlər üzrə fəlsəfə doktoru

**UOT 364.044.44**

# XARİCDƏ TƏHSİL ALAN TƏLƏBƏLƏRİN UYĞUNLAŞMA PROBLEMLƏRİ

**Türkan Nəcəfova***

Məqalə redaksiyaya daxil olmuşdur: 4 *sentyabr 2022; çapa qəbul edilmişdir: 10 sentyabr 2022; onlayn çap edilmişdir: 30 oktyabr 2022*

Received: *11th of September, 2022; accepted: 10th of September, 2022; published online: 30th of October, 2022*

**Xülasə**

Bu məqalənin aktuallığı ondan ibarətdir ki, getdikcə daha çox müasir universitetlər beynəlxalq səviyyədə tanınmağa çalışdıqları üçün beynəlmiləlləşməyə maraq göstərirlər. Bundan əlavə, müxtəlif ölkələrdən getdikcə daha çox gələcək tələbələrin təhsil almaq istədikləri universitetləri və ölkələri seçmək imkanı var. Eyni zamanda, beynəlxalq tələbələrin universitetlərə cəlb edilməsi onların yeni şəraitə uyğunlaşması problemi ilə bağlıdır və bu, dünya universitetlərinin qarşısında duran kifayət qədər mühüm vəzifədir.

Tədqiqatın məqsədi xarici tələbələrin dünya universitetlərinin təhsilinin sosial-mədəni məkanına uyğunlaşmasının xüsusiyyətlərini öyrənmək, eləcə də, dünya universitetlərində təhsil alarkən tələbələrin qarşılaşdıqları problemləri müəyyən etməkdir. Tədqiqat metodu kimi biz beynəlxalq tələbələrin adaptasiyası zamanı yaranan xüsusiyyətlərin və problemlərin tez və səmərəli araşdırılmasına imkan verən bir üsul kimi anket sorğusundan istifadə etdik. Tədqiqatın nəticələri: məqalə xarici universitetlərdə təhsil alan beynəlxalq tələbələrin sosial və kommunikativ uyğunlaşmasından bəhs edir.

Bu işdə əldə edilən məlumatların praktiki əhəmiyyəti onların sosial psixologiya, etnik psixologiya, pedaqogika, yaş psixologiyası, sosiologiyada və bu məsələnin gələcək nəzəri inkişafı üçün istifadə edilməsindədir.

**Açar sözlər:** tələbə, sosial adaptasiya, miqrasiya, təhsil

## Giriş

Dünya universitetlərində beynəlxalq tələbələrin təmsil olunmasında uyğunlaşma prosesinin xüsusiyyətləri təsvir edilmişdir. Tədqiqatın yeniliyi və orijinallığı ondan ibarətdir ki, əcnəbi tələbələrin adaptasiyası seçiminə təsir edən əsas amillər nəzərə alınır. Müəyyən edilmişdir ki, əcnəbi tələbələrin dünya universitetlərinin təhsil mühitinə uyğunlaşması onların həyatının bütün sahələrini əhatə edən çoxölçülü və uzunmüddətli prosesdir. Məlum olub ki, əcnəbi tələbələr üçün uyğunlaşmanın ən çətin tərəfləri yeni iqlim şəraitinə və zamana, yeni sosial-mədəni mühitə, yeni təhsil sisteminə, yeni ünsiyyət dili, qrupların beynəlxalq xarakterinə uyğunlaşma problemləridir. İlk dəfə olaraq müəyyən edilib ki, sorğuda iştirak edən əcnəbi tələbələrin müəyyən etdiyi əsas problem yataqxanada dil və yaşayış şəraiti ilə bağlı problemlərdir. Məlum olub ki, yataqxanalarda yaşayış səviyyəsi əksər əcnəbi tələbələr üçün qənaətbəxş olsa da, əksər hallarda onların gözləntilərinə uyğun gəlmir. Qonşu ölkələrdən gələn tələbələrin digər beynəlxalq tələbələrə nisbətən daha tez uyğunlaşdıqları göstərilir. Müəyyən edilib ki, ali təhsil almaq üçün gələn beynəlxalq tələbələrin əksəriyyəti rus dilində danışır ki, bu da onlara ev sahibi cəmiyyətə daha tez qoşulmağa imkan verir. Məlum olub ki, əcnəbi tələbələr Rusiya universitetini bitirdikdən sonra orada işə düzəlmək üçün öz evlərinə qayıtmaq istəmirlər.

Müəyyən edilmişdir ki, əcnəbi tələbələrin xarici universitetlərə uğurlu adaptasiyası üçün aşağıdakılar lazımdır: mühüm məsələlərin həllində onlara kömək edəcək əcnəbi tələbələrin şuralarının yaradılması; yataqxanalarda və tədris binalarında xarici dillərdə vacib məlumatların

**Magistr, Azərbaycan Universiteti. Bakı, Azərbaycan*
*E-mail:* necefovaturkan2@gmail.com

surətini çıxarmaq; beynəlxalq tələbələrin digər beynəlxalq tələbələrlə qarşılıqlı əlaqədə olmaq, yaranan problemləri müzakirə etmək, dəstək tapmaq, xarici dili öyrənmək imkanı əldə etməsi üçün tələbə icmalarının (maraq qrupları və ya ehtiyaclara uyğun) formalaşmasına dəstək vermək; təhsil almaq üçün yüksək motivasiya saxlamaq, həmçinin universitetdə həyat və təhsil haqqında müxtəlif məlumatlar almaq; beynəlxalq tələbələr icmasının formalaşdırılmasında fəal iştirak edərək kouçinq və mentorluq sistemini inkişaf etdirmək lazımdır.

**Təhsil miqrasiyası**

Qloballaşma prosesləri ilə əlaqədar müasir cəmiyyətdə istənilən növ hərəkatların rolu artır: insanlar, kapitallar, pullar, informasiyalar və s. Dəyişən cəmiyyət qapalı və məhdud milli dövlətlər sistemi olmaqdan çıxır. Hər cür hərəkətlilik həyatın bütün sahələrini, o cümlədən təhsili əhatə edir. Bir tərəfdən təhsil kifayət qədər sabit sistem kimi konkret cəmiyyətdə və dünyada baş verən proseslərin birbaşa əksidir, digər tərəfdən təhsil, xüsusən də mobil formada təhsilin inkişaf imkanlarına təsir göstərir. Bu baxımdan, müasir dünyada təhsil sahəsində beynəlxalq əməkdaşlıq arzusu var. Müxtəlif əməkdaşlıq formaları ali təhsil sahəsində xüsusi əhəmiyyət kəsb edir ki, burada yeni ixtiralar hazırlanıb dünyanın laboratoriyalarında və universitet mərkəzlərində toplanır və təhsil prosesi iştirakçılarının innovativ kapitalı artır. Bu əməkdaşlıq formaları böyümə vektorunu müəyyən edir və müasir cəmiyyətdə potensial irəliləyiş üçün əsas yaradır.

Ali təhsil sahəsində mobillik təkcə dünyanın ən böyük universitetləri səviyyəsində ölkələr arasında əməkdaşlıq proseslərinə təsir göstərmir; onlar regional səviyyədə də baş verir: regional universitetlər arasında təhsil xidmətlərinin ixracı inkişaf edir, onların maddi-texniki bazası artır və bu universitetlərin professor-müəllim heyəti artır. Öz spesifik xarakteri və özünü identifikasiyası olan, öz "markası" olan, öz ticarət fonduna malik regional universitetlər – məsələn, kosmos sahəsində Samara Universiteti – digər ölkələrin universitetləri ilə fəal əməkdaşlıq edir. Xaricdən tələbələrin təhsil almağa, mövcud olmağa və özlərini qlobal miqyasda müstəqil "oyunçular" və qurumlar kimi elan etməyə cəlb etmək bu universitetlərin əsas məqsədidir.

Bu gün qlobal təhsil bazarı ən sürətlə böyüyən ixrac məhsullarından biridir. YUNESKO-nun proqnozlarına görə, 2025-ci ilin əvvəlinə xaricdə təhsil alanların sayı 7 milyona çata bilər.

Uyğunlaşma problemi insan fəaliyyətinin müxtəlif sahələrini əhatə edən ən mürəkkəb fənlərarası problemlərdən biridir: psixoloji-pedaqoji, sosial, mədəni, linqvistik və s. Müasir elmi ədəbiyyatda uyğunlaşma termininin geniş şərhləri verilir. Cəmiyyət üzvlərinin ehtiyacları, onların böyümə və özünü təmin etmək istəyi ilə bu ehtiyacları ödəməkdə dövlətin qarşılaşdığı çətinliklər arasında ziddiyyətlər artır. Şəxsiyyətin sosiallaşmasının mühüm aspektinin uyğunlaşma olduğu sosial sferada uyğunlaşmanın mürəkkəb mexanizmləri: konkret kollektivin və ya qrupun sosial normalarının, dəyərlərinin, münasibətlərinin daxililəşdirilməsinin səbəbi (sosiallaşma funksiyası) adaptiv fəaliyyətin ikitərəfli bir proses olmasıdır. Sosial mühitə dünyagörüşü, mədəni və mənəvi komponentlər daim təsir edir. Psixofizioloji, təhsil və idrak, sosial-mədəni və məişət amillərinin kompleksi xarici tələbələrin uyğunlaşma xüsusiyyətlərini müəyyənləşdirir. Uyğunlaşmada təhsilin bütün komponentlərinin münasibətlərinin strukturu mühüm rol oynayır. Başqa ölkələrdən gələn tələbələrin uyğunlaşması xüsusi təşkilatçılıq, ardıcıllıq və məqsədyönlülük tələb edir. Müasir cəmiyyətdə dəyişikliklər sosial və iqtisadi həyatın bütün sahələrini, xüsusən də sosial quruluşu, maddi və mənəvi mədəniyyəti, bütövlükdə cəmiyyəti əhatə etmişdir. Transformasiya prosesi çoxlu sayda sosial subyektlərin, fərdlərin, təşkilatların, qrupların qarşılıqlı təsirinin nəticəsi idi ki, onların toplusu cəmiyyətin transformasiyasının makro subyekti sayıla bilər. Sosial həyat proseslərini özünü təşkil edən sistem kimi başa düşmək üçün uzunmüddətli sosial transformasiyalar zamanı insanın sosial adaptasiyasının xüsusiyyətlərini təhlil etmək vacibdir.

**Xarici tələbələrin resosializasiyası**

Əcnəbi tələbələrin sorğusundan əldə edilən məlumat əcnəbi tələbələrin ali təhsil almaq üçün xarici ölkəyə gəldikləri zaman qarşılaşdıqları problemləri müəyyən etməyə və onların uyğunlaşma dərəcəsi haqqında nəticə çıxarmağa kömək etdiyi üçün xüsusilə dəyərlidir. Bizə yaxın bölgələrdən olan Rusiyanı nümunə kimi götürə bilərik. Sorğunun nəticələrinə əsasən Rusiya universitetlərində təhsil alan əcnəbi tələbələrin ümumi göstəriciləri tərtib edilib. Tipik olaraq, Rusiyaya gələn gənclər

bu və ya digər şəkildə rus (98%), ingilis (69%) dillərində danışırlar, çünki bir çox ölkələrdə ana dilindən əlavə məktəblərdə bu dil öyrənilir, Afrikada bəzi tələbələr fransız dilində danışırlar. Sorğuda iştirak edən bütün beynəlxalq tələbələrdən hər üçdə biri mükəmməl rus dili bilikləri nümayiş etdirib. Bir qayda olaraq, bu nəticəni qonşu ölkələrdən tələbələr göstərirlər. Beynəlxalq tələbələrin təxminən 65%-i rus dilində danışıq səviyyəsində danışdıqlarını bildirib. Rusiyada yaşadıqları ilk ayda Afrikadan olan tələbələr (16%) və Asiyadan olan tələbələr (10%) fərqli iqlim və havaya alışmaqda ən çox çətinlik çəkiblər, Latın Amerikası (30%) və Ərəb ölkələrindən olan tələbələr ( 21% - dil maneəsi, MDB ölkələrindən olan tələbələr isə dost və valideynlərinin olmaması (21%) və tələbə yataqxanalarında həyata alışmaqda (41%) ən çox çətinlik çəkirdilər. Tələbələrin əksəriyyəti (81%) oxumağı xoşlayır, maraqla oxuyurlar, bunu sorğunun nəticələri göstərir, sorğuda iştirak edən beynəlxalq tələbələrin qalan hissəsi cavab verməkdə çətinlik çəkib, lakin heç kim bu variantı seçməyib - yox oxumağı xoşlamıram [5, s. 39].

Sorğuda iştirak edənlərin əhəmiyyətli bir hissəsi (83%) Rusiya universitetlərində təhsil almaqda çətinlik çəkir, lakin heç bir ciddi çətinlik yoxdur, 15%-i təhsil almağın onlar üçün çətin olduğunu, xarici tələbələrin isə yalnız 2%-i onlar üçün asan olduğunu bildirib. Beynəlxalq tələbələr üçün təlim prosesində ən çətini mühazirələrdir (58%), bu da dil maneəsini bir daha təsdiqləyir. Hər üçüncü tələbə imtahanlara və ya kreditlərə hazırlaşmağın daha çətin olduğunu göstərib. Universitetin professor-müəllim heyəti və tələbələri ilə münasibəti ilə bağlı suala onların yarıdan çoxu - 61%-i bəzən çətinlik çəkdiklərini, 37%-i professor-müəllim heyəti və tələbələrlə ünsiyyətdə problem yaşamadıqlarını, yalnız 2%-i isə daim çətinliklərlə üzləşmişdir cavabını vermişdir. Davamlı və ya bəzən çətinlik çəkdiklərini deyən tələbələr dil maneələrini (61%), psixoloji maneələri (31%) və mədəni maneələri (24%) ən mühümləri kimi göstərmişlər. Sonra əcnəbi tələbələrlə universitet professorları arasında münasibətlərin xüsusiyyətlərini müəyyən etməyə imkan verən sual təklif olunub. Tədris prosesində respondentlərin 85%-i heç bir konfliktli vəziyyətlə üzləşməmiş, 13%-i cavab verməkdə çətinlik çəkmiş, 2%-i isə konflikt yaşadığını bildirmişdir.

Məlum olub ki, əsasən tələbələr və professor-müəllimlər arasında əməkdaşlığa təkan verən dostluq münasibətləri mövcuddur. Əcnəbi tələbələr Rusiya universitetlərinə uyğunlaşmanın çətinlikləri ilə bağlı açıq suala müxtəlif üsullarla cavab veriblər. Bununla belə, respondentlərin təxminən 61%-i dili əsas problem adlandırıb. Tədqiqat suallarından biri xarici ölkədə uğurlu uyğunlaşma ilə bağlı idi, yəni beynəlxalq tələbələrin uğurlu adaptasiyası üçün nə lazımdır. Beynəlxalq tələbələrin demək olar ki, hər üçdə biri (39%) hesab edir ki, uğurlu uyğunlaşma digər tələbələrlə (xüsusilə də beynəlxalq tələbələrlə) birgə iş də daxil olmaqla müxtəlif iş tələb edir. Əcnəbi tələbələr üçün prioritet rus tələbələri ilə birgə fəaliyyətlər, fəal məktəbdənkənar fəaliyyətlər, həmçinin yaşadıqları ölkənin mədəniyyəti ilə bağlı müxtəlif fəaliyyətlərdir ki, bu da onları adət-ənənələr, mədəniyyət xüsusiyyətləri ilə tanış edir. Beynəlxalq tələbələr bu fəaliyyətlərdə iştirak etsələr, adaptasiyalarının daha uğurlu olacağına inanırlar. Sorğuda iştirak edənlərin 89%-i bu fikirlə razılaşıb. Bu həm də göstərə bilər ki, bu fəaliyyətlər eyni zamanda beynəlxalq tələbələr üçün həm cəlbedici, həm də koqnitivdir [8, s. 52].

Respondentlərin 93%-in cavabına əsasən onların yaşayış yeri əsasən tələbə yataqxanasıdır. Yataqxanalarda yaşayanların yalnız 20%-i hər şeydən razıdır, 58%-nin əksəriyyəti yataqxanada yaşamağı xoşlayır, ancaq bununla birlikdə oranın çatışmazlıqları olduğunu bildirirlər və tələbələrin 22%-i yataqxanada yaşamağı sevmir, amma orta standarta görə yaşamaqdan başqa seçimləri yoxdur. Respondentlərin 49%-nin yarısından azı yaşayış şəraitinin keyfiyyətini qənaətbəxş hesab edib və daha yaxşı olmasını arzulayıb. Sorğunun nəticələrinə görə, əcnəbi tələbələr ən çox ticarət mərkəzlərindədir (92%), tələbələrin 78%-nin dediyi kimi digər ən çox ziyarət edilən yer kinoteatrdır, daha sonra restoran və kafeləri (37%), ən sonda isə gecə klublarını qeyd ediblər (20%). Milli mədəniyyət mərkəzlərini ziyarət edib-etmədiklərini soruşduqda, əcnəbi tələbələrin 78%-i getdiyini və ya bəzən getdiyini, qalan 22%-i isə getmədiyini bildirib. Anket ənənələr mövzusunu da əhatə edib: sorğunun nəticələrinə görə, beynəlxalq tələbələrin yalnız üçdə biri adət-ənənələrə ümumiyyətlə riayət etməyib, respondentlərin əksəriyyəti əsasən dini ənənələri və ya milli ənənələri əsas gətirərək öz adət-ənənələrinə riayət etməyə çalışır və ya onlara daim riayət edir. Bunlara misal

olaraq, öz ölkələrinin bayramlarını misal göstərmək olar. Xaricdə təhsil alan tələbələrin bildirdiklərinə əsasən, universiteti bitirdikdən sonra hər üç tələbədən biri öz ölkəsində işləmək, hər beş nəfərdən biri başqa ölkəyə köçmək, dörddə biri isə təhsil aldığı ölkədə işləmək istəyir [10, s. 101].

**Nəticə**

Ali təhsil müəssisəsində təhsil prosesi gəncin peşə təcrübəsi toplaması və peşə fəaliyyətinin əsaslarını mənimsəməsi ilə bağlı həyat fəaliyyətinin xüsusi mərhələsidir. Peşəkar fəaliyyətə girmək gəncdən təkcə peşəkar fəaliyyət vasitələrini mənimsəməyə yönəlmiş davamlı səyləri deyil, həm də bütövlükdə özünüdərk və şüurun yenidən qurulmasını tələb edir. Gənclər ali təhsil aldıqları müddətdə, xüsusən də başqa ölkədən gəlmişlərsə, uyğunlaşma ilə bağlı müxtəlif problemlərlə üzləşə bilərlər. Bunlara, yeni şəraitə, yetkinlik həyatına və başqa ölkənin adətlərinə öyrəşmək kimi amillər aiddir. Bu problemlərin həlli həm daxili özünütəşkilat, həm də universitetin, müəllimlərin, sinif yoldaşlarının, kuratorların və uyğunlaşma prosesinin uğurunun asılı olduğu digər fənlərin köməyini tələb edir.

Əcnəbi tələbələr üçün sənaye və şərtlər kifayət qədər rəqabətə davamlı olmalıdır ki, bir tərəfdən beynəlxalq tələbələrin təhsil alması üçün əlverişli şərait yaradılsın, digər tərəfdən isə qiymət baxımından kifayət qədər adekvat olsun, çünki xarici ölkələrə təhsil almağa gedənlərin əksəriyyəti gənclərdir. Bura iqtisadi inkişaf səviyyəsi aşağı olan ölkələrdən olan insanlar da aiddir. Dünyanın müxtəlif ölkələrindən gələn nümayəndələrin ümumi elmi fənlərdən bilikləri mənimsəməsinin zəruri şərti onların mentalitetini, psixoloji vəziyyətini və milli şüurunun digər xüsusiyyətlərini nəzərə almaqdır. Göstərilən problemlərin uçotu, proqnozlaşdırılması və layihələndirilməsi təhsil məqsədlərini obyektiv şəkildə formalaşdırmağa, müxtəlifləşdirməyə və onların həlli strategiyasını hazırlamağa imkan verir. Əcnəbi tələbələrin problemlərinə kifayət qədər diqqət yetirilməməsi sosial gərginliyin artmasının, ksenofobiyanın təzahürünün, eləcə də milli nifrət ideyalarının yayılmasının səbəblərindən birinə çevrilə bilər. Ona görə də bu istiqamətdə həm qanunvericilik, həm ictimai səviyyədə, həm də hər bir konkret universitet səviyyəsində işləmək vacibdir.

**İstifadə edilmiş ədəbiyyat:**

1.Akhtar, M. & Kroner-Herwig, B. (2015). Acculturative Stress Among International Students in Context of Socio-Demographic Variables and Coping Styles. Current psychology, 34 (4), pp.803- 815.

2.An, R. & Chiang, S. Y. (2015). International students' culture learning and cultural adaptation in China. Journal of multilingual and multicultural development, 36(7), pp. 661-676.

3.Boura, L.V. (2012). Characteristics of the external and internal factors affecting the process of students’ adaptation in the new social situation of development // Innovative technologies in education: the materials of the VIII International Scientific Conference "Innovative technologies in education", 27-29 September 2012, Yalta. Collection of articles. Yalta: RWUZKGU.

4.Brisset, C., Safdar, S., Lewis, J. R., & Sabatier, C. (2010) // Psychological and sociocultural adaptation on university students in France: The case of Veitnamese international students. International Journal of Intercultural relations, 34(4), pp.413-426.

5.Glass, C. R., Gómez, E., and Urzua, A. (2014). // Recreation, intercultural friendship, and international students’ adaptation to college by region of origin. International Journal of Intercultural Relations, 42, 104-117.

6.Khanmurzina, R.R., Cherdymova, E.I., Guryanova, T.Yu., Toriia, R.A., Sukhodolova, E.M. & Tararina, L.I. (2020). Computer Games Influence on Everyday Social Practices of Students-Gamers // Contemporary educational technology, 11(1), pp.11-19.

7.Lee, J. and Ciftci A. (2014). Asian international students’ socio-cultural adaptation: Influence of multicultural personality, assertiveness, academic self-efficacy, and social support // International Journal of Intercultural Relations, 38, pp.97-105

8.Mukan, N., Yaremko, H., Kozlovskiy, Yu., Ortynskiy, V., & Isayeva, O. (2019). Teachers‟ continuous professional development: Australian experience // Advanced Education, 12, pp.105–113.

9.Olkhovaya, T.A., Merculova, L.V., Cherdymova, E.I., Sukhodolova, E.M., Manakova, O.S., Laptev, A.A. & Popova, O.V. (2019). The biomedical research on peculiarities of student's communicative skills development // International Journal of Advanced Biotechnology and Research, 10(1), pp.101-110.

10.Ozer, S. (2015). Predictors of international students' psychological and sociocultural adjustment to the context of reception while studying at Aarhus University, Denmark // Scandinavian journal of psychology, 56(6), pp.-725.

11.Pushkarev, V.V., Cherdymova, E.I., Prokopyev, A.I., Kochurov, M.G., Shamanin, N.V., Ezhov, S.G., Kamenskaya, S.V. & Kargina, N.V. (2019). Motivation and needs in the area of the spouses with different experiences of cohabitation // Dilemas contemporáneos: Educación, Política y Valores, 6(41), pp.246-252

12. Şükürov A.M. (2002). Qloballaşma: mahiyyəti və perspektivləri. Bakı: Təknur, 2001, 170s.

13.Zhang, J., & Goodson, P. (2011). Predictors of international strudents psychosocial adjustment to life in United States: a systematic review // International Journal of Intercultural Relations, 35(2), pp.139-162.

**Türkan Nəcəfova**

**XARİCDƏ TƏHSİL ALAN TƏLƏBƏLƏRİN UYĞUNLAŞMA PROBLEMLƏRİ**

**Summary**

The relevance of this article is that more and more modern universities are interested in internationalization because they are trying to be recognized at the international level. In addition, more and more future students from different countries have the opportunity to choose the universities and countries in which they want to study. At the same time, the attraction of international students to universities is related to the problem of their adaptation to new conditions, and this is a rather important task facing the universities of the world. The purpose of the study is to study the features of adaptation of foreign students to the socio-cultural environment of education in world universities, as well as to determine the problems faced by students while studying in world universities. As a research method, we used a questionnaire survey as a method that allows for a quick and efficient investigation of the characteristics and problems that arise during the adaptation of international students. Research results: the article deals with the social and communicative adaptation of international students studying in foreign universities. Features of adaptation process in representation of international students in world universities are described. The novelty and originality of the research is that the main factors influencing the choice of adaptation of foreign students are taken into account.

**Keywords:** *student, social adaptation, migration, education*

**Türkan Nəcəfova**

**XARİCDƏ TƏHSİL ALAN TƏLƏBƏLƏRİN UYĞUNLAŞMA PROBLEMLƏRİ**

**Резюме**

Актуальность данной статьи заключается в том, что все больше современных университетов заинтересованы в интернационализации, так как стремятся получить признание на международном уровне. Кроме того, все больше и больше будущих студентов из разных стран имеют возможность выбирать университеты и страны, в которых они хотят учиться. В то же время привлечение иностранных студентов в университеты связано с проблемой их адаптации к новым условиям, а это достаточно важная задача, стоящая перед университетами мира. Целью исследования является изучение особенностей адаптации иностранных студентов к социокультурной среде обучения в мировых университетах, а

также определение проблем, с которыми сталкиваются студенты при обучении в мировых университетах. В качестве метода исследования мы использовали анкетирование как метод, позволяющий быстро и эффективно исследовать особенности и проблемы, возникающие в процессе адаптации иностранных студентов. Результаты исследования: в статье рассматривается социально-коммуникативная адаптация иностранных студентов, обучающихся в зарубежных вузах. Описаны особенности процесса адаптации в представительстве иностранных студентов в университетах мира. Новизна и оригинальность исследования заключается в том, что учитываются основные факторы, влияющие на выбор адаптации иностранных студентов.

**Ключевые слова:** *студент, социальная адаптация, миграция, образование.*

**Sahə redaktoru: Tünzalə Verdiyeva**, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**UOT 364.044.2**

# YENİ NƏSİL CƏMİYYƏT, QLOBAL ÇAĞRIŞLAR VƏ SOSİAL ELMLƏR

**Üzeyir Şəfiyev***

Məqalə redaksiyaya daxil olmuşdur: 13 *iyul 2022; çapa qəbul edilmişdir: 15 iyul 2022; onlayn çap edilmişdir: 30 oktyabr 2022*

Received: *13rd of August, 2022; accepted: 15th of Jule, 2022; published online: 30th of October, 2022*

**Xülasə:**

Təqdim olunan məqalədə müasir sosial transformasiya şəraitində sosial elmlərin qarşısında duran vəzifələrdən bəhs edilir, qeyd olunur ki, yeni çağrışlara cavab verə biləcək sosial sahə mütəxəssislərinə ehtiyac vardır.Burada həmçinin vurğulanır ki, internetin sosiallaşma institutu kimi səmiyyət həyatına etdiyi ikili təsir (konstruktiv və destruktiv) sosial tədqiqatlar vasitəsilə araşdırılaraq preveniv sosiomühəndis layihələrlə tənzimlənməlidir.Məqalədə sosial şəbəkə və digər internet resurslarının cəmiyyətin bir sıra sahələrinə, o cümlədən ailə təsisatına, onun mahiyyətinə, xarakterinə, dayanıqlığına təsiri qeyd olunur, bildirilir ki, yeni reallıq adaekvat yanaşma tələb edir. Məqalədə xüsusi vurğulanır ki, cəmiyyət və insan həyatının digər sahələrində baş verən dəyişikliklərə də sosial elmlər və psixologiya eyni məsuliyyətlə sosial mühəhdis layihələrlə sonuclanan araşdırmalar aparmalıdır, transformasiyalardan irəli gələn çağrışlara cavab verməlidir. Bunun üçün ilk növbədə bu sahə mütəxəssislərinin təkmilləşdirilməsinə və yenidən hazırlığına xüsusi ehtiyac vardır.

**Açar sözlər:** *millenniallar, sosial transformasiya, rəqəmsal sosial mühit, sosiallaşma, sosial mühəndislik, inklüziv cəmiyyət*

Artıq üç on illikdir ki, sosial zaman ritmi və sürrətində yüksəktezlikli transformasiyalarla başbaşayıq. Açıq etiraf etmək lazımdır ki, istər sosial elmlər, istərsə də psixologiya sürətdə, bu dəyişiklik tempilə ayaqlaşmada təngnəfəslik yaşmaqdadır.Biz artıq qəbul etmək zorundayıq ki, kürəsəl səviyyədə, eləcə də hər bir cəmiyyətdə sosial xarakterdə əsalı dəyişmə meyilləri gerçəkdir.Cəmiyyətdə baş verən sosial hadisələrin təbiəti və xarakterində də əsaslı dəyişikliklərin şahidiyik.Əlbəttə, bu dəyişikliklər yeni sosiallaşma agenti olan virtual təsir təsisatlarının, özəlliklə də internetin yaratdığı reallıqlardır. Yaxın on illiyin əsas istiqamətlərindən biri internetin yaratdığı yeni iri rəqəmsal icmalar reallığıdır. Məlumdur ki, internet dünyaya hər kəslə və hər yerdə ünsiyyət qurmağa imkanlar bəxş edib. Bununla yanaşı, internet öz unikal rolunu tapmaq istəyən insanlar üçün bəlli problemlər də yaradıb. Milyardlarla insan artıq bir-birindən uzaqlaşaraq ancaq internet vasitəsilə əlaqə qururlar. Asanlıqla proqnozlaşdırmaq olar ki, yaxın onillikdə rəqəmsal mühit dəyişəcək, istifadəçilərə yaxınlıq hissini qaytaracaq kiçik cəmiyyətlər populyarlıq qazanacaq, yaxın illərdə rəqəmsal sosial mühit əsas diqqəti şəxsi ünsiyyətə və kiçik icmalara yetirəcək. Bununla da yaranmaqda olan yeni reallıqlar fonunda bir sıra həlli vacib məsələlərin tənzimlənməsi zəruri olur.

Əsas problemlərindən biri budur ki, internetin köməyi ilə yaradılan bu yeni iri rəqəmsal icmaları necə idarə etmək olar? Bu icmalar üçün yeni özünütənzimləmə alətləri fikirləşmək, prosesi tənzimləmək elmi icimaiyyət qarşısında məsul vəzifələr qoyur. O da riyazi dəqiqliklə proqnozlaşdırılandır ki, yaxın 10 ilin sonuna qədər milleniallar (80-ci illərin axırlarında - 90-cı illərin əvvəllərində doğulmuş nəsil) getdikcə daha çox idarəetmə prosesində əsas aktora çevriləcəkdir. Bəli, məhz internet dövründə böyüyən nəsil tezliklə dünyanın taleyini həll edəcək və bəşəriyyətin ümumi inkişaf istiqamətini müəyyənləşdirəcəkdir. Deməli, gecikmədən rəqəmsal icmaların idarə edilməsi yollarının dəyişmələri haqqında düşünmək labüddür. Bu isə öz növbəsində

* *Bakı Dövlət Universitetinin Sosial iş kafedrasının müdiri, dosent*
*E-mail: uzeyirshafiyev@gmail.com*

sosioloq və sosial işçilər üçün yeni çağrışları gündəmə gətirir. Əslində təkcə bu məsələ ilə bağlı deyil, cəmiyyət həyatında baş verən digər dəyişikliklərlə də bağlı sosioloqların araşdırmaları, sosial mühəndis təşəbbüsləri tarixən mövcud olmuşdur.

Hələ 20-ci əsin 30-cu illərində psixologiya və statistikanın qabaqcıl metodlarından istifadə edərək siyasət elmini yeniləmək vəzifəsini qarşısına məqsəd qoyan, sosial münaqişələrdən qaçmaq üçün sosial siyasətin elmi əsasını hazırlamaq istəyi olan Çikaqo Siyasi Məktəbinin banisi və yaradıcısı Çarlz E. Merriam yeni insanlıq quracaq sosioloqların nəzarətində bir "cəsur yeni dünya" düşünürdü. (Sosial Elmi Tədqiqat Şurasının qurucusu, bir neçə ABŞ prezidentinin məsləhətçisi olmuş Çarlz Edvard Merriam insani inkişaf və təkamülü istiqamətləndirmək üçün sosial nəzarət və sosial mühəndisliyin ilk müjdəçilərindən biri hesab edilir). Siyasəti sosial elm şərtlərində yenidən müəyyən edən Merriama görə, yeni dünyada bu anlayış insan təkamülünə şüurlu nəzarəti ehtiva etməli idi. O, inanırdı ki, texnologiya "beynəlmiləl məhkumiyyətlər" yaradacaq, elmin yeni dünyası ümumbəşəri miqyasda təbiət üzərində hökmran olacaq varlıqların yeni qövmünü ortaya çıxaracaqdır.

Merriam bildirirdi ki, psixoanaliz də effektiv sosial nəzarətdə bir rola sahibdir, gələcəkdə fərdlərin və böyük insan qruplarının bio-mühəndisliyində sosial psixologiyanın köməyi ilə biokimya da iştirak edəcək. Uşaq davranışlarının öyənilməsi bir sosial tədqiqatçıya gələcək vətəndaşın davranışlar və maraqlarını müəyyən etməyə imkan verəcək.

dövlətini əsla görmək istəmirdi. Bu həm də, SSRİ-nin Çinlə münasibətlərini yaxşı vəziyyətdə tutması və iqtisadi-siyasi maraqlarını daha münasib şəkildə təmin etmək siyasəti ilə əlaqədar idi.

Çinin mərkəzi hakimiyyətinin baş verə biləcək təzyiqlərinə, yaxud silahlı müdaxiləsinə qarşı dura bilmək üçün Şərqi Türküstan Respublikasının prezidenti Xoca Niyaz SSRİ-dən silah almaq istəyir və bu məqsədlə Sovet rəsmi şəxsləri ilə müvafiq danışıqlar aparırdı.

1934-cü ilin fevralında Dunqan qoşunları Qomindan hökuməti (GMD) adından Kaşqar şəhərini tutdular, minlərlə sakin öldürüldü, şəhər qarət edildi. Respublikanın liderləri hökuməti Yeni Hisara köçürə bilmişdilər, lakin Dunqan qoşunları həmlə ilə oranı da aldılar. Baş nazir sabit Damullah Yarkəndə sığındı, amma Abdullah Buğra ələ keçirilib edam edildi. Başını kəsib Kaşqarın əsas məscidindən nümayiş etdirməyə götürdülər. Xoca Niyaz SSRİ sərhəddində danışıqlarda olduğundan ələ keçmədi. Bu hadisələrdən sonra o istehfa etdiyini açıqladı və Baş nazir Sabit Damullahdan da hökuməti buraxmağı istədi. Sabit Damullah etiraz etdiyinə görə Xoca Niyaz 16 aprel 1934-cü ildə adamları ilə Yeni Hisara gəlib onu həbs etdi və onu yerli Çin rəhbərliyinə təhvil verdi. Həmin ilin iyulunda onlar da Baş naziri və ticarət naziri Satıbaldı Xanı dar ağacından asaraq edam etdilər. Minlərlə mücahid məhv edildi. Bəzi məlumatlara görə Şərqi Türküstanda həyata keçirilən cəza əməliyyatlarında təkcə ruslar tərəfindən 200 mindən artıq müsəlman öldürülmüşdü (3, s.322). Bu da Şərqi Türküstan Respublikasının faciəli sonu oldu.

Şərqi Türküstan Respublikası süquta uğradıldıqdan sonra Şenq Şikai (Sheng Shicai) bütün Sincana rəhbərlik etməyə başladı. O, ilk növbədə Sovet İttifaqı ilə əlaqələri sıxlaşdırdı. Qeyd etmək lazımdır ki, SSRİ hökuməti bu əlaqələrdə olduqca maraqlı idi, çünki Sincana ucuz işçi qüvvəsi və xammal mənbəyi kimi baxılırdı və bu bölgədə möhkəmlənmək üçün Şenqə 7,5 milyon rubl kredit ayrıldı. Bu zamanlar Çinin çox zəif olan mərkəzi hökuməti onsuz da bu ucqar və nəhəng bölgəni təmin etməkdə ciddi çətinlik çəkirdi və yerli idarəçiliyə müəyyən qədər fəaliyyət azadlığı verilmişdi. Daim yaponlardan gözlənilən təhlükə qarşısında Çin hökuməti qonşu SSRİ-ni potensial müttəfiq kimi görürdü, eyni zamanda Sovet təsirinin ölkədə, xüsusilə bu həssas bölgədə bərqərar ola biləcəyindən ehtiyat edirdi. Amma bölgənin idarəçisi olan, Şərqi Türküstan Respublikasının süqutundan sonra öz yerini möhkəmləndirən Şeng Şikai sovetlərə, kommunist hərəkatına dərin rəğbət bəsləyirdi və onun üçün sosializm ideyaları daha cəlbedici görünürdü.

Tezliklə, SSRİ burada mədən sənayesinə, neft ehtiyatlarına daha çox əhəmiyyət verməyə başladı, bölgədə öz hərbi-siyasi güçünün möhkəmlənməsinə nail oldu. Qumul şəhəri yaxınlığında aerodrom açdı və 3 minlik qoşun yerləşdirdi. Sincan SSRİ-nin artıq satellitinə çevrilirdi. Burada birçox rayonlarda və yaşayış məntəqələrində Sovet idarəetmə sistemi qurulurdu, Sovet Orta Asiyasından gələn mühacir türk və çin mənşəli məmurlar iş başına gətirilirdi. Çox saylı tələbələr SSRİ-yə təhsil almağa göndərilirdi. Daşkənddə təhsil alıb Sincana dönən uyğurlara "Taşkentçilər" deyirdilər [2, p.259].

1934-cü ilin iyununda Şeng-Sitsai 1933-cü ilin aprelində qubernator Çini Sovet qoşunlarının köməyi ilə devirildi. O, sovetyönlü qubernator kimi Stalinə məktub yazıb Sincanın və bütövlükdə Çinin nicat yolunun marksizm, sosializm və Sovet sistemi olduğunu bəyan etdi. Stalin Urumçidəki Sovet Konsulu Garegin Apresova təlimat verdirmişdi ki, Şengə başa salsın ki, Sovet İttifaqı Sincanın sovetləşdirilməsini təhlükəli hesab edir və belə bir fikir ya plan yoxdur. Çünki, SSRİ Çinin ərazi bütövlüyünü tanıyır və hörmət edir. Amma Şenglə əməkdaşlıq ediləcək və lazımi yardımlar göstəriləcəkdir.

Şeng sovet stilli mədəniyyət siyasəti yeridirdi. "Şərqi Türkistan Qəzeti"ni "Yeni Həyat" adı ilə davam etdirib onu sovet təbliğat orqanına çevirdi. Bəyan edilirdi ki, Sincanda yaşayan bütün xalqlara: uyğur, han, monqol, dunqan, qırğız, qazax bərabər hüquqlar verilir. O, Sincan Xalq Antiimperialist İttifaqı deyilən təşkilat qurdu. Urumçidə Xalq Nümayəndələri Konqresi keçirdi. Uyğur adı rəsmi sənədlərə daha 13 etnik mənsubiyyətlə bərabər türkdilli oturaq əhalinin adı kimi keçirdi. Bu əslində bölgənin köklü xalğını – uyğurları (türkləri) digər xalqların içərisində əritmək niyyəti idi. Uyğur Ziyalılar Cəmiyyəti təsis olundu, o cümlədən, qazax və monqol ziyalı cəmiyyətləri də quruldu. Uyğurca *Shing Jang qaziti* çıxarıldı.

1937-ci ildə Şengin Sovet siyasətinə qarşı Kaşkarda böyük etiraz nümayişi keçirildi. Yarkənddə, Yangiserdə sovet adamları və sovetyanlı yerlilərə divan tutuldu. Müdaxilə üçün yaranan fürsətdən istifadə edən Sovetlərin Qırğızıstandakı qoşunları hücüm edib qısa zamanda Kaşkarı, Yarkəndi, Yangisarı, Xotanı işğal etdilər. Bu işğal zamanı bölgədə 80 min adamın qətl edildiyinə dair məlumatlar yayılmışdı, ən çox qətlama uğrayan türklər və dunqanlar idi. Beləliklə, Sovetlər bütün Sincanda öz mövqelərini daha da möhkəmləndirmiş oldular. Yaranmış əlverişli vəziyyətdən istifadə edən Şeng siyasi polisi minlərlə türkü "pantürkist", imperalistlərin casusu adı ilə məhv etdi. Hətta Şengə xidmət edən, onun müavini sayılan Xoca Niyaz da "yapon agenti" kimi edam edildi.

1938-ci ildə Şeng Moskvada Stalinlə görüşdü. Onun çoxdankı Sovet İttifaqı Kommunist Partiyasına daxil olmaq istəyi təmin edildi. Bu arada Yaponiyanın Çinə hərbi təcavüzü SSRİ ilə Yaponiya arasında bufer rol oynayan Sincanın strateji əhəmiyyətini daha da artırmış oldu.

SSRİ-nin II Dünya müharibəsinə qoşulması bütün sovet Orta Asiyasında olduğu kimi, tarixi Türküstan xalqlarının taleyinə də təsirsiz ötüşmədi. Müharibənin ilk aylarındakı məğlubiyyətlər, yüz minlərlə sovet adamının əsir götürülməsi alman rəhbərliyində SSRİ əleyhinə müxtəlif xalqların Legion qüvvələrinin təşkil edilməsi ideyası doğurdu. Bunlardan biri də Türküstan Legionu oldu. Almanlar 1917-1918-ci illərdə qısa müddət fəaliyyət göstərmiş Türküstan muxtar hökumətinin başçısı olmuş Mustafa Çoqaya, 1922-1923-cü illərdəki Buxara Respublikasının Almaniyaya təhsil almağa göndərdiyi Qayum Xana maraq göstərirdilər. 1941-ci ilin dekabrında M.Çoqayın Berlində vəfatından sonra almanlar 13 yanvar 1942-ci ildə Qayum Xanın başçılığında Türküstan Milli Birlik Komitəsi (TCVU) qurdular. "Milli Türkistan" jurnalı nəşr edildi. Legionda silahlı qüvvələrin sayı 180 min nəfərə çatdırıldı [2, p.276].

Yaranmış yeni beynəlxalq şəraitdə Sincanda 1944-cü ilin iyulunda Əli Xan Törənin başçılığında bir qrup azadlıqsevər üsyançının çinlilərə qarşı başladığı hərəkat böyüyərək kütləvi xarakter aldı və Han qarnizonları bölgənin Nilka, Gülcə (Ghulja), İli, Altay və Tarbağatay rayonlarından çıxarıldı. 1944-cü il avqustun 7-də Gülcədə üsyançılar Şərqi Türküstanda Respublika qurulduğunu elan etdilər və Əlixan Törə cümhur başqanı seçildi. Altay xalqının öndəri Osman Batır və bəzi digərləri bu cümhuriyyətin tərkibinə keçdilər [3 s.327].

Şərqi Türküstan Respublikası hökumətində tanınmış din xadimləri, tacirlər, torpaq sahibləri, qabaqcıl ziyalılar təmsil olunurdular. Hökumətə nüfuzlu din xadimi Əlixan Türə Şakircanov (Alikhan Tora Shakirjanov - özbək əsilli idi, 1985-ci ildə vəfat etmişdir) başçılıq edirdi. Lakin o islam üləmasından daha çox türklük ideyasını daşıyan millətçi islamçı idi və Birinci Respublika dönəmində də fəal rol oynamışdı. SSRİ-yə mühacirət etmiş, orada "antisovet fəaliyyətinə" görə həbs edilmişdi... O, Urumçidə ABŞ konsulu ilə görüşdə deyirdi ki, şükür olsun Allaha ki, onun köməkliyi ilə Türküstanda İslam Hökuməti qurulub və biz Çin istismarçılarının zülmündən azad olanadək silahı yerə qoymayacaq, ata-babalarımızdan bizə miras qalan ana yurdumuzu qoruyacağıq.

Bu Respublika mahiyyətçə Birincidən fərqlənirdi. Əvvəla, əvvəlki kimi Altışəhərdə deyil, İli bölgəsinin Gülcə şəhərində elan edilmişdi. Birinci Respublikanı SSRİ qəbul etmədiyi halda, İkinciyə tam dəstək verirdi. Birinci Respublika cəmi 3 ay yaşamışdı, II Respublika isə təqribən beş il öz mövcudiyyətini saxladı. Bu hökumət torpaq islahatı keçirdi, öz idarəetmə sistemini, valyutasını, silahlı qüvvələrini və nəzarət etdiyi bölgələrdə öz suverenliyini təmin edə bildi. Bu, əlbəttə, II Dünya müharibəsinin bölgədə yaratdığı geosiyasi vəziyyətlə əlaqəli idi.

O zaman Şərqi Türküstanda 4 milyon əhali var idi və Çin hökuməti buraya Han nəslindən 1 milyon əhali köçürməyi planlamışdı. 100 minlik ordu yerləşdirmək və sovet təsirini və mövcudluğunu bölgədən yox etmək, ABŞ və Böyük Britaniyanı dəvət etmək, Urumçidə onların konsulluqlarını açmaq bu niyyətlə edilirdi. Təbii ki, Çinin millətçi Qomindan (GMD) hökumətinin bu siyasəti Şərqi Türküstanın yerli türk xalqını ciddi narahat edirdi.

Sovet İttifaqı Şərqi Türküstanın qeyri-Çin mənşəli xalqlarına (uyğur, qazax, qırğız, monqol və s.) hərbi, siyasi, ideoloji yardım edir, bölgədə Çin hakimiyyətini zəiflədib yox etmək üçün hər cür hərəkətlərə əl atırdı. Bu həmin xalqların milli-azadlıq hərəkatına dəstək kimi şərh edilirdi. Lakin, Yalta konfransında (4-11 fevral 1945) Alman faşizminin məhv edilməsindən sonra SSRİ-nin

Yaponiya ilə müharibəyə girmək öhdəliyi Çinin mərkəzi hakimiyyəti ilə münasibətləri yaxşılaşdırmağı tələb edirdi.

Əlbəttə, SSRİ-nin dəstək verməsi Şərqi Türküstanın çinli olmayan xalqını ruhlandırır və Çin hökuməti qarşısında onların müqavimətini gücləndirirdi. Onların lideri Sovet İttifaqına sığınmış Əlixan Tora ümid edirdi ki, bütün Şərqi Türküstanı Çin hakimiyyətindən azad etmək mümkün olacaq. O, Stalinə məktubunda ona "bütün xalqların mədəniyyətlərinin və hüquq bərabərliyinin yaradıcısı və Sovet İttifaqının böyük Lideri kimi" müraciət edirdi. Sovet komandanlığını bölgədə təcili hərbi əməliyyatlara başlamağa çağırırdı. Çin əsarətindən xilas yolunu Sovet ordusunun dəstəyində görürdü. Lakin, Stalin Çinlə 1945-ci ilin avqustunda "Dostluq və Müttəfiqlik Müqaviləsi" imzalayandan sonra Şərqi Türküstana hərbi müdaxilə ilə yardım etmək fikrində deyildi.

Mərkəzi Çin hökuməti Sincanı bir türk respublikası kimi görmək niyyətində deyildi və öz planını həyata keçirmək üçün əlverişli zamanı gözləyirdi. Elə həmin ilin sentyabrında Çin hökuməti Şərqi Türküstan problemini sülh yolu ilə həll etmək üçün təkliflərini verdi . Məsələnin dinc yolla həllinə SSRİ də olduqca maraqlı idi və Sovet yetkililəri həm vasitəçilik edirdilər, həm də çoxsaylı müşavirlərindən istifadə edərək bölgədə öz təsir gücünü qoruyub saxlamağa çalışırdılar. 1945-ci ilin yayında Şərqi Türküstan nümayəndə heyəti Əhmədcan Qasımінin başçılığı ilə Çin hökuməti ilə danışıqlara getdi. Əslində, yaranan yeni vəziyyət bundan başqa yol qoymurdu.1945-ci ilin oktyabrında GMD hökuməti ilə sülh danışıqları başladı. Şərqi Türküstan nümayəndə heyəti ilə Çan-kay-şi hökumətinin nümayəndələri arasında 14 oktyabr 1945-ci ildə başlanan müzakirələr fasilələrlə uzun müddət davam etdi və nəhayət 12 iyul 1946-cı ildə 12 maddəlik bir Razılaşma ilə tamamlandı.

Əldə edilən Razılaşmaya görə 1946-cı ilin martında Zhang Zhizhong Sincanın qubernatoru təyin edildi. Razılaşmaya uyğun olaraq əyalətdə 25 nəfərlik hökumət təşkil olunurdu, onlardan onunu, o cümlədən hökumətin sədrini mərkəzi hökumət təyin edirdi, qalan 15-ni rayonlar seçirdi. Bundan sonra Çinin Sülhü Qoruyan Korpusu rayonlara yerləşdirildi. Ağsu və Kaşqarda bu qüvvələr müsəlmanlardan təşkil olunmalı və müsəlman zabitlərinin komandanlığında olmalı idi. Razılaşmada əyalətdə yerli seçkilərin keçirilməsi, din azadlığı, hökumət işlərində, təhsildə və iş həyatında yerli dillərin istifadəsi təsbit edilirdi. Hökumətdə yalnız 6 üzv Han sülaləsinə aid olmalı idi. Hökumət başçısı Zhang, müavinləri isə müsəlmanları təmsil edən Bürhan Şəhidi və Qasimi olacaqdı. Amma bu Razılaşma heç vaxt həyata keçirilmədi. Belə olduqda Şərqi Türküstan Gənclər Liqası Çin daxilində muxtariyyət tələbini yenidən qaldırdı. Qubernatordan Çin hərbi qüvvələrinin əyalətdən çıxarılması tələb olunurdu. Urumçidə (Ürümchi) 1947-ci ilin fevralında davamlı mitinqlər keçirildi və Razılaşmaya əməl olunması tələbi irəli sürüldü. Artan təzyiqlər qarşısında qubernator Zhang türk dilini əyalətin rəsmi dili kimi tanıdığını bildirdi, məktəblərdə yerli xalqın tarixinin tədrisinə icazə verildi. "Şərqi Türküstan" ifadəsinin rəsmi mətbuatda işlədilməsinə də icazə verildi. Kaşqar yaxınlığında Yengisardan (Yeni Hisar) bir bəy oğlu olan, mədrəsədə və Çin məktəbində təhsil almış, Əndicandakı (Özbəkistan-SSRİ) Sincan konsulluğunda altı il tərcüməçilik etmiş İsa Yusuf "Altay" nəşriyyat evini və "Erk" (Azadıq) qəzetini təsis etdi. İ.Qaspiralının cədidçi "Dildə, fikirdə və əməldə birlik" şüarı ilə yanaşı qəzetdə belə bir bəyaniyyə yer alırdı: "Biz millətçiyik. Biz demokratıq. Biz insanpərvərik. Bizim irqimiz (kökümüz, mənşəyimiz – E.M.) Türkdür. Bizim dinimiz İslamdır. Bizim Vətənimiz Türküstandır" [2, p.294].

O zaman İsa Yusuf, birinci Respublikanın Lideri olmuş Mehmed Emin Buğra və Məsud Səbri GMD hökuməti ilə əməkdaşlıq etməklə Çin daxilində Şərqi Türküstana muxtariyyət qazanmağa ümid edirdilər. 1945-ci ildə hökumət bu üç şəxslə ("üch apandi"- üç əfəndi) əməkdaşlığa getməyi qəbul etmişdi. Əlbəttə, bu Çan Kayşi (Chiang Kai-shek) hökumətinin müvəqqəti taktiki addımı idi. Vahid Çin milləti iddiasında olan hökumət Şərqi Türküstan milləti ideyasını qəbul etməkdən çox uzaq idi.

Lakin bu üç əfəndi Şərqi Türküstanın türk millətinin mövcudluğunu təkid edir, müştərək türkcənin burada hakim olduğunu da əsas gətirirdi.

1947-ci ilin iyununda Mərkəzi hökumət qubernator Zanqı Məsud Səbri ilə əvəzlədi. O, ilk Şərqi Türküstanlı idi ki, Şərqi Türküstana rəhbərlik etməli və Mərkəzi hökumətin siyasətini həyata keçirməli idi. Əlbəttə, bu asan olmayacaqdı, çünki əyalətdə yerləşdirilmiş Han Qomindan (GMD) ordusu siyasi işlərə fəal müdaxilə edirdi. 1949-cu ilin yanvarında hökumət Məsud Səbrini azad edib onun yerinə Aksudan (Ağsu) tatar Burhan Şəhidini təyin etdi. Onun əsli indiki Tatarıstandan idi. Çində və SSRİ-də təhsil alan, hər iki ölkədə müxtəlif vaxtlarda yüksək vəzifələr daşıyan və sovetlərin yetirməsi və tərəfdarı olan B. Şəhidi Sincanın son respublika qubernatoru oldu. 1949-cu ilin sentyabrında B. Şəhidi Şərqi Türküstanı Çin kommunistlərinə təslm etməyə qərar verdi. Qeyd etmək lazımdır ki, Çində 1946-1949-cu illərdə çox yerdə vətəndaş müharibəsi davam etsə də, Şərqi Türküstanda bu baş verməmişdi. Çin kommunistlərinin Şərqi Türküstanı dinc yolla ələ keçirməsində SSRİ hökuməti də maraqlı idi və bu prosesə dəstək verirdi. Kommunist maoçular bu bölgənin üç rayonunda inqilabın qələbəsini elan etdilər. Avqust ayında kommunistlərin rəhbəri Mao Tze-dun Şərqi Türküstan nümayəndə heyətini Pekində keçiriləcək Xalq Milli Məsləhət Konfransında iştirak etməyə dəvət etdi. Beş nəfərlik heyət 15 avqust 1949-cu ildə Almataya yola düşdü ki, oradan da təyyarə ilə Pekinə uçsunlar. Nümayəndələr Çinin kommunist rəhbərliyindən verilməsi arzu olunan muxtariyyatın bütün əyaləti, ya da heç olmasa, üç vilayəti əhatə etməsini xahiş edəcəklərdi. Lakin, Almatada onların mindiyi təyyarə Pekinə çatmadı, avqustun 17-də elan edildi ki, həmin heyəti götürən təyyarə İrkutsk yaxınlığında qəzaya uğrayıb və sərnişinlərin də hamısı həlak olub. Pekin radiosu bildirdi ki, nümayəndə heyəti Mao Tzedunun rəhbərliyindəki yeni Çin hakimiyyətini təbrik etmək üçün Pekinə uçarkən təyyarənin qəzaya uğraması ilə həyatlarını itirmişlər.

Əlbəttə, Şərqi Türküstan Respublikası nümayəndələrinin həlak olması xəbəri məyusluq və ruh düşkünlüyü yaratdı. Bəziləri təyyarə qəzasında sovetlərin əlinin olduğunu deyirdi. Hər halda Şərqi Türküstanın yerli-köklü xalqı olan türklərin öz milli haqqlarına sahib olmaları yenə baş tutmadı. Mao Şərqi Türküstan Respublikasının üç vilayətində kommunist inqilabı rejiminin qurulduğunu elan etdi. 29 sentyabr 1949-cu ildə Çin kommunistləri Ürümçidə də iqtidarı ələ keçirib mərkəzi hökumətə tabe etdirdilər və Burhan Şahidini də kommunist hökumətinin valisi təyin etdilər [3, s.330].

Çində kommunistlərin qələbəsi Stalinin Şərqi Türküstana dair niyyətlərini dəyişdirdi. Əvvəllər Qomindan hökumətinə təsir göstərmək və sövdələşmək üçün Sincanda təsir imkanlarına malik olmaq lazım idi, indi isə Çində artıq kommunist hökuməti bərqərar olmuşdu. Sovetlər hətta Xalq Azadlıq Ordusunun (PLA) Sincanı tutmasına logistik köməyini də əsirgəmədi, Azadlıq Ordusu üçün min ton aviasiya yanacağı və on min ton buğda da göndərdi.

Vəziyyətin kəskin dəyişildiyini görən Şərqi Türküstan Respublikası liderlərindən İsa və Buğra öncə Hindistana, sonra isə oradan Türkiyəyə sığındılar. Amma, bundan sonra da Şərqi Türküstan Çin üçün “baş ağrısı” olaraq qalmaqda davam etdi.

Bundan sonra Çin Xalq Respublikası (ÇXR) tərkibində Mədəni İnqilab və İrəliyə Böyük Sıçrayış siyasəti Sincan adlandırılan bu qədim türk yurdunun etno-siyasi durumunu da dəyişməyə başladı. 1955-ci ildə Çin Xalq Respublikası Sincanın muxtariyyatını elan etdi. Bu yalnız sırf ərazi muxtariyyatı idi. Əzizi bununla əlaqədar demişdi ki, “muxtariyyat dağlara və çaylara deyil, ayrıca milliyyətlərə verilməlidir”. Bundan sonra Çin Kommunist Partiyasının rəhbəri Maonun göstərişi ilə bölgə Sincan Uyğur Muxtar Regionu adlandırıldı [4, p.199]. Sonrakı illərdə isə muxtar rayona çevrildi. Hökumətin həyata keçirdiyi demoqrafik siyasət nəticəsində bölgədə çinlilər çoxaldılar. Lakin 1996-cı ilin məlumatına görə bölgənin 17 milyon nəfər əhalisinin 41 faizini uyğurlar, 36 faizini hanlar (çinlilər), qalan 23 faizini də digər türk xalqları təşkil edirdi [4, s.482]. Maraqlıdır ki, uyğurların sayı 1987-ci ildə 6,68 milyon nəfər olmuşdu [5, c.1393]. Belə görünür ki, on il ərzində onların sayı çox çüzi artmış və 1996-cı ildə 6,97 milyon nəfər olmuşdur.

2019-cu ilin Çin İllik Statistik məlumatına görə Sincanın ümumi əhalisi 24 milyon 870 min nəfər, ərazisi isə 1.664.897 kv. kilometr təşkil edir [2, p.15]. BBC televiziyasının son məlumatlara istinad edərək verdiyi məlumata görə burada uyğurları sayı 10 milyondan artıqdır [7].

Bu rəqəmlərdən bir daha görünür ki, bu bölgə həm coğrafi, həm də demoqrafik siyasət baxımından Çin dövləti üçün mühüm əhəmiyyət kəsb edir.

**İstifadə edilmiş ədəbiyyat**

1.Oumilyev Lev, Qədim Türklər, Bakı, Gənclik, 1993. 536s.

2.Adeeb Khalid. Central Asia – A New History from the Imperial Conquests to the Present Princeton University Press, Princeton and Oxford, 2021, 576p.

3.Baymirza Hayit, Türkistan devletlerinin milli mücadileleri tarihi, Ankara, Türk Tarih Kurumu Basımevi, 1995. 448s.

4.Gardner Bovingdon, The Uyghurs: Strangers in Their Own Land, New York: Columbia University Press, 2010. 304p.

5.Jean-Paul Roux. Türklerin tarihi. Pasifik'ten Akdeniz'e 2000 Yıl, İstanbul, Kabalcı Yayınevi, 2007, 543s.

6.Советский Энциклопедический Словарь, Москва, «Советская Энциклопедия», 1989. 1632с.

7.BBC News, Sep 1, 2022 – Uyghur|History, Language, Facts. 48p.

**Эйнулла Мадатли**

**Вторая Республика в Восточном Туркестане и ее отношения с СССР**

**Резюме**

В годы Второй мировой войны, в новых международных условиях, движение, начатое группой свободолюбивых повстанцев в Восточном Туркестане (Синьцзяне/Синьцзяне) в 1944 г., разрослось и приняло массовый характер, ханьские гарнизоны были выведены из региона. 12 ноября повстанцы в Кульдже (Инин по-китайски) объявили о создании республики в Восточном Туркестане. Это была 11-я годовщина основания первой Республики в Кашгаре. В этом правительстве были представлены известные религиозные деятели, купцы, помещики, видная интеллигенция. Правительство возглавил влиятельный религиозный деятель Алихан Тора Шакирджанов. Но он был скорее националистическим исламистом, носившим идею тюркизма, чем исламским ученым, и играл активную роль во времена Первой Республики. СССР не принял Первую Республику, но полностью поддержал Вторую. Первая Республика прожила всего 3 месяца, а Вторая смогла просуществовать 5 лет. Это правительство провело земельную реформу, смогло установить свою систему управления, валюту, вооруженные силы и суверенитет в подконтрольных ему районах. Естественно, это было связано с геополитической обстановкой, созданной в регионе Второй мировой войной. Победа коммунистов в Китае изменила намерения Сталина в отношении Восточного Туркестана. Раньше, чтобы влиять и вести переговоры с гоминьдановским правительством, нужно было иметь влияние в Синьцзяне, а теперь в Китае уже установилось коммунистическое правительство. Советы даже оказали материально-техническую помощь Народно-освободительной армии Китая для захвата Восточного Туркестана. Таким образом, в сентябре 1949 года Восточно-Туркестанская Республика была вынуждена принять власть Китая. Надо отметить что, термин Восточно-Туркестанская республика не принят в китайской историографии и официальных исследованиях. Но уйгуры не забыли историю этих двух республик.

***Ключевые слова:*** *Восточный Туркестан, уйгуры, Советский Союз, Вторая мировая война, республика, Гоминдановское правительство Китая, Китайская Народная Республика*

**Eynulla Madatli**

**The Second Republic in Eastern Turkestan and its relations with the USSR**

**Summary**

During the Second World War, in the new international conditions, the movement started by a group of freedom-loving rebels in Eastern Turkestan (Sinkiang/Xinjiang) in 1944 grew and became massive, and the Han garrisons were withdrawn from the region. On November 12, rebels in Ghulja (Yining in Chinese) announced the establishment of a Republic in Eastern Turkestan. It was the 11th anniversary of the establishment of the first Republic in Kashgar. Well-known religious figures, merchants, landowners, leading intellectuals were represented in this government. The government was headed by the influential religious figure Alikhan Tora Shakirjanov. But, he was more a nationalist Islamist who carried the idea of Turkishness than an Islamic scholar, and he played an active role during the First Republic.

The USSR did not accept the First Republic, but it supported the Second one in full. The First Republic lived for only 3 months, and the Second one was able to function for 5 years. This government carried out land reform, was able to establish its own governance system, currency, armed forces and sovereignty in the regions it controlled. Naturally, this was due to the geopolitical situation created in the region by World War II. The victory of the Communists in China changed Stalin's intentions regarding Eastern Turkestan. Before, in order to influence and negotiate with the Guomindang government, it needed to have influence in Sinkiang, but now the communist government had already been established in China. The Soviets even provided logistical assistance to the People's Liberation Army of China to capture Eastern Turkestan. Thus, in September 1949, the Eastern Turkestan Republic was forced to accept the rule of China

The term Eastern Turkestan Republic is not accepted in Chinese historiography and official researches. But, the Uighurs did not forget the history of these two republics.

**Keywords:** *Eastern Turkestan, Uyghurs, Soviet Union, World War II, Republic, Guomindang (Kuomintang) Government of China, the People's Republic of China*

**Sahə redaktoru: Qasım Hacıyev**, tarix elmləri doktoru, professor

**UOT 94.(479.24)**

# MOSKVA MÜQAVİLƏSİ VƏ NAXÇIVAN

**Hacıfəxrəddin Səfərli***

Məqalə redaksiyaya daxil olmuşdur: 6 *sentyabr 2022; çapa qəbul edilmişdir: 10 sentyabr 2022; onlayn çap edilmişdir: 30 oktyabr 2022*

Received: *6th of September, 2022; accepted: 10th of September, 2022; published online: 30th of October, 2022*

**Xülasə**

Məqalədə Naxçıvana muxtariyyət statusu verilməsində çox mühüm addım olan Moskva müqaviləsindən bəhs edilir. Qeyd olunur ki, 16 mart 1921-ci ildə Sovet Rusiyası ilə Türkiyə arasında Moskva şəhərində imzalanan "Dostluq və qardaşlıq haqqında müqavilə"nin 3-cü maddəsi və I (C) əlavəsi Naxçıvanla əlaqədardır. Hətta əlavədə Naxçıvanın sərhədləri dəqiq müəyyən edilmişdir. Müqavilənin şərtlərinə əsasən hər iki tərəf (Rusiya və Türkiyə) qeyd olunan sərhədlər içərisində Naxçıvan vilayətini Azərbaycanın protektoratlığının heç bir zaman üçüncü dövlətə güzəştə getməyəcəyi şərti ilə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsindən razı olduqlarını bildirir. Beləliklə, Moskva müqaviləsi Azərbaycanın ərazi bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi.

**Açar sözlər:** *Moskva, Rusiya, Türkiyə, Azərbaycan, Naxçıvan, müqavilə.*

2021-ci ildə Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikasının yaradılmasında mühüm rol oynayan 3 mühüm hadisənin 100 ili tamam oldu. Belə ki, 2021-ci ilin yanvarında Naxçıvan bölgəsinin ərazi taleyi, onun Azərbaycanın tərkibində qalması və ya Ermənistana verilməsi ilə əlaqədar görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin təşkilatçılığı ilə Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin iştirakı ilə Naxçıvanda keçirilən və əhalinin 90 faizinin bölgənin Azərbaycanın tərkibində qalmasına səs verdiyi referendumun (ümumxalq səsvermənsinin) 100-cü ildönümü, martın 16-da isə Naxçıvana muxtariyyət statusu verilməsi istiqamətində böyük əhəmiyyət kəsb edən və bu sahədə ilk beynəlxalq sənəd olan Moskva müqaviləsinin imzalanmasının 100-cü ildönümü tamam oldu. Həmçinin həmin ilin oktyabr ayının 13-də isə Moskva müqaviləsini tamamlayan, muxtar respublika kimi Naxçıvanın sərhədlərini daha təkmil, aydın, konkret şəkildə əks etdirən və Naxçıvan bölgəsinin Azərbaycanın tərkibində muxtariyyət statusu ilə qalmasını və bunu Naxçıvana ərazi iddialarında olan Ermənistan SSR-in nümayəndələrinin də təsdiq etdiyi Qars müqaviləsinin imzalanmasının 100 ili qeyd olundu.

Ona görə də Naxçıvan Muxtar Respublikasının yaradılmasının 97-ci ildönümü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov bölgəyə Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində mühüm rol oynayan Qars müqaviləsinin imzalanmasının 100 ilinin tamam olması ilə əlaqədar 8 fevral 2021-ci ildə "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır (9). Naxçıvanın muxtariyyət statusunun Azərbaycan dövlətçiliyi tarixində mühüm mərhələ olması, bu tarixin öyrənilməsinin və gələcək nəsillərə çatdırılmasının bütün dövrlər üçün aktuallığı nəzərə alınaraq imzalanan bu Sərəncam tariximizə, onun dərindən öyrənilməsi və təbliğ edilməsinə yüksək dövlət qayğısının yeni və çox əhəmiyyətli təzahürüdür.

Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində çox böyük əhəmiyyətə malik olan Qars müqaviləsi 1921-ci ilin yanvar ayında Rusiya, Ermənistan və Azərbaycan nümayəndələrinin iştirakı ilə keçirilən ümumxalq səsverməsinin nəticələrindən və 1921-ci il Moskva müqaviləsindən sonra Naxçıvanın muxtariyyət məsələsinə yekun vuran, onun

* *AMEA Naxçıvan Bölməsi Tarix Etnoqrafiya və Arxeologiya İnstitunun direktoru, AMEA-nın müxbir üzvü, professor*
*E-mail: seferli949@mail.ru*

kimə məxsus olmasını təsdiqləyən çox mötəbər, beş dövlətin nümayəndələri tərəfindən imzalanan beynəlxalq müqavilədir. Bu müqavilə ermənilərin Naxçıvana olan ərazi iddialarını, bununla bağlı arzularını, istəklərini ürəklərində qoyaraq puça çıxaran, Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusunu təsbit edən və bu statusun onun ərazisinin toxunulmazlığının qarantı olan çox əhəmiyyətli bir beynəlxalq sənəddir.

Naxçıvanın muxtariyyəti çox mürəkkəb və ziddiyətli bir vəziyyətdə əhalinin inadlı mübarizəsi, Azərbaycanın, xüsusilə Naxçıvanın görkəmli şəxsiyyətlərinin, ziyalılarının qətiyyətli mövqeyi, qarşıya çıxan maneələri uğurla aradan qaldırması sayəsində əldə olunmuşdur. Çünki həmin vaxt Rusiya imperiyasının dağılmasından sonra 1918-ci ilin may ayında daşnak hökumətini yaradan ermənilər yaranmış böhranlı vəziyyətdən istifadə edərək Azərbaycana, o cümlədən onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvana ərazi iddialarını gücləndirmişdilər. Birinci Dünya müharibəsində məğlub olan və Qafqaz cəbhəsindən geri çəkilən Rusiya ordusundan aldıqları döyüş surastı ilə silahlanan erməni quldur dəstələri öz arzularını gerçəkləşdirmək üçün Azərbaycanın digər bölgələri kimi Naxçıvana da hücumlar edir, Azərbaycan ərazilərini ələ keçirərək xəyali “Böyük Ermənistan” ideyasını gerçəkləşdirmək istəyirdilər. Bu işdə erməniləri dünyanın iri dövlətləri, o cümlədən 1919-cu ilin əvvəllərində Naxçıvanı tutan ingilislər və həmin ilin yayında onları əvəz edən amerikalılar da müdafiə edirdilər. Ancaq Naxçıvan əhalisinin inadlı müqaviməti və qabaqcıl insanların səyləri nəticəsində ingilislər və amerikalılar məqsədlərinə çata bilmədilər.

Bu zaman yenicə tarix səhnəsinə çıxan Sovet Rusiyası da sələfi çar Rusiyasının ermənilərə olan himayəçi siyasətini davam etdirir, bir sıra Azərbaycan torpaqları kimi Naxçıvanı da ermənilərə vermək istəyirdi. Ona görə də Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra sovet hakimiyyətinin ilk vaxtlarında yaranmış mürəkkəb vəziyyətdən istifadə edən ermənilərin Naxçıvana ərazi iddialarının daha da gücləndiyi bir vaxtda Sovet Rusiyasının rəhbərlərindən V.İ.Lenin, İ.Stalin və S.Orcenikidze və başqaları Naxçıvanın Ermənistana verilməsi ideyasını müdafiə edirdilər. İ.Stalin hələ Ermənistanda sovet hakimiyyətinin qurulmasından əvvəl, 04 noyabr 1920-ci ildə AK(b)P Mərkəzi Komitəsinin Siyasi Bürosunda RK(b)P Qafqaz Bürosu üzvlərinin (İ.Stalin, S.Orcenikidze, Y.Stasova) iştirakı ilə “Ermənistanda vəziyyət” məsələsi müzakirə edilərkən belə bir bəyanatla çıxış etmişdi ki, əgər bilmək istəyirsinizsə Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə (yəni daşnak hökumətinə-H.S.) vermək olmaz, sovet hökuməti olanda vermək olar (8, s. 358). İ.Stalinin bu bəyanatı elə bir vaxtda verilmişdi ki, artıq Sovet Rusiyasının Qırmızı ordu hissələri Cənubi Qafqaza – Azərbaycana daxil olmuş, 28 aprel 1920-ci ildə Azərbaycanda, 3 ay sonra, iyulun 28-də Naxçıvanda sovet hakimiyyəti qurulmuşdu. Ermənistanın sovetləşməsinə lap az qalmışdı. Başqa sözlə desək, Ermənistan 29 noyabrda, yəni bəyanatın verilməsindən 25 gün sonra sovetləşdi. Deməli, İ.Stalin bu vəziyyəti qabaqcadan görür və faktiki olaraq Naxçıvanın və Zəngəzurun Azərbaycandan qoparılaraq Ermənistana verilməsini istəyirdi. 29 noyabr 1920-ci ildə Ermənistan SSR-in yaradılmasından sonra sovet hakimiyyəti liderlərinin müdafiə etməsindən şirniklənən ermənilərin Naxçıvana olan ərazi iddiaları daha da genişləndi.

Belə gərgin bir şəraitdə Azərbaycan İnqilab Komitəsinin 1 dekabr 1920-ci ildə verilən bəyanatı haqqında xəbər Naxçıvana çatdıqdan az sonra, dekabrın 5-də Naxçıvanda əhalinin bəyanatda əks olunan fikirlərə qarşı güclü etirazları başlandı. Çünki Rusiyanın diktəsi ilə yazılan, Hərbi İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun dili ilə səsləndirilən bu bəyanat “iki sovet respublikası (Azərbaycan və Ermənistan-H.S.) arasında ərazi mübahisələrini Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəldilmişdi. Bəyanatda deyilirdi: “... Bundan sonra heç bir ərazi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir” [8, s. 358].

Bu narazılığı aradan qaldırmaq və əhalini sakitləşdirmək üçün İnqilab Komitəsinin üzvü, ədliyyə komissarı Behbud ağa Şahtaxtinski dekabrın 15-də Naxçıvana göndərildi [2, s. 98-99]. Behbud ağa Şahtaxtinskinin Naxçıvanda apardığı işlər, keçirdiyi görüşlər nəticəsində əhali nisbətən

sakitləşdi. Bundan sonra Azərbaycan İnqilab Komitəsinin 1 dekabr 1920-ci il bəyanatı öz hüquqi qüvvəsini itirdi.

Naxçıvan əhalisi arasında böyük nüfuza malik olan Behbud ağa Şahtaxtinski AK(b)P MK-nin Siyasi və Təşkilat Bürosunun 12 yanvar 1921-ci il tarixli qərarına əsasən Hərbi İnqilab Şurasının mandatı ilə Naxçıvana Komissar təyin olundu [6, s. 301]. Naxçıvanda belə bir məsul işə başlayan Behbud ağa Şahtaxtinski 1921-ci ilin yanvar ayında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin iştirakı ilə Naxçıvanda ərazinin Azərbaycan SSR-in tərkibinə daxil olması barədə əhali arasında ümumxalq səsverməsi (referendum) keçirilməsinə nail oldu. Referendumun nəticələri çox uğurlu oldu: əhalinin 90 faizi bölgənin Azərbaycan SSR tərkibində qalmasının lehinə səs verdi. Behbud ağa Şahtaxtinskinin təşəbbüsü və ciddi səyləri nəticəsində baş tutan bu referendumun nəticələri çox mühüm siyasi-tarixi sənəd olmaqla gələcəkdə Naxçıvan diyarının ərazi mənsubiyyətinin müəyyən edilməsinə kimi həlledici rol oynadı. Naxçıvan əhalisi kimi Azərbaycanın bir sıra görkəmli şəxsiyyətləri də Naxçıvanın Ermənistana verilməsi məsələsində çox kəskin mövqe tutmuş, bu məsələnin yol verilməz olduğunu ən yüksək səviyyələrdə bəyan etmişdilər.

Belə bir çətin şəraitdə A.Mikoyan və digər erməni liderlərinin "Zəngəzurun, Naxçıvanın və Qarabağın Ermənistana verilməsi ermənilərin sovet hökumətinə inamını və rəğbətini artıra bilər" ideyasından çıxış edərək 1920-ci ilin dekabrında, yəni Ermənistan sovetləşdikdən az sonra Azərbaycan Sovet Rusiyası tərəfindən Zəngəzurun böyük bir hissəsini Ermənistana "bağışlamağa" məcbur edildi [7, s. 178]. Beləliklə, Ermənistan sovetləşdikdən sonra Sovet Rusiyası rəhbərliyinin anti-Azərbaycan siyasəti nəticəsində Zəngəzur ərazisinin böyük bir hissəsi Ermənistan SSR-ə verildi. Bu tarixi Azərbaycan torpağının hesabına Ermənistan SSR Xalq Komissarları Sovetinin 20 iyul 1921-ci il tarixli qərarı ilə Ermənistan SSR-in tərkibində Zəngəzur qəzası yaradıldı [7, s. 369-370]. Beləliklə, Zəngəzurun verilməsi ilə Ermənistan ərazisi cənubda Araz çayına qədər uzadıldı və Naxçıvan bölgəsi süni surətdə, məqsədli şəkildə Azərbaycanın əsas hissəsindən ayrı salındı. Bununla da, əslində Naxçıvanın blokadası elə həmin vaxtdan başlandı. Məhz buna görə də, yəni Naxçıvanın Azərbaycanla birbaşa əlaqəsi kəsildiyinə görə, bölgəyə Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsi məsələsi gündəmə gəldi. Ona görə də Naxçıvanın həmin dövrdəki vəziyyətini nəzərə alaraq bu məsələlərdən bəhs edən Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, "əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi" [2]. Beləliklə, Naxçıvan suni şəkildə, düşünülmüş surətdə Azərbaycanın əsas hissəsindən ayrı salındı. 70 illik sovet hakimiyyəti illərində vəziyyət belə davam etdi, indi də davam etməkdədir.

Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində 1921-ci ilin mart ayında imzalanan Moskva müqaviləsinin böyük rolu oldu. Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun bu məsələdə prinsipial və qətiyyətli mövqeyi, 1921-ci ilin əvvəllərində aparılacaq danışıqlarla əlaqədar Moskvaya gedən görkəmli dövlət xadimi və diplomat B.Şaxtaxtinskinin Sovet Rusiyası dövlət xadimləri ilə apardığı danışıqlar Naxçıvan məsələsində Moskvanın – Sovet Rusiyası rəhbərlərinin mövqeyinin dəyişməsinə öz təsirini göstərdi. 16 mart 1921-ci ildə Moskvada Rusiya ilə Türkiyə arasında imzalanan "Dostluq və qardaşlıq haqqında" müqavilədə Naxçıvanın Azərbaycanın tərkibində muxtar statusla qalması ilə əlaqədar maddənin salınmasında Behbud ağa Şahtaxtinskinin xüsusi rolu olmuşdur. Naxçıvanın ərazi taleyinin həll olunmasında böyük rolu olan, Moskva müqaviləsinin imzalanmasında iştirak etməsə də, Behbud ağa Şahtaxtinski müqavilə ilə əlaqədar danışıqlar ərəfəsində və danışıqların getdiyi dövrdə Moskvada bir sıra məsul şəxslərlə görüşmüş, danışıqlar aparmış, məsələnin əsl mahiyyəti haqqında onlarda aydın təsəvvür yarada bilmişdi. Ümumiyyətlə B.Şaxtaxtinskinin Naxçıvanın ərazi taleyinin həll olunmasında, ona Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində çox böyük xidmətləri olmuşdur. O, hətta bununla əlaqədar Moskvaya, V.İ.Leninə məktub yazmış, məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ haqqında həqiqətləri ona çatdırmışdı. Belə ki, məktubda tarixi Azərbaycan torpaqları olan bu ərazilər, həmin yerlərin tarixi coğrafiyası, əhalisinin milli tərkibi haqqında müfəssəl məlumatlar verilmiş, Behbud ağa Şahtaxtinski fikirlərini sübut etmək

üçün Moskvaya bir sıra arayışlar göndərmişdi. Bütün bunlar Sovet dövlətinin başçısı V.İ.Leninin diqqətini cəlb etmiş, nəticədə Siyasi Büro onun təklifi ilə Azərbaycan SSR-in tərkibində Naxçıvan SSR-in təşkili haqqında qərar qəbul etmişdi.

RK(b)P Mərkəzi Komitəsinin Plenumunda bu məsələyə baxılmış və İ.Stalin, İ.Vladimirski və G.Çiçerindən ibarət Komissiyanın bu məsələyə baxıb öz təkliflərini MK-nin Siyasi Bürosuna təqdim etməsi tapşırılmışdı. Komissiya isə bu məsələyə baxaraq B.Şahtaxtinskinin məktubunda irəli sürülən təklifləri təhlil etmiş və nəticədə Naxçıvanın Azərbaycan SSR-in tərkibində Sovet Sosialist Respublikası kimi qalması haqqında qərar qəbul etmişdi.

Həmçinin B.Şahtaxtinski Moskvada olan Türkiyə nümayəndə heyəti ilə, o cümlədən nümayəndə heyətinin başçısı Yusif Kamal bəylə, Əli Fuad bəylə və doktor Riza Nurla danışıqlar aparmışdı. Ona görə də Moskva müqaviləsinin imzalanması ilə əlaqədar aparılan danışıqlarda Türkiyə nümayəndə heyəti Azərbaycanın mənafeyi baxımından bir sıra məsələlərin qəbul olunmasında israr etmiş, nəticədə bir sıra məsələlər Azərbaycanın mənafeyi baxımından həll olunmuşdu. Xüsusilə Naxçıvanın ərazi taleyi və onun Azərbaycanın tərkibində muxtar statusla saxlanması ilə əlaqədar razılıq əldə olunmuşdu.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Kamal Atatürkün RSFSR Xalq Komissarları Sovetinin sədri V.İ.Leninə 26 aprel 1920-ci ildə yazdığı məktubda irəli sürülən RSFSR ilə Türkiyə arasında "Dostluq və qardaşlıq haqqında" müqavilə bağlanması təklifi V.İ.Lenin tərəfindən qəbul olunmuşdu. Ona görə də, bəzi diplomatik hazırlıqlar aparıldıqdan sonra Rusiyaya göndərilən nümayəndə heyətinin rəhbəri Yusif Kamal bəy Mustafa Kamal paşa ilə görüşmüş və bəzi tapşlrıqlar almışdı. Onun "Paşam, ruslar Naxçıvan üzərində israr edərlərsə nə edək?" sualına Mustafa Kamal paşa "Naxçıvan türk qapısıdır, bunu nəzərə alaraq əlinizdən gələni edin" cavabını vermişdi [1, s. 425].

1921-ci ilin fevralında Ankara hökumətinin iqtisad naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad Cebesoy və doktor Riza Nurdan ibarət diplomatik nümayəndə heyəti Moskvaya gəldikdən sonra Sovet Rusiyası ilə Türkiyə arasında 1921-ci il fevralın 26-da Moskvada danışıqlar başlandı (7, s. 46). Danışıqlarda Türkiyə tərəfdən iqtisad naziri, Kastamonu millət vəkili Yusif Kamal bəy, maarif naziri, Sinop millət vəkili doktor Riza Nur bəy və Türkiyə hökumətinin fövqəladə və səlahiyyətli səfiri, Ankara millət vəkili Əli Fuad paşa, Rusiya tərəfdən xarici işlər üzrə xalq komissarı və Ümumrusiya MİK-nin üzvü Georgi Çiçerin və Ümumrusiya MİK-nin üzvü Cəlaləddin Qorxmazov iştirak edirdi. Danışıqlarda ilk iclası açan G.Çiçerin bildirmişdi ki, iclasın əsas məqsədi Sovet Rusiyası ilə Türkiyə arasında ötən il ana xətləri cızılmış bir dostluq müqaviləsini imzalamaqdır.

Moskva danışıqlarına Azərbaycanla bağlı məsələlərin müzakirəsi də daxil idi. Bu məsələlərdən biri Azərbaycanın müstəqilliyi, digəri isə Naxçıvan məsələsi idi. Moskva danışıqlarında Naxçıvanla bağlı əsas məsələlər konfransın 10, 12 və 14 mart tarixli iclaslarında gərgin müzakirə olundu. Türkiyə nümayəndə heyəti Naxçıvanın Türkiyənin himayəsində qalmasını istəyirdi. Lakin Sovet Rusiyası tərəfi bunu qətiyyətlə rədd edirdi. Ona görə də İ.Stalin Türkiyə nümayəndə heyəti ilə Naxçıvan məsələsini müzakirə etdi. Yusif Kamal bəyin xatirələrindən bəlli olur ki, danışıqlarda Naxçıvana dair müzakirələr xeyli uzanmışdı. Hətta İ.Stalin müzakirə zamanı Yusif Kamal bəydən soruşmuşdu ki, "Naxçıvan məsələsində nə üçün bu qədər israr edirsiniz?" Mustafa Kamal paşanın Moskvaya yola düşərkən əvvəlcədən verdiyi tapşırığa əsasən Yusif Kamal bəy İ.Stalinə "orası türk qapısıdır da ondan" [1, s. 426] cavabını vermişdi.

Moskva danışıqları zamanı martın 10-da keçirilən iclasda Türkiyə nümayəndə heyəti Naxçıvanın Türkiyənin himayəsində qalması təklifini verdilər. Ancaq bu təklif Rusiya nümayəndələri tərəfindən qəbul olunmadığı üçün Türkiyə nümayəndə heyəti Naxçıvanın Türkiyə ilə Azərbaycanın müştərək himayəsi altında müstəqil bir dövlət olması təklifini irəli sürdülər. Lakin Sovet Rusiyası tərəfi bu təklifi də qəbul etmədi. Ona görə də Türkiyə nümayəndə heyəti bildirdi ki, Türkiyə bölgə üzərindəki bu himayəni Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə hazırdır.

Martın 12-də keçirilən iclasda Naxçıvan və Ermənistan arasında sərhədlər ətrafında gərgin müzakirələr oldu. 1921-ci il martın 14-də keçirilən növbəti iclasda Naxçıvanın statusu tam olaraq müəyyənləşdirildi. Beləliklə, danışıqlarda yaranmış gərginliklərə baxmayaraq, Türkiyə nümayəndə heyəti göstərdiyi ciddi diplomatik səylər sayəsində iclasda Azərbaycanın ərazi bütövlüyünün qismən də olsa, qorunmasına nail oldu, Naxçıvanın heç bir dövlətə güzəştə gedilməməsi şərtilə Azərbaycanın tərkibində muxtariyyət statusu ilə saxlanılması razılaşdırıldı.

Nəticədə "Türkiyə və Rusiya Federativ Sosialist Sovet Respublikası arasında dostluq və qardaşlıq haqqında müqavilə" 16 mart 1921-ci ildə RSFSR tərəfdən xarici işlər üzrə xalq komissarı Georgi Çiçerin və Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin üzvü Cəlaləddin Qorxmazov, Türkiyə tərəfdən isə TBMM xarici işlər vəkili Yusuf Kamal bəy, Türkiyə nümayəndə heyətinin üzvü Riza Nur bəy və TBMM-nin Rusiyadakı səfiri Əli Fuad paşa tərəfindən imzalandı [5, s. 24-34]. Müqavilə 20 mart 1921-ci ildə RSFSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən, bundan 4 ay sonra, 21 iyul 1921-ci ildə isə Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiq olundu. Beləliklə, 16 mart 1921-ci ildə Rusiya ilə Türkiyə arasında Moskvada imzalanan "Dostluq və qardaşlıq haqqında müqavilə" hüquqi cəhətdən qüvvəyə mindi.

16 maddə, 3 əlavədən ibarət olan müqavilənin 3-cü maddəsi və I (C) əlavəsi birbaşa Naxçıvanla əlaqədardır. Müqavilənin 3-cü maddəsində Naxçıvanla əlaqədar fikir belə ifadə olunmuşdur: "Razılığa gələn hər iki Tərəf bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlərin içərisində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir.

Naxçıvan ərazisinin Araz talveqinin şərqi ilə Dəhnə dağı (3829) – Vəli dağ (4121) – Bağırsaq (6587), Gömürlü dağ (6930) xətti arasında yaranmış üçbucaq kəsimi, bu torpaqların Gömürlü dağdan (6930) başlayıb, Saraybulaq dağından (8071) və Ararat stansiyasından keçərək Qara Suyun Arazla birləşdiyi yerdə başa çatan sərhəd xətti, Türkiyə, Azərbaycan və Ermənistan səlahiyyətli nümayəndələrindən ibarət komissiya tərəfindən təshih olunacaqdır" [5, s. 26-27].

Müqavilənin I (C) əlavəsində isə Naxçıvanın sərhədləri belə göstərilmişdir: "Naxçıvan ərazisi: Ararat stansiyası – Saraybulaq dağı (8071) – Gömürlü dağ (8839) – (8930) – (3080) – Sayat dağ (7868) – Qurdqulaq (Kurt Kulak) kəndi – Həməsür dağı (8160) – 8022 yüksəkliyi – Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi" (5, s. 34).

Moskva şəhərində imzalanmış bu ikitərəfli müqavilənin 3-cü maddəsinə əsasən Naxçıvan ərazisinin üçüncü dövlətə güzəştə gedilməməsi şərti ilə müqavilənin birinci (C) əlavəsində qeyd olunan sərhədlər daxilində Azərbaycanın protektoratı altında muxtar ərazi təşkil etməsi ilk dəfə olaraq beynəlxalq müqavilə ilə təsbit olundu.

Beləliklə, Rusiya hökumətinin ermənipərəst mövqeyinə və erməni kommunistlərin riyakar siyasətinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyətli, dönməz iradəsi, Türkiyənin prinsipial və ədalətli mövqeyi və Behbud ağa Şahtaxtinski kimi milli mənafedən çıxış edən siyasi xadimlərin səyləri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. Həm də Türkiyənin Naxçıvanın muxtariyyət statusunun və əhalisinin təhlükəsizliyinin qarantı olduğu rəsmiləşdirildi. Yusif Kamal bəy sonralar bu haqda yazmışdı ki, "Naxçıvan müsəlmanları bir daha soyqırıma məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdir" [8, s. 273].

Moska müqaviləsinin imzalanmasının çox böyük siyasi-tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın ərazi bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi. Bu müqaviləyə görə qədim türk-oğuz yurdu olan Naxçıvan Azərbaycan sərhədləri içərisində qaldı [4].

Göründüyü kimi, Naxçıvanın muxtariyyət statusu 1921-ci ildə Rusiya ilə Türkiyə arasında imzalanan, imzalanmasının 100 ili tamam olmasına baxmayaraq bu gün də qüvvəsini itirməyən, Moskva beynəlxalq müqaviləsi ilə təsdiqləndi. Müqavilə müddətsiz bağlanmışdır və onu imzalayan tərəflərdən heç biri onu birtərəfli qaydada ləğv edə bilməz. Ona görə də Qars müqaviləsi kimi,

Moskva müqaviləsinin də ləğv olunmasına çalışan ermənilərin bütün cəhdləri əbəsdir və heç bir nəticə verə bilməz.

Bu müqavilə 1921-ci ildə yanvar ayında Behbud ağa Şahtaxtinskinin təşkilatçılığı ilə Naxçıvanda Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin iştirakı ilə keçirilən və əhalinin 90 faizinin Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu ilə qalmasına səs verməsi ilə nəticələnən referendumdan (ümumxalq səsverməsindən) sonra Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika kimi saxlanmasını rəsmiləşdirən ilk beynəlxalq sənəd oldu.

Moskva müqaviləsinin davamı olaraq, müqavilənin imzalanmasından 7 ay sonra, 13 oktyabr 1921-ci ildə Türkiyənin Qars şəhərində Türkiyə, Ermənistan, Azərbaycan, Gürcüstan və Rusiya nümayəndələrinin iştirakı ilə "Dostluq haqqında bir tərəfdən Ermənistan Sosialist Sovet Respublikası, Azərbaycan Sosialist Sovet Respublikası və Gürcüstan Sosialist Sovet Respublikası, digər tərəfdən Türkiyə Böyük Millət Məclisi Hökuməti arasında Rusiya Sosialist Federativ Sovet Respublikasının iştirakı ilə müqavilə" imzalandı. Müqavilənin 5-ci maddəsi, 3-cü əlavəsi ilə Moskva müqaviləsinin Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsi məsələsini daha təkmil, konkret və dəqiq sərhədlərlə təsbit etdi [5, s. 67-80].

Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsini təsbit edən ikinci beynəlxalq sənəd olan Qars müqaviləsinin imzalanmasından 28 ay sonra, başqa sözlə desək, bir qədər yubansa da, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə 9 fevral 1924-cü ildə Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldı.

### İstifadə edilmiş ədəbiyyat

1.Atnur İ. Osmanlı idarəçılıyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: "Əcəmi" NPB, 2013, 496 s.
2."Azərbaycan qəzeti", 12 fevral 1999-cu il.
3.Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 164 s.
4.Hacıyev İ. "Dostluq və qardaşlıq müqaviləsi" dostluq və qardaşlığa xidmət etməlidir. 525-ci qəzet, 15 mart 2016-cı il.
5.Gümrü, Moskva və Qars müqavilələri. Naxçıvan, 2004, 140 s.
6.Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı Universiteti Nəşriyyatı, 1996.
7.Naxçıvan ensiklopediyası. 2 cilddə, cild 2. Naxçıvan, 2005, 381 s.
8.Naxçıvan tarixi. 3 cilddə, II cild. Naxçıvan: "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 2014, 528 s.
9."Şərq qapısı" qəzeti, 9 fevral 2021-ci il.

**Hajifakhraddin Safarli**

## TREATY OF MOSCOW AND NAKHCHIVAN

### Summary

The article discusses the treaty of Moscow, which is a very important step in giving Nakhchivan the status of autonomy. It is noted that Article 3 and Annex I (C) of the Treaty of Friendship and Brotherhood signed between Soviet Russia and Turkey in Moscow on March 16, 1921 are related to Nakhchivan. Even in the appendix, the borders of Nakhchivan are clearly defined. Under the terms of the agreement, both sides (Russia and Turkey) agree to make Nakhchivan an autonomous territory under the auspices of Azerbaijan, provided that the protectorate of Azerbaijan will never make concessions to a third state. Thus, the treaty of Moscow protected the territorial integrity of Azerbaijan and clarified the issue of territorial affiliation of Nakhchivan.

**Key words:** *Moscow, Russia, Turkey, Azerbaijan, Nakhchivan, treaty.*

**Гаджифахреддин Сафарли**

**МОСКОВСКИЙ ДОГОВОР И НАХЧЫВАН**

**Резюме**

В статье говорится о Московском договоре, являющемся важном шагом в получении Нахчываном статуса автономии. Отмечается, что 3-й пункт и I (C) дополнение заключенного 16 марта 1921 года в городе Москва между Россией и Турцией «Договора о дружбе и братстве» непосредственно связан с Нахчываном. В дополнении даже указаны чёткие границы Нахчывана. Согласно условиям договора, каждая из сторон (Россия и Турция) соглашается на статус автономии Нахчыванской области под протекторатством Азербайджана в указанных границах с тем условием, что Азербайджан никогда не уступит её третьему государству. Таким образом, Московский договор сохранил территориальную целостность Азербайджана и внёс ясность в вопрос о территориальной принадлежности Нахчывана.

**Ключевые слова:** *Москва, Россия, Турция, Азербайджан, Нахчыван, договор.*

**Sahə redaktoru: Qabil Əliyev**, tarix elmləri doktoru, professor

UOT 308

# ERMƏNILƏRIN ZƏNGƏZUR QƏZASINDA TÖRƏTDIKLƏRI SOYQIRIMLAR

**Lətafət Beybutova***

**Xülasə**

Ermənilərin 1905-ci ildən başlayan, 1918-ci ildə özünün ən vəhşi və dəhşətli zirvəsinə çatan talançılıq, soyqırımı siyasəti, 1920-ci ildən sonra davam edən torpaqlarımızın ardıcıl işğalı və ən nəhayət, 1988-ci ildə ermənilərin Qarabağ fitnəkarlığı həmçinin Ermənistan SSR-də yaşayan azərbaycanlıların öldürülməsi və kütləvi deportasiyası ilə müşayiət olundu.

Ermənistan SSR-dən ilk qaçqın dalğası 1987-ci il fevral ayının sonu - martın əvvəllərində məhz Zəngəzurdan başladı. Həmin il ərzində Zəngəzurun, demək olar ki, bütün azərbaycanlı əhalisi öz doğma yurdlarından deportasiya olundu. 1991-ci ilin avqustunda Zəngəzurun azərbaycanlılar yaşayan sonuncu - Mehri rayonunun Nüvədi kəndinin əhalisinin qovulması ilə Zəngəzur bölgəsinin "türksüzləşdirilməsi" prosesi başa çatdırıldı.

**Açar sözlər:** *Zəngəzur, erməni-müsəlman, terrorizm, soyqırımlar və deportasiyalar.*

## Giriş

Bir tərəfdən Osmanlı dövləti, digər tərəfdən Qacarlar İranı ilə əhatə olunan Cənubi Qafqazın əhalisinin, əsasən, müsəlmanlardan ibarət olması Çar Rusiyasının müstəmləkəçi maraqlarına cavab vermirdi. I Pyotrun vəsiyyətlərindən kənara çıxmayan rus çarizmi ermənilərin Şimali Azərbaycana köçürülməsinə xüsusi diqqət ayırırdı. Çarizmin əsas məqsədi Cənubi Qafqazda xristianlaşdırma və ruslaşdırma siyasətini həyata keçirmək, işğal edilmiş ərazilərdə türk-müsəlman əhalinin mütləq sayını azaltmaq, Rusiya imperiyasına sədaqətlə xidmət edən qeyri-müsəlmanları yerləşdirərək bufer zona yaratmaq, yerli müsəlman-türk əhalinin müsəlman Şərqi ilə əlaqələrini zəiflətmək idi.

**Tarixi Türkmənçay müqaviləsi**

1828-ci ilin fevral ayının 10-da bağlanmış Türkmənçay müqaviləsi ilə Azərbaycanı iki yerə bölən Çar Rusiyası ermənilərə Azərbaycan torpaqlarında erməni vilayətinin yaradılmasnı vəd vermiş və bu vədə də əməl etmişdir. Həmin ilin mart ayının 20-də çar I Nikolayın erməni vilayəti yaradılması barədə verdiyi fərmanda göstərilirdi ki, İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarının 78-i bundan sonra erməni vilayəti adlandırılacaqdır [1, s.4]. Erməni vilayəti İrəvan və Naxçıvan əyalətlərinə, bir də Ordubad dairəsinə bölünmüşdür. Ermənilərin XVI əsrdən bəri davam edən dövlət yaratmaq uğrunda ardıcıl səyləri bir an belə səngiməmiş, nisbətən əlverişli tarixi şərait yarandıqda isə bu səylər daha da yüksəlmişdir. Erməni millətçilərinin "böyük Ermənistan" dövləti yaratmaq xülyası, Azərbaycan türklərini kütləvi surətdə məhv etmək, yaşadıqları yurdlarından qovub çıxarmaqla həmin ərazidə ermənilərin sayca üstünlüyünə nail olmaq və beləliklə, "milli çoxluğun" dövlətini yaratmaq ideyasını reallaşdırmaq planı idi [2]. Ermənilərin havadarlarının maddi və hərbi-siyasi dəstəyi ilə XIX-XX əsrlərdə müəyyən mərhələlərlə azərbaycanlılara qarşı həyata keçirdikləri kütləvi qırğınlar, soyqırımlar və deportasiyalar nəticəsində yerli əhalinin etnik tərkibində ciddi dəyişikliklər baş vermişdir. 1918-ci ilin mayında Cənubi Qafqazın siyasi xəritəsində müstəqil Azərbaycan və Ermənistan dövlətlərinin meydana gəlməsi ilə ermənilər və azərbaycanlılar arasında ilk dəfə olaraq 1905-1906-cı illərdə qeydə alınmış etnik toqquşmalar Ermənistan və Azərbaycan arasında dövlətlərarası münaqişə səviyyəsinə çatdı. Bu münaqişənin əsasında Ermənistandakı daşnak hökumətinin Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ermənilərin məskunlaşdığı əzəli Azərbaycan torpaqlarını ələ keçirmək cəhdləri dayanırdı [4].

* *Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" Elmi Araşdırmalar, Ekspozisiya və fond şöbəsinin müdiri qubatovaltaft@gmail.com*

Tarixə ilk olaraq “erməni-müsəlman qırğınları” kimi düşən bu qanlı faciələri hüquqi-siyasi baxımdan azərbaycanlılara qarşı soyqırım adlandırmaq onun mahiyyətinə tam uyğun gəlir. Statistik məlumatlar göstərir ki, XIX əsrdə Azərbaycanın başqa bölgələrinə nisbətən ermənilər Zəngəzurda daha kompakt halda məskunlaşmışdılar.

**Zəngəzurda azərbaycanlılara qarşı törədilən soyqırım**

1918-20-ci illlərdə azərbaycanlılara qarşı törədilən soyqırım və etnik təmizləmə əməliyyatı Zəngəzurda xüsusi qəddarlıqla həyata keçirilmişdir. Zəngəzurun mövcud olduğu bütün tarix boyu azərbaycanlılara qarşı törədilmiş qanlı qırğınlar öz qəddarlığı ilə bəlkə də anoloqu olmayan faciələrdəndir. Fövqəladə Təhqiqat Komissiyasının üzvü N. Mixaylov 1918-ci il ərzində Zəngəzur qəzasında törədilmiş vəhşiliklərin təhqiqatı əsasında hazırladığı məruzədə 2 azərbaycanlı əhalinin soyqırımına məruz qalmasını konkret faktlarla əsaslandırmışdı [7, s.155]. Məruzədə qeyd edildiyi kimi, Zəngəzur qəzasında ermənilərin müsəlmanlar üzərində fasiləsiz zorakılıqlar həyata keçirmələri baxımından daha ağır şərait mövcud idi. Yüksək dağlıq ərazidə yerləşməsindən və qonşu Şuşa və Cəbrayıl qəzaları ilə əlaqələrinin pozulmasından, eləcə də müsəlman kəndlərinin pərakəndə halda, erməni kəndlərinin əhatəsində yerləşməsindən istifadə edən ermənilər bölgədə daha əlverişli vəziyyətdə idilər. Azərbaycanın digər bölgələri ilə müqayisədə qəza müsəlmanlarının vəziyyəti daha ağır idi.

Zəngəzurda azərbaycanlılara qarşı törədilən soyqırımların əsas səbəbkarlarından olan erməni generalı Ozanyan Andranik 1918-ci ilin əvvələrində 10 min nəfərlik hərbi quldur dəstəsi ilə Türkiyədən Qafqaza keçərək İrəvan, Naxçıvan, Dərələyəz mahallarında bir sıra qırğın və talanlar törətmişdir. Yaxşı silahlanmış erməni kəndliləri ilə yanaşı qəzada general Andranikin rəhbərliyi altında mütəşəkkil hərbi hissənin silahlı qüvvələri cəmləşərək Zəngəzur ərazisinə soxulmuş və Ermənistan Respublikasının göstərişinə uyğun olaraq müsəlman əhalisinə ermənilərin hakimiyyətinə tabe olmağı, əks təqdirdə qəzanı tərk etməyi tələb etmişdi. Andranikin əsas məqsədi bununla Zəngəzuru Ermənistan Respublikanın tərkibinə qatmaqdan ibarət idi. Onlara tabe olmadan imtina edən müsəlmanlara qarşı ermənilər misli görünməmiş vəhşiliklər törədir, müsəlmanları qətl edir, kəndlərini yandırır və dağıdır, əmlakılarını, mal-qarasını aparır, torpaqlarını ələ keçirirdilər.

Andranik və onun quldur dəstələrinin Zəngəzur qəzasına gəlməsi yerli ermənilər arasında ruh yüksəkliyinə səbəb olmuşdur. Zəngəzur qəza rəisi Məlik Namazəliyevin 1918-ci il sentyabrın 11-i və 12-si tarixli raportundan belə görünür ki, Andranik müsəlmanlar yaşayan kəndlərə yerli (Zəngəzur) ermənilərin xahişi ilə hücumlar təşkil edərək, onları tar-mar edir, əhaliyə böyük zərər vururdular [4]. Onun sözlərinə görə, qaniçən Andranikin rəhbərliyi altında ermənilər 500-dən çox dinc günahsız müsəlmanı qətlə yetirmişlər.

M. Namazəliyevin məruzəsində vurğulanırdı ki, 1918-ci il oktyabrın 30-da imzalanmış Mudros müqaviləsinə əsasən Osmanlı imperiyası Cənubi Qafqazdakı hərbi hissələrini çıxarmağı öhdəsinə götürdükdən sonra bu regiondakı vəziyyət daha da kəskinləşmiş oldu. Türk qoşunlarının gedişi Andranikin hərbi birləşmələrinin Zəngəzur ərazisindən Qarabağı nəzarətə almağa cəhd etməsinə şərait yaratdı. “Xalq rəhbər”inin 1918-ci ilin noyabrından etibarən Qarabağın və Zəngəzurun azərbaycanlı əhalisinə qarşı təşkil etdiyi hücumlar sistemli xarakter almağa başladı [5, s.503]. 1918-ci il noyabrın 22-də Andranikin quldur dəstələrinin Gorusa gəlməsi ilə qısa müddət ərzində 30 müsəlman kəndi talan edilmişdir.

Andranikin vəhşilikləri haqqında Azərbaycan Cümhuriyyəti Hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində, yerli hakimiyyət nümayəndələrinin,

ictimai xadimlərin teleqram və məktublarında, dövrü mətbuat səhifələrində, eləcə də çoxsaylı şahid ifadələrində kifayət qədər faktlar və materiallar mövcuddur. Fövqəladə Təhqiqat Komissiyası topladığı 36 cildlik istintaq materiallarının (3500 səhifəlik) 2 cildi (təqribən 80 səhifəlik) Zəngəzur qəzasındakı hadisələri özündə əks etdirir [7, s.154].

Zəngəzur qəza rəisi M.Namazəliyevin məlumatına görə Andranikin başçılığı ilə erməni quldurları Urud, Darabas, Ağadu, Vağudi, Arıqlı, Şukər, Məlikli, Pulkənd, Şəki, Qızılcıq, Qarakilsənin müsəlman hissəsini, İrmis, Pəhlili, Kürdlər, Xotanan, Sisiyan, Zabazadur müsəlman kəndlərini dağıdaraq insanları qətl etmişlər. Bundan əlavə, 1918-ci ilin mayından avqust ayının sonlarına qədər Sisyan rayonunda azərbaycanlılara qarşı xüsusi bir qəddarlıqla soyqırım və etnik təmizləmə əməliyyatı həyata keçirmişlər [5, s.503]. Həmin dövr ərzində Sisyan mahalının I polis sahəsinin bütün müsəlman kəndləri, II sahənin kəndlərinin əksər hissəsi, III, IV, V sahələrin mühüm hissələri tamamilə məhv edilmiş, bəzi kəndlər tamamilə yerlə-yeksan edilərək ermənilər tərəfindən əkin sahələrinə çevrilmişdi. Sisyan rayonunda azərbaycanlı kəndləri dağıdılmış, azərbaycanlı əhalinin təxminən 30%-i öldürülmüş, 50000 nəfərdən çox müsəlman əhali isə qaçqın vəziyyətinə düşərək, bir hissəsi Naxçıvana, bir hissəsi isə quberniyanın Şuşa və Cəbrayıl qəzalarına pənah aparmışlar. Şahidlərin ifadələri əsasında tərtib olunmuş məruzədə ermənilərin törətdikləri cinayətlər haqqında ətraflı məlumat verilmişdir [3]. Məruzədə göstərilir ki, 115 kənd dağıdılmış, məhv edilmiş və qeyd olunan kəndlərdə 10068 nəfər müsəlman öldürülmüş və ya yaralanmışdır. Xristian qurultayının və milli şuranın təklifi ilə Zəngəzurda “ali baş komandanın bütün səlahiyyətləri ilə silahlı qüvvələr üzərində baş komandanlığı öz üzərinə götürmüş” Andranik amansızcasına müsəlman kəndlərini viranə qoymaqda davam edirdi. Bütün bu cinayətlər sözdə sülh və sakitliyin təmin edilməsi tərəfdarı kimi çıxış edən ingilis-fransız missiyasının gözləri qarşısında baş verirdi. [5,s.504] Zəngəzur qəza rəisi M.Namazəliyevin Azərbaycan Respublikası hökumətinə göndərdiyi 11 dekabr 1918-ci il tarixli növbəti teleqramında Andranikin başçılığı altında ermənilərin Zəngəzur qəzasında törətdikləri yeni vəhşiliklər haqqında danışılırdı. Bununla əlaqədar məlumat verilirdi ki, ermənilərin Zəngəzur qəzasının müsəlman kəndlərinə hücumları nəticəsində “cinsindən və yaşından asılı olmayaraq əhali vəhşicəsinə qırılır, meyitlər təhqir olunur. Hazırda 10 nəfər qadın ermənilərin əlində əsirdir. Regiondakı vəziyyət Azərbaycan Respublikasının parlamentinin 1918-ci il 20 dekabr tarixli iclasında müzakirə edilmişdir. Bu məsələ ilə bağlı hökumət başçısı F.X.Xoyski çıxışında qeyd etmişdi ki, “Andanikin planı Zəngəzuru və Şuşanı müsəlman əhalidən “təmizləmək” və bu əraziləri Azərbaycan torpaqlarından qoparmaqdır” [6, s.265]. Hökumətin münaqişəni Andraniklə dinc danışıqlar yolu ilə həll etməklə bağlı çoxsaylı cəhdləri barədə deputatları məlumatlandırarkən o, sonuncunun Azərbaycan hökuməti nümayəndələri ilə hər hansı əlaqələr qurmaq istəmədiyini bildirmişdi [2]. Məsələ ilə bağlı müzakirələrin nəticəsi olaraq, xarici təcavüzün qarşısının alınması məqsədilə hökumət tərəfindən hərbi-siyasi kompleks tədbirlərin görülməsi zərurəti haqqında qərar qəbul olunmuşdu.

Zəngəzur və Qarabağ ərazisində Andranikin silahlı quldur dəstələrinin 1918-ci ilin yayından 1919-cu ilin yazınadək fasilələrlə davam etmiş qanlı cinayətlərinin qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikası hökumətinin qərarı və ingilis komandanlığının razılığı ilə 1919-cu il yanvarın 13-də Cavanşir, Şuşa və Cəbrayıl qəzaları ilə birgə Zəngəzur qəzasının da daxil olduğu Qarabağ general-qubernatorluğu yaradılmışdır. Azərbaycan hökumətinin öz tarixi torpaqlarında general-qubernatorluq yaratması və Xosrov Paşa bəy Sultanovun bu vəzifəyə təyin etməsi haqqında qərarını daşnaklar çox böyük narahatlıqla qarşıladılar. Ermənistan Xarici İşlər Nazirliyinin Rusiya hökumətinə, digər aparıcı dövlətlərə və beynəlxalq təşkilatlara çoxsaylı müraciətlərində, Azərbaycan hökumətinə etiraz notalarında belə bir iddia irəli sürülürdü ki, guya bu bölgənin böyük bir hissəsi Ermənistan ərazisidir, Xosrov Paşa bəy isə guya ermənilərin düşmənidir. Azərbaycan Hökumətinin qəti addımlarından narahat olan Ermənistan belə bir şəraitdə Qarabağın dağlıq ərazisinə açıq iddia ilə çıxış etdi [3]. Azərbaycan Hökuməti yanvarın 31-də cavab notasında Qarabağm tarixən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bildirdi və Qarabağ general qubernatorluğunun yaradılmasına Ermənistanın etirazını Azərbaycanın suverenliyinə qəsd və onun daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirdi. Nəhayət ki, Xosrov bəy Sultanovun başçılıq etdiyi general-qubernatorluğun yaradılmasından sonra Qarabağ və Zəngəzur ərazisində törədilən qanlı cinayətlərə son qoyulmuşdur.

1919-cu ilin aprelində Andranik dəstəsi ilə birlikdə Zəngəzuru tərk edərək, Azərbaycan hökumətinin ona təqdim etdiyi dəhliz vasitəsi ilə Ermənistan Respublikası ərazisinə qayıtmışdır [6, s.287]. Sonra isə Azərbaycandakı Britaniya missiyasının Qarabağ və Zəngəzuru Ermənistana birləşdirmək planlarına dəstək verməməsindən məyus olmuş Andranik digər erməni siyasətçilərlə birlikdə Parisə köçüb getmişdir.

Ermənilərin xalqımıza qarşı yönəlmiş soyqırımı və deportasiya siyasətinin ən qanlı səhifələrindən biri də 1919-cu ilin dekabr, 1920-ci ilin yanvarında yazılmışdır. Əfsuslar olsun ki, bu hadisələrdən bir əsrə yaxın vaxt keçsə də, Azərbaycan xalqı bu qanlı faciələrin əsl mahiyyətindən, səbəb və nəticəsindən hələ də yetərincə məlumatlı deyillər [7, s.154]. 1920-ci il iyulun sonlarında bolşeviklər tərəfindən Zəngəzur ələ keçirildikdən sonra vəziyyət bir müddət sabitləşsə də, bolşevik qoşun hissələrinin Naxçıvana hərəkət etməsindən istifadə edən Dro və Njdenin dəstələri yenidən Zəngəzura soxuldular və Bazarçayı, Sisyan, Əngəlidi və Gorusu tutdular. Bütün bunlar Zəngəzur müsəlmanlarının vəziyyətinin yenidən pisləşməsinə, yeni qaçqınlar dəstəsinin yaranmasına gətirib çıxardı. Qaçqınlar arasında xəstəlik və aclıq hökm sürürdü. Yalnız 1920-ci il avqustun əvvəllərində sovet hissələrinin keçirdiyi əməliyyatlar nəticəsində erməni dəstələrinə ciddi zərbələr vuruldu.

1920-ci ilin avqust-noyabr ayları ərzində qəzanın müxtəlif yerlərində məhəlli döyüşlər başladı. Xüsusən Mehri və Qafan rayonlarını əlində saxlayan Njdenin dəstələri azərbaycanlılar üçün yenə də təhlükə mənbəyi olaraq qalırdı. Ermənistanın sovetləşməsindən sonra Zəngəzurda milli toqquşmalar müəyyən qədər səngisə də, bolşevik Rusiyasının təzyiqi altında bu əzəli Azərbaycan torpağının Ermənistana verilməsi istiqamətində atılmış addımlar 4505 km 2 bir ərazinin itirilməsi ilə nəticələndi [4]. Qəzanın sovetləşməsi və Ermənistanın tərkibinə daxil edilməsi burada yaşayan azərbaycanlı əhaliyə qarşı ayrı-seçkilik siyasətinin yeni forma və məzmunda davam etməsinə şərait yaratdı. Ermənistan SSR rəhbərliyi tərəfindən müxtəlif bəhanələrlə azərbaycanlı qaçqınların öz doğma yerlərinə qayıtmalarına nəinki imkan verilmədi, əksinə, qəzada sayları xeyli azalmış azərbaycanlıların sıxışdırılmasına başlandı. Zəngəzurda yerli azərbaycanlıların zorla öz evlərindən qovulması və onların yerinə gəlmə ermənilərin yerləşdirilməsi ilə bağlı narahatlıq hətta II Azərbaycan Sovetlər qurultayında belə ifadə olunmuşdu [6, s.288]. Vaxtilə Zəngəzurdan qovulmuş 50 mindən çox azərbaycanlı qaçqının yalnız 5 mini öz vətəninə dönməyə nail olmuşdu. 1917-ci ildə Zəngəzur qəzasında 123085 nəfər təşkil edən azərbaycanlıların sayı 1926-cı il siyahıyaalınma göstəricilərinə görə heç 5 minə də çatmamışdı. Zəngəzurun əksər hissəsini ələ keçirməklə kifayətlənməyən ermənilər bölgənin Azərbaycan SSR-də qalmış cüzi hissəsinə-Cəbrayıl, Qubadlı, Zəngilan qəzalarının ərazilərinə də iddialar irəli sürmüş, müəyyən dərəcədə buna nail olmuşlar. Belə ki, erməni məkrinin təsiri altında yeni inzibati vahidlik - Mehri rayonunun yaradılması adı altında Zəngilan rayonunun üç kəndi - Nüvədi, Ərnəzir və Tuğut Ermənistana verilmişdi [6, s.265].

**Nəticə**

Beləliklə, tarix boyu "türksüz Ermənistan xülyası ilə yaşayan, müsəlman xalqlarının qatı düşməni olan ermənilərə rus hökuməti tərəfindən məmləkətimizin ən dilbər guşələrindən biri olan Zəngəzur qəzası bağışlandı. 1920-ci ildə Zəngəzur və İrəvan Ermənistanın tərkibinə qatıldıqdan sonra daşnak proqramının məkrli planının bir hissəsi yerinə yetirilmiş oldu.

**İstifadə olunmuş ədəbiyyat**

1. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Bakı: Qartal, 1998. 218 s.

2. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımı. Sənədlər toplusu. III cilddə, II cild, I kitab. Gəncə quberniyasında soyqırımı. 1917-1920-ci illər, Bakı: Tarix İnstitutunun nəşri, 2011, s.265-287 -288.

3. “Kaspi” qəzeti, 12 sentyabr 1906, № 195.

4. Quliyev M. Zəngəzur. (Elmi-publisistik nəşr). Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2005, 504 s.

5. Mustafa N, Xalq qəzeti. 31 mart 2009.

6. Nəvvab M. M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993, 128 s.

7.Turan A., “Xalq qəzeti”. [Elektron resurs]. URL: http://www.xalqqazeti.com/az/news/politics/87804. Müraciət edilmişdir: 12.03.2021

**Latafat Beybutova**

**Genocides committed by Armenians in Zangezur district**

**Summary**

The policy of looting and genocide of Armenians, which began in 1905 and reached its most peak period in 1918, and the successive occupation of our lands after 1920, and finally, the Armenian’s "Karabakh" provocation in 1988 were accompanied by the killing and mass deportation of Azerbaijanis living in the region. The first wave of refugees from the Armenian SSR arrived in Zangezur in late February-early March 1987. Almost the entire Azerbaijani population of Zangezur was deported from their homeland that year. The de-Turkification of the Zangezur region was completed in August 1991 with the expulsion of the population of the last Azerbaijani village of Nuvedi in the Mehri region of Zangezur.

**Keywords:** *Zangazur, armenia-muslim, terrorism, genocides, and deportations*.

**Латафат Бейбутова**

**Геноцид армян против азербайджанцев в Зангезурском уезде**

**Резюме**

Армянская политика грабежа и геноцида, начавшаяся в 1905 г. и достигшая своего пика в 1918 г., затем последовательная оккупация наших земель после 1920 г., и, наконец, «карабахская» провокация армян в 1988 г., сопровождались убийствами и массовой депортацией проживающих в регионе азербайджанцев. Первая волна беженцев из Армянской ССР прибыла в Зангезур в конце февраля - в начале марта 1987 года. В том же году почти все азербайджанское население Зангезура было депортировано со своей родины. «Де-тюркизация» Зангезурского региона была завершена в августе 1991 года изгнанием населения последней азербайджанской деревни Нуведи Мехринского района Зангезура.

**Ключевые слова:** *Зангезур, армяно-мусульманский, терроризм, геноциды и депортации.*

**Sahə redaktoru: Lamiyə Qafar-zadə**, tarix üzrə fəlsəfə doktoru, dosent

## KİTAB TƏQDİMATI

*Eynulla Mədətli**

## PAKISTAN: QISA TARIXI-SIYASI OÇERKLƏR

Tanınmış diplomat, Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyində müşavir, Təbrizdə baş konsul (1996-2002), Pakistan İslam Respublikasında və Əfqanıstanda (2002-2010) və Ukraynada (2010-2015) fövqəladə və səlahiyyətli səfir olmuş, hazırda AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun icraçı direktoru, tarix elmləri doktoru, şərqşünas alim Eynulla Mədətlinin Pakistan İslam Respublikası haqqında yazdığı əsər xüsusi əhəmiyyət daşıyan monoqrafiyadır.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətində Pakistan İslam respublikası ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi dövlətimizin xarici siyasətində başlıca istiqamətlərdən olmuşdur. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-dan qurulmuşdur.

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında diplomatik əlaqələr qurulmasının 30 illiyinə həsr olunmuş kitabda Pakistan xalqının və onun dövlətçilik tarixinin ən ümdə məsələləri qələmə alınmışdır. Eynulla Mədətli 2002-2010-cu illərdə Azərbaycanın Pakistanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışdığı zaman yazdığı gündəliklərdən, şəxsi müşahidələrindən, keçirdiyi görüşlərdən, eləcə də müxtəlif tarixi mənbələrdən və ədəbiyyatlardan faydalanmaqla qardaş ölkənin qısa tarixi-siyasi mənzərəsini yaratmağa çalışmışdır. Kitabda Pakistan dövlətinin tarixi, burada islam dininin qəbulu, ayrı-ayrı hökmdarların hakimiyyəti dövründə dövlət idarəçiliyi məsələləri, Pakistan İslam Respublikasının yaradılması və müxtəlif illərdə burada baş verən siyasi proseslər, Pakistanın etnik mənzərəsi, beynəlxalq münasibətlər sistemində yeri, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasındakı əlaqələr haqda araşdırmalar yer almışdır.

Kitab tarixçilər, filoloqlar, beynəlxalq münasibətlər sahəsinin mütəxəssisləri və tələbələri daxil olmaqla geniş oxucu dairəsi üçün nəzərdə tutulmuşdur.

**Tarix elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun icraçı direktoru, Bakı, Azərbaycan*
*E-mail: emadatli@gmail.com*

# MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR

## JURNAL HAQQINDA

“Sosiologiya. Sosial psixologiya. Siyasət” elmi araşdırmalar jurnalı 2020-ci ildə “Rezonans” Sosial Araşdırmalar İctimai Birliyi tərəfindən təsis edilmişdir. 18 iyun 2020-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4307 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. 08 yanvar 2021-ci ildə mərkəzi Fransanın Paris şəhərində yerləşən Beynəlxalq Serial Nəşrlərin Qeydiyyatı Mərkəzi tərəfindən “Sosiologiya. Sosial psixologiya. Siyasət” elmi araşdırmalar jurnalına Beynəlxalq Standart Seriya Nömrəsi (İSSN L: 2709-7854) verilmişdir.

Jurnalda əsasən sosiologiya, psixologiya, siyasət, fəlsəfə, tarix, hüquq kimi ictimai və humanitar elm sahələrinin ümumkonseptual məsələlərini elmi-metodoloji cəhətdən ifadə edən, müəlliflərin yeni ideyavə yanaşmalarını əks etdirən elmi-analitik məqalələrin, yeni nəşrlərə dair diskussiya məzmunlu rəy və şərhlərin dərcinə üstünlük verilir.

Müstəqil, resenziyalı, elmi nəşrdir. İl ərzində 4 sayı çap edilir. Jurnalın nüsxələri kitabxanalara, beynəlxalq indeks təşkilatlarına, abunəçilərə və məqalə müəlliflərinə çap olunduqdan sonrakı 1 ay ərzində təqdim edilir.

Azərbaycan, türk, rus və ingilis dillərində məqalələr dərc edilir.

## ÜMUMİ QAYDALAR

### *I. Məqalələrin məzmunu*

Jurnala göndəriləcək məqalələr sosial elmlər sahəsinə öz töhfəsini verəcək və sosial elmlərə yenilik gətirəcək səviyyədə aktual və orijinal olmalı, analitik xarakter daşımalı və akademik tələblərə cavab verməlidir. Elmi məqalənin **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmalı, **Mətn** hissəsində tədqiq edilən məsələlər, qaldırılan problemlər bölmələr üzrə ətraflı şərh edilməli, **Nəticə** hissəsində elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi qənaət, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməli, təklif və tövsiyələr irəli sürülməlidir.

### *II. Məqalələrin strukturu, tərtib edilmə qaydaları və həcmi*

Redaksiyaya təqdim edilən məqalələr Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu tələblərə (http://aak.gov.az) və “Sosiologiya.Sosial psixologiya.Siyasət” elmi araşdırmalar jurnalının “Müəlliflər üçün qaydalar”ına tam cavab verməlidir.

**Məqalələr dəqiq strukturlaşdırılmalıdır. Hər məqalədə ardıcıl olaraq:**

- UOT indekslər və PACS tipli kodlar təqdim edilir.
- Müəllifin adı və soyadı, Müəllifin işlədiyi qurumun adı və ünvanı, Müəllifin vəzifəsi, elmi dərəcəsi və elmi adı, təmsil etdiyi ölkə və electron poçt ünvanı səhifənin yuxarı sağ küncündə göstərilir.
- **Məqalənin adı** - səhifənin ortasında, böyük hərflərlə, qaraldılmış sriftlərlə (başlıq və mətn arasında - sətir atlama) verilir.
- Məqalənin yazıldığı dildə **Xülasə** və ən azı 5 **açar söz** göstərilir.
- Məqalənin Giriş hissəsi müəllif tərəfindən müəyyən edilir.
- **Əsas mətn** yarımbaşlıqlara bölünür.
- Tədqiqatın əsas elmi nəticələri qısa və ümumiləşdirilmiş şəkildə **Nəticə** hissəsində təqdim edilir.
- Məqalələrin sonunda iki dildə (azərbaycan dilində olan məqalələrə rus və ingilis, türk və rus dilində olan məqalələrə azərbaycan və ingilis; ingilis dilində olan məqalələrə azərbaycan və rus dillərində) **“Xülasə”** verilir (burada tədqiqatın elmi yeniliyi, tətbiqi əhəmiyyəti və nəticə göstərilir)
- Hər bir “Xülasə”dən sonra **açar sözlər** təqdim edilir.
- Cədvəl və şəkillərin adı olmalı və nömrələnməlidir.
- Məqalənin həcmi yuxarıdakı şərtlər nəzərə alınmaqla 8 səhifədən az olmamalıdır. A4 formatında, Times New Roman şrifti, şrift ölçüsü – 12, sətir aralığı - 1,5, abzas - 1 sm, haşiyələr: sol – 2,5 sm, sağ - 1,5 sm, yuxarı və alt - hər biri 2 sm olmalıdır.

- **Məqalədə rast gəlinən mənbələrə istinad olunma qaydası:**
- Məqalədə yalnız istinad edilən ədəbiyyat kodlaşdırılaraq sonda əlifba sırası ilə verilir.
- İstinad edilmiş ədəbiyyatın kodu mötərizədə yazılır. (Məs.: Duqlas Nortun fikrinə görə,
- "*İnstitutlar cəmiyyəti ... formal çərçivələrlə məhdudlaşdırır və sosial münasibətləri təşkilatlandırır*" [76, s. 35-36].)
- Məqalənin sonunda Ədəbiyyat siyahısı verilir.
- Ədəbiyyat siyahısı dissertasiyalara şamil edilən müvafiq qaydalara uyğun tərtib olunmalıdır.
- **Məqalələrin redaksiyaya təqdim edilmə qaydası:**

Məqalələr electron qaydada təqdim edilə bilər. Bunun üçün müəlliflər məqalələri jurnalın electron poçtuna (ssps.journal2020@gmail.com) göndərilməlidir.

Məqalə ilə yanaşı müəlliflər jurnalın saytındakı (sosiologiya-jurnali.az) **Arayış** bölməsində tələb edilən məlumatları yerləşdirib redaksiyaya təqdim etməlidirlər.

***III. Məqalələrin qiymətləndirilməsi, resenziyalaşdırılması və dərci***

"Sosiologiya.Sosial psixologiya.Siyasət" elmi araşdırmalar jurnalına göndərilən məqalələr əvvəlcə redaksiya tərəfindən jurnalın nəşri prinsipləri baxımından qiymətləndirilir. Nəşr prinsiplərinə uyğun olmayan məqalələr düzəldilmək üçün müəllifə göndərilə və ya resenziyalaşdırmadan imtina edilə bilər.

Resenziyalaşdırma üçün qəbul edilən məqalələrin resenziya prosesində elmi obyektivlik və elmi keyfiyyət kriteriyalarına xüsusi diqqət yetirilir. Resenziyalaşdırma üçün qəbul edilən yazılar müvafiq sahəyə aid iki resenzentə göndərilir. Resenzentlərin adları məxfi saxlanılır. Müəlliflərin resenzentlərin və redaksiyanın tənqid, irad və təkliflərini nəzərə almaları zəruridir. Müəlliflər razılaşmadıqları məqamlarla bağlı əsaslandırılmış şəkildə etiraz etmək hüququnu saxlayırlar. Nəşrə qəbul edilməyən məqalələr müəlliflərinə qaytarılmır.

***IV. Kompliyuasiya və plagiatlıq halları***

Bütün məqalələr kompliyasiya və ya plagiat ola biləcəyi ehtimalına görə nəzərdən keçirilir. Plagiatlıq hallarına rast gəldikdə məqalə dərhal çap prosesindən kənarlaşdırılır.

***V. Müəlliflik hüquqları***

Jurnalda dərc edilən məqalələrdə müəlliflik hüququ qorunur və bu məqalələrin bütün nəşr hüquqları "Sosiologiya.Sosial psixologiya.Siyasət" elmi araşdırmalar jurnalına aiddir.

Göstərilən tələblərə cavab verməyən məqalələr dərc edilmir.

Hər hansı bir nömrədə nəşr edilmiş məqalələrdə rast gəlinən səhvlərin növbəti saylarda göstərilməsini nəzərdə tutan **"DÜZƏLİŞ"** bölməsi vardır.

Jurnalda **"ardı növbəti bölmədə"** adı altında seriya məqalələr dərc edilir.

**Nəşrin müəlliflərə təqdim edilməsi**

Jurnalın pulsuz çap nüsxəsini müəllif redaksiyada əldə edə bilər. Jurnalın müvafiq nömrəsinin elektron variantı Jurnalın web səhifəsində yerləşdirilir və müəlliflərin elektron poçt ünvanlarına PDF varianda göndərilir.

**Redaksiyanın ünvanı və əlaqə telefonları:**
**AZ11075**, Azərbaycan, Bakı, A.M.Cümə 19/69, b.28, m.28
**Tel.**: (+994 12) 464 83 56; (+994 55) 768 94 26

**URL:** www.sosiologiya-jurnali.az
**E-mail:** ssps.journal2020@gmail.com

## YAZARLAR İÇİN KURALLAR

### DERGİ HAKKINDA

"Sosyoloji. Sosyal psikoloji. Politika" bilimsel araştırma dergisi "Rezonans" Sosyal Araştırmalar Halk Birliği tarafından 2020 yılında kurulmuştur. 18 Haziran 2020 tarihinde Azerbaycan Cumhuriyeti Adalet Bakanlığı'nda 4307 numara ile basılı yayınlar siciline dahil edilmiştir. 8 Ocak 2021'de Uluslararası Standart Seri Numarası (ISSN L: 2709-7854), merkezi Paris, Fransa'da bulunan Uluslararası Seri Yayınları Tescil Merkezi tarafından "Sociology. Social Psychology. Politics" bilimsel araştırma dergisine atandı.

Dergide ağırlıklı olarak sosyoloji, psikoloji, siyaset, felsefe, tarih, hukuk gibi sosyal ve insani bilimlerin genel kavramsal konularını ifade eden, yazarların yeni fikir ve yaklaşımlarını yansıtan bilimsel-analitik makaleler, yeni yayınlara ilişkin tartışma görüş ve yorumları yayınlanmaktadır.

Bağımsız, hakemli, bilimsel bir yayındır. Yılda 4 sayı yayınlanmaktadır. Derginin kopyaları, yayın tarihinden itibaren 1 ay içinde kütüphanelere, uluslararası indeks kuruluşlarına, abonelere ve yazarlara sağlanır.

Makaleler Azerice, Türkçe, Rusça ve İngilizce olarak yayınlanmaktadır.

### GENEL KURALLAR

***I. Makalelerin İçeriği***

Dergiye gönderilecek makaleler, sosyal bilimlere katkı sağlayacak ve sosyal bilimlere yenilik getirecek ölçüde konuyla ilgili ve özgün, analitik ve akademik gereksinimleri karşılamalıdır. Bilimsel makalenin giriş bölümünde konunun uygunluğu kanıtlanmalı, metin bölümünde araştırılan konular, sorunlar bölümler halinde ayrıntılı olarak açıklanmalı, sonuç bölümünde yazarın bilimsel sonucu çalışmanın niteliğine göre yapılmalıdır. Alan ve makale, bilimsel yenilik, pratik önem, ekonomik verimlilik vb. netleştirilmeli, öneri ve önerilerde bulunulmalıdır.

***II. Makalelerin yapısı, kuralları ve hacmi***

Yazı işleri ofisine gönderilen makaleler, Yüksek Onay Komisyonu'nun süreli yayınlar (http://aak.gov.az) gerekliliklerini ve "Sociology. Social Psychology. Politics" bilimsel dergisinin "Yazarlar için Kuralları"nı tam olarak karşılamalıdır.

Makaleler net bir şekilde yapılandırılmalıdır. Sırayla her makalede:

- UOT endeksleri ve PACS tipi kodları sağlanır.
- Yazarın adı ve soyadı, yazarın çalıştığı kurumun adı ve adresi, yazarın konumu, bilimsel derecesi ve bilimsel unvanı, temsil ettiği ülke ve e-posta adresi sayfanın sağ üst köşesinde görüntülenir.
- Makalenin başlığı sayfanın ortasında, büyük harflerle, kalın yazı tipinde (başlık ile metin arasında - satır atlamalı) verilir.
- Özet ve makalenin dilinde en az 5 anahtar kelime.
- Makalenin giriş kısmı yazar tarafından belirlenir.
- Ana metin alt başlıklara ayrılmıştır.
- Araştırmanın temel bilimsel sonuçları, Sonuçlar bölümünde kısa ve genelleştirilmiş bir şekilde sunulmaktadır.
- Makalelerin sonunda iki dilde "Özet" verilmektedir (Azerice makaleler Rusça ve İngilizce, Türkçe ve Rusça makaleler Azerice ve İngilizce olarak; İngilizce makaleler Azerice ve Rusça olarak)
- Anahtar kelimeler her "Özet"ten sonra sunulur.
- Tablo ve şekiller isimlendirilmeli ve numaralandırılmalıdır.
- Makalenin hacmi yukarıdaki koşullar dikkate alınarak 8 sayfadan az olmamalıdır. A4 formatı, Times New Roman yazı tipi, yazı tipi boyutu - 12, satır aralığı - 1,5, paragraf - 1 cm, kenarlıklar: sol - 2,5 cm, sağ - 1,5 cm, üst ve alt - her biri 2 cm .
- Makalede bulunan kaynaklara nasıl başvurulur:
- Makalede sadece atıfta bulunulan literatür kodlanmış ve sonunda alfabetik sıraya göre verilmiştir.

- Alıntı yapılan literatürün kodu parantez içinde yazılmıştır. (Örnek: Douglas North'a göre,
- "Kurumlar toplumu ... resmi çerçevelerle sınırlar ve sosyal ilişkileri düzenler" [76, s. 35-36].)
- Kaynakça listesi makalenin sonunda verilmiştir.
- Bibliyografya, tezler için geçerli olan ilgili kurallara uygun olarak derlenmelidir.
- Yazı İşleri Müdürlüğüne Makale Gönderme Prosedürü:

  Makaleler elektronik olarak gönderilebilir. Bunun için yazarların makaleleri derginin e-posta adresine (ssps.journal2020@gmail.com) gönderilmelidir.

  Yazarlar, makale ile birlikte derginin web sitesinin (sosiologiya-jurnali.az) Kaynaklar bölümüne gerekli bilgileri yerleştirmeli ve editörlere sunmalıdır.

***III. Makalelerin değerlendirilmesi, hakem değerlendirmesi ve yayınlanması***

"Sociology. Social Psychology. Politics" adlı bilimsel dergiye gönderilen makaleler ilk olarak yayın kurulu tarafından derginin yayın ilkeleri açısından değerlendirilir. Yayınlanma ilkelerine uygun olmayan yazılar, düzeltilmesi veya gözden geçirilmesi için yazarına gönderilebilir. Hakemliğe kabul edilen makalelerin değerlendirilmesinde bilimsel objektiflik ve bilimsel kalite kriterlerine özel önem verilir. İncelenmek üzere alınan yazılar, ilgili alandaki iki hakeme gönderilir. Hakemlerin isimleri gizli tutulur. Yazarlar, hakem ve editörlerin eleştiri, yorum ve önerilerini dikkate almalıdır. Yazarlar, anlaşmazlık noktalarında nesnel olarak katılmama hakkını saklı tutar. Yayına kabul edilmeyen yazılar yazarlarına iade edilmez.

***IV. Komplikasyon ve intihal vakaları***

Tüm makaleler olası yanlış beyan veya intihal için gözden geçirilir. İntihal durumunda makale derhal baskı sürecinden çıkarılır.

***V. Telif hakkı***

Dergide yayınlanan makalelerin telif hakları saklıdır ve bu makalelerin tüm yayın hakları "Sociology. Social Psychology. Politics" adlı bilimsel dergiye aittir.

Bu şartlara uymayan makaleler yayınlanmayacaktır.

Herhangi bir sayıda yayınlanan makalelerin, sonraki sayılardaki hataları belirtmesi amaçlanan bir **"DÜZELTME"** bölümü vardır.

**Yayının yazarlara sunumu**

Yazar, derginin ücretsiz basılı bir kopyasını editör ofisinden alabilir. Derginin ilgili sayısının elektronik versiyonu derginin internet sitesinde yer almakta ve PDF versiyonu yazarların e-posta adreslerine gönderilmektedir.

**Yazı işleri müdürlüğünün adres ve iletişim numaraları**:

AZ11075, Azerbaycan, Bakü, AM Juma 19/69, s.28, m.28
Tel.: (+994 12) 464 83 56; (+994 55) 768 94 26

URL: www.sosiologiya-jurnali.az
E-posta: ssps.journal2020@gmail.com

## ПРАВИЛА ДЛЯ АВТОРОВ

### О ЖУРНАЛЕ

Научно-исследовательский журнал «Социология. Социальная психология. Политика» учрежден в 2020 году Общественным объединением социальных исследований «Резонанс». 18 июня 2020 года он был включен в реестр печатных изданий под номером 4307 в Министерстве юстиции Азербайджанской Республики. 8 января 2021 года Международный стандартный серийный номер (ISSN L: 2709-7854) был присвоен научно-исследовательскому журналу «Социология. Социальная психология. Политика» Центром регистрации международных серийных изданий со штаб-квартирой в Париже, Франция.

В журнале в основном публикуются научно-аналитические статьи, отражающие общие концептуальные вопросы социальных и гуманитарных наук, таких как социология, психология, политика, философия, история, право, отражающие новые идеи и подходы авторов, дискуссионные мнения и комментарии к новым публикациям.

Это независимое рецензируемое научное издание. В год выходит 4 номера. Копии журнала предоставляются библиотекам, международным индексным организациям, подписчикам и авторам в течение 1 месяца после публикации.

Статьи публикуются на азербайджанском, турецком, русском и английском языках.

### ОСНОВНЫЕ ПРАВИЛА

***I. Содержание статей***

Статьи, представляемые в журнал, должны быть актуальными и оригинальными, аналитическими и соответствовать академическим требованиям в той мере, в какой они вносят вклад в социальные науки и привносят инновации в социальные науки. Во вступительной части научной статьи должна быть обоснована актуальность темы, в текстовой части подробно изложены исследуемые вопросы, проблемы по разделам, в заключительной части научный вывод автора по характеру изучаемой темы. область и статья, научная новизна, практическая значимость, экономическая эффективность и др. должны быть разъяснены, должны быть сделаны предложения и рекомендации.

***II.Структура, правила и объем статей***

Статьи, представляемые в редакцию, должны полностью соответствовать требованиям ВАК к периодическим изданиям (http://aak.gov.az) и «Правилам для авторов» научного журнала «Социология. Социальная психология. Политика».

**Статьи должны быть четко структурированы.** В каждой статье по порядку:

- Приведены индексы UOT и коды типов PACS.
- Имя и фамилия автора, название и адрес учреждения, в котором работает автор, должность автора, ученая степень и научное звание, страна, которую он представляет, и адрес электронной почты отображаются в правом верхнем углу страницы.
- Название статьи дается посередине страницы, прописными буквами, жирным шрифтом (между названием и текстом - пропуск строки).
- Резюме и не менее 5 ключевых слов на языке статьи.
- Вступительная часть статьи определяется автором.
- Основной текст разбит на подзаголовки.
- Основные научные результаты исследования представлены в краткой и обобщенной форме в разделе «Результаты».
- В конце статей дается «Резюме» на двух языках (статьи на азербайджанском языке на русском и английском языках, статьи на турецком и русском языках на азербайджанском и английском языках; статьи на английском языке на азербайджанском и русском языках)
- Ключевые слова представлены после каждого «Резюме».

- Таблицы и рисунки должны быть названы и пронумерованы.
- Объем статьи должен быть не менее 8 страниц с учетом вышеуказанных условий. Формат А4, шрифт Times New Roman, размер шрифта — 12, межстрочный интервал — 1,5, абзац — 1 см, поля: левое — 2,5 см, правое — 1,5 см, верхнее и нижнее — по 2 см.
- Как ссылаться на источники, встречающиеся в статье:
- Только ссылочная литература в статье кодируется и приводится в алфавитном порядке в конце.
- В скобках указывается код цитируемой литературы. (Пример: по словам Дугласа Норта,
- «Институты ограничивают общество... формальными рамками и организуют общественные отношения» [76, с. 35-36].)
- В конце статьи приводится список литературы.
- Список литературы должен быть составлен по соответствующим правилам, применимым к диссертациям.
- Порядок подачи статей в редакцию:
- Статьи могут быть представлены в электронном виде. Для этого статьи авторов необходимо присылать на электронную почту журнала (ssps.journal2020@gmail.com).

  Вместе со статьей авторы должны разместить необходимую информацию в разделе «Справочная информация» на сайте журнала (sosiologiya-jurnali.az) и представить ее в редакцию.

### *III. Оценка, рецензирование и публикация статей*

Статьи, представляемые в научный журнал «Социология. Социальная психология. Политика», предварительно оцениваются редакционной коллегией с точки зрения принципов публикации журнала. Статьи, не соответствующие принципам публикации, могут быть направлены автору для исправления или отказа от рецензирования.

В процессе рецензирования статей, принятых на рецензирование, особое внимание уделяется критериям научной объективности и научного качества. Записи, полученные на рассмотрение, отправляются двум рецензентам в соответствующем поле. Имена рецензентов держатся в секрете. Авторы должны учитывать критические замечания, замечания и предложения рецензентов и редакторов. Авторы оставляют за собой право объективно не соглашаться по пунктам разногласий. Статьи, не принятые к публикации, авторам не возвращаются.

### *IV. Случаи сложности и плагиата*

Все статьи проверяются на возможное искажение фактов или плагиат. В случае обнаружения плагиата статья немедленно снимается с печати.

### *V. Авторское право*

Статьи, опубликованные в журнале, защищены авторским правом и все права на публикацию этих статей принадлежат научному журналу «Социология. Социальная психология. Политика».

Статьи, не соответствующие этим требованиям, не будут опубликованы.

Статьи, опубликованные в любом номере, имеют раздел **«ИСПРАВЛЕНИЕ»,** предназначенный для указания на ошибки в последующих выпусках.

### **Презентация публикации авторам**

Автор может получить бесплатный печатный экземпляр журнала в редакции. Электронная версия соответствующего номера журнала размещается на сайте журнала и высылается в формате PDF на электронные адреса авторов.

**Адрес и контактные телефоны редакции:**
AZ11075, Азербайджан, Баку, А.М.Джума 19/69, стр.28, м.28
Тел.: (+994 12) 464 83 56; (+994 55) 768 94 26

URL: www.sosiologiya-jurnali.az
Электронная почта: ssps.journal2020@gmail.com

## RULES FOR AUTHORS

### ABOUT THE JOURNAL

"Sociology. Social psychology. Politics" scientific research journal was established in 2020 by "Resonance" Social Research Public Union. On June 18, 2020, it was included in the register of printed publications under the number 4307 in the Ministry of Justice of the Republic of Azerbaijan. On January 8, 2021, the International Standard Serial Number (ISSN L: 2709-7854) was assigned to the scientific research journal "Sociology. Social Psychology. Politics" by the Center for Registration of International Serial Publications, headquartered in Paris, France.

The journal mainly publishes scientific-analytical articles expressing general conceptual issues of social and humanitarian sciences such as sociology, psychology, politics, philosophy, history, law, reflecting the authors' new ideas and approaches, discussion opinions and comments on new publications. .

It is an independent, peer-reviewed, scientific publication. 4 issues are published per year. Copies of the journal are provided to libraries, international index organizations, subscribers and authors within 1 month of publication.

Articles are published in Azerbaijani, Turkish, Russian and English.

### GENERAL RULES

#### *I. Content of articles*

Articles to be submitted to the journal must be relevant and original, analytical and meet academic requirements to the extent that they contribute to the social sciences and bring innovation to the social sciences. In the introductory part of the scientific article the relevance of the topic should be substantiated, in the text part the researched issues, problems should be explained in detail by sections, in the concluding part the scientific conclusion of the author according to the nature of the field and article, scientific novelty, practical significance, economic efficiency, etc. should be made clear, suggestions and recommendations should be made.

#### *II. Structure, rules and volume of articles*

Articles submitted to the editorial office must fully meet the requirements of the Higher Attestation Commission to periodicals (http://aak.gov.az) and the "Rules for Authors" of the scientific journal "Sociology. Social Psychology. Politics".

***Articles must be clearly structured. In each article in sequence:***

- UOT indices and PACS type codes are provided.
- Name and surname of the author, name and address of the institution where the author works, position of the author, scientific degree and scientific title, country he represents and e-mail address are displayed in the upper right corner of the page.
- The title of the article is given in the middle of the page, in capital letters, in bold fonts (between the title and the text - line skipping).
- Summary and at least 5 keywords in the language of the article.
- The introductory part of the article is determined by the author.
- The main text is divided into subheadings.
- The main scientific results of the research are presented in a short and generalized way in the Results section.
- At the end of the articles "Summary" is given in two languages (articles in Azerbaijani in Russian and English, articles in Turkish and Russian in Azerbaijani and English; articles in English in Azerbaijani and Russian)
- Keywords are presented after each "Summary".
- Tables and figures should be named and numbered.

- The volume of the article should not be less than 8 pages, taking into account the above conditions. A4 format, Times New Roman font, font size - 12, line spacing - 1.5, paragraph - 1 cm, borders: left - 2.5 cm, right - 1.5 cm, top and bottom - 2 cm each .
- How to refer to the sources found in the article:
- Only the referenced literature in the article is coded and given in alphabetical order at the end.
- The code of the cited literature is written in parentheses. (Example: According to Douglas North,
- “Institutions limit society ... to formal frameworks and organize social relations” [76, p. 35-36].)
- A list of references is given at the end of the article.
- The bibliography should be compiled in accordance with the relevant rules applicable to dissertations.
- Procedure for submitting articles to the editorial office:

  Articles can be submitted electronically. To do this, the authors' articles should be sent to the journal's e-mail (ssps.journal2020@gmail.com).

  Along with the article, the authors must place the required information in the Reference section of the journal's website (sosiologiya-jurnali.az) and submit it to the editors.

***III. Evaluation, peer review and publication of articles***

Articles submitted to the scientific journal "Sociology. Social Psychology. Politics" are first evaluated by the editorial board in terms of the principles of publication of the journal. Articles that do not comply with the principles of publication may be sent to the author for correction or refusal to be reviewed.

In the process of reviewing articles accepted for review, special attention is paid to the criteria of scientific objectivity and scientific quality. Entries received for review are sent to two reviewers in the relevant field. The names of the reviewers are kept confidential. Authors should take into account the criticisms, comments and suggestions of reviewers and editors. The authors reserve the right to objectively disagree on points of disagreement. Articles that are not accepted for publication will not be returned to the authors.

**IV. Cases of complication and plagiarism**

All articles are reviewed for possible misrepresentation or plagiarism. In case of plagiarism, the article is immediately removed from the printing process.

**V. Copyright**

Articles published in the journal are copyrighted and all publishing rights to these articles belong to the scientific journal "Sociology. Social Psychology. Politics".

Articles that do not meet these requirements will not be published.

Articles published in any issue have a **"CORRECTION"** section, which is intended to indicate errors in subsequent issues.

**Presentation of the publication to the authors**

The author can get a free printed copy of the magazine in the editorial office. The electronic version of the relevant issue of the magazine is placed on the website of the magazine and sent in PDF version to the e-mail addresses of the authors.

**Address and contact numbers of the editorial office:**

AZ11075, Azerbaijan, Baku, A.M.Juma 19/69, p.28, m.28
Tel .: (+994 12) 464 83 56; (+994 55) 768 94 26
URL: www.sosiologiya-jurnali.az
E-mail: ssps.journal2020@gmail.com